Bu bir xalq qəzetidi
ƏDALƏT

## Ərdoğan: “Yeni Çernobıl faciəsi yaşamaq istəmirik“



**”Biz yeni Çernobıl faciəsi yaşamaq istəmirik”.**

Adalet.az ”Anadolu”ya istinadən xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ukrayna Prezidenti Volodimir Zelenski və Birləşmiş Millətlər Təşkilatının (BMT) baş katibi Antonio Quterreş ilə üçtərəfli zirvə görüşündən sonrakı birgə mətbuat konfransında deyib.

Türkiyə lideri İstanbul razılaşmasının yaratdığı müsbət atmosferin daimi sülhə çevrilməsi imkanlarını qiymətləndirdiklərini bildirib. ”Diplomatik prosesi canlandırmaq üçün beynəlxalq ictimaiyyətin daha çox məsuliyyəti var. Biz bunun həyata keçirilməli olduğunu xüsusi qeyd etdik”, - Türkiyə rəhbəri vurğulayıb. Ərdoğan Zelenskinin dəvəti ilə Lvovda olmaqdan məmnunluğunu bildirib. Zelenski ilə ikitərəfli görüşdə ölkələr arasında strateji tərəfdaşlıq səviyyəsindəki əlaqələrin bütün aspektlərini dəyərləndirdiklərini vurğulayan Ərdoğan mövcud şərtlərdə əməkdaşlığı və həmrəyliyi yaxşılaşdırmaq imkanlarını müzakirə etdiklərini bildirib. ”Təbii ki, təxminən 6 aya yaxın davam edən müharibə danışıqlarımızın əsas mövzusu oldu. Bu münasibətlə onun bütövlüyü və suverenliyinə dəstəyimizi bir daha vurğuladım”, - Türkiyə lideri vurğulayıb.

## MEDİA jurnalistlərə müraciət etdi

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi qanunvericiliklə müəyyən olunmuş səlahiyyətləri çərçivəsində mütəmadi olaraq media subyektlərinin fəaliyyəti ilə bağlı təhlillər aparır və Agentliyin ümumi fəaliyyəti barədə hesabatlar hər ay media ictimaiyyətinə təqdim edilir.**

Adalet.az xəbər verir ki, bu barədə Medianın İnkişafı Agentliyinin media subyektlərinə müraciətində deyilir.

”Aparılan təhlillər göstərir ki, bəzi media subyektləri öz fəaliyyətlərində jurnalistikanın əsas norma və prinsiplərini pozmaqla, materialların hazırlanmasında birtərəfliliyə yol verməklə, qarşı tərəf və ya tərəflərin mövqeyini öyrənməməklə, həmçinin aldadıcı başlıqlardan istifadə etməklə ”Media haqqında” Azərbaycan Respublikasının Qanununun və ”Redaksiya siyasəti və peşə etikası” qaydalarının tələblərini pozur. Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi media subyektlərini belə hallara yol verməməyə, fəaliyyətlərində ”Media haqqında” Azərbaycan Respublikasının Qanununa və ”Redaksiya siyasəti və peşə etikası” qaydalarına riayət etməyə çağırır, bildirir ki, belə hallar təkrarlanarsa, pozuntuya yol vermiş media subyektlərinə rəsmi xəbərdarlıq ediləcək və xəbərdarlıqlar Agentliyin rəsmi informasiya resurslarında yerləşdiriləcəkdir. Xəbərdarlığa əməl edilməyəcəyi təqdirdə isə qanunvericiliyə uyğun olaraq, növbəti tədbirlərin görülməsi təmin olunacaqdır.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi bütün media subyektlərini peşəkar və məsuliyyətli olmağa, eyni zamanda, informasiya alan tərəflərin də hüquqlarına hörmətlə yanaşmağa çağırır”, - müraciətdə qeyd olunub.

## "Un və çörək satışı bazarında monitorinqlər aparılır"

**İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti un və çörək satışı bazarında monitorinqlər aparır.**

Bu barədə Adalet.az-a qurumdan bildirilib. "Hazırda dünyada baş verən iqtisadi proseslər, ərzaqlıq buğdanın əsas istehsalçısı və ixracatçısı olan Rusiya və Ukrayna arasında baş verən hərbi münaqişənin yaratdığı problemlər, tədarük riskləri, ərzaqlıq buğda ixracında məhdudiyyətlər, dünya bazarında ərzaqlıq buğdaya tələbin yüksəlməsi qiymət artımına səbəb olub. Bu və digər amillər Azərbaycanda da un və çörəyin qiymətinə təsir göstərib. Hazırda daxili bazarda unun və nəticə etibarilə, çörəyin qiymətində artım müşahidə olunur.

Azərbaycanda ərzaqlıq buğda, un və çörəyin qiyməti tənzimlənən tariflərlə deyil, bazar iqtisadiyyatı prinsiplərinə uyğun olaraq, tələb-təklif əsasında və ərzaqlıq buğdanın dünya bazarındakı (o cümlədən, əsas idxal bazarlarındakı) qiymətinə görə formalaşır. "Sahibkarlıq fəaliyyəti haqqında" qanuna əsasən, sahibkarlar öz məhsulları (işləri, xidmətləri) üçün qiymətləri sərbəst müəyyən edirlər. Bununla belə, dünya ərzaq bazarında qiymətlərin artımı fonunda ölkəmizdə un və çörəyin qiymətlərində manipulyasiyalara yol verilməməsi üçün Dövlət Xidməti qanuna müvafiq tədbirlər həyata keçirir, əsassız qiymət dəyişikliyinin qarşısının alınması, qiymət formalaşması zamanı antiinhisar qanunvericiliyinə riayət olunmasına nəzarət məqsədilə istehlak bazarında mütəmadi monitorinqlər aparır. Dövlət Xidmətinin rəsmi internet saytında un istehsalçılarının topdansatış mərkəzləri, həmçinin məntəqələri, topdansatış qiymətləri, habelə iş vaxtı və əlaqə nömrələrinə dair məlumatlar yerləşdirilib və mütəmadi olaraq yenilənir", - deyə məlumatda qeyd olunub.

*Rəşad Məcid*

## Ana, görə bildin?

Bax:səh-2

## SİZ ALLAH, HANSI TƏRİQƏTİ QƏBUL ETSƏK BİZDƏN ƏL ÇƏKƏRSİZ?



**Ölkədə müxtəlif dövlətlərin dini missionerləri at oynadır. Hərəsi də bir təriqətlə. ”26-lar” filmində deyir ey, bir görün üstümüzə kimlər gəlir? İndi görün üstümüzə kimlər gəlir? Səudiyyə Ərəbistanı, İran, bir tərəfdən də gürcü menşevikləri, yəni qardaş Türkiyə... Neçə təriqət at oynadır: sələfilər, vəhhabilər, FETÖ-çular, nurçular və daha kimlər.**

Və çox qəribədir ki, bu təriqətlər bir məsələdə birləşir, birgə mübarizə aparırlar, o da şiəliyə qarşı. Şiəliyə qarşı belə mübarizsiniz gedin İranda mübarizə aparın da, hərçənd ki İranda şiəlik siyasətdi, apara bilməzsiniz. Tutub qulağınızı kəsərlər.

Ən pis hal odur ki, xalqın inandığı bəzi ziyalılar da həmin təriqətlərin üzvüdürlər və bir-birlərinə pas verirlər. Bununla da ölkədə əmin-amanlığı, asayişi pozmağa və xalqı parçalamağa çalışırlar.

Qardaşlar, demokratik ölkədir, din azaddır. Hansı inancı daşıyırsan, özün bilərsən, istərsən lap yezidi kürdlər kimi şeytana inan. Amma İmam Hüseyni sevənlərə qarşı düşmənçilik etməyin. Özü də elə bir ölkədə ki əhalisinin 80 faizindən çoxu İmam Hüseyn aşiqidi.

**Bəli, İranın da Azərbaycanda din tacirləri çoxdu. Onların məqsədi də İmam Hüseyn sevgisi deyil, siyasi şiəliyi yaymaqdır. Beləleriylə də mübarizə aparın, yoxsa nə düşmüsünüz şiəliyin üstünə?**

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev
Gündəlik hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 37 (5974) 20 avqust 2022-ci il
Qiyməti 30 qəpik

# İlham Əliyev: "Qarabağda yaşayan ermənilərin nə stasusları olacaq, nə də müstəqillikləri"



Bax:səh-2

## SƏBAİL STADİONU BELƏ KEF ELƏMƏMİŞDİ




**Bayılın düz ortasında yerləşən bu stadionda bir neçə dəfə olmuşam. Uzağı 300-400 adam olar, onlar da əsasən qonaq komandanın azarkeşləridir. ”Səbail” azarkeşlərinin 100-ü keçdiyini görməmişəm. Bu fanklubu da yəqin ki, komanda özü yaradıb. Stadion düz mərkəzdə yerləşir, hər tərəfi də həyət evidi, yəni əhali yaşayır. Həyətindən sıçrasa meydançanın ortasına düşər. Amma komandalarını dəstəkləməyə gəlmirlər. Ona görə ki, komanda süni yaradılıb. Nə isə...**

Amma ”Turan” Tovuzla oyunda stadionda demək olar ki, boş yer yox idi. Stadion yaranan gündən belə xoşbəxt olmamışdı, belə kef görməmişdi.

Stadion sevincindən ağlayırdı. Stadionu dolduran ”Səbail”in azarkeşləri deyildi, Bakıda yaşayan tovuzlular idi, bir də Tovuzdan 400 kilometrlik yolu bu istidə basa-basa gələn azarkeşlər. Sağ olsunlar, komandalarına yaxşı dəstək oldular axıra qədər. ”Turan” layiqli qələbə qazandı, həm Tovuz camaatını sevindirdi, həm də futbolsevərləri.

AFFA, indi gördünmü region komandası nə deməkdir? ”Turan”a uğurlar arzulayırıq. Ayxan Abbasov çox qısa zamanda yaxşı bir komanda formalaşdıra bilib. Necə ki ”Sumqayıt”da da formalaşdıra bilmişdi.

**Çörəyi ver çörəkçiyə, birini də üstəlik.**

## Erməni kvadrakopterini ələ keçirən hərbçimiz danışdı



**Hərbi Hava Qüvvələrinin Hava hücumundan müdafiə bölmələrində sutkaboyu fasiləsiz olaraq xidmət aparılır, hava məkanımız daima izlənilir və müvafiq tədbirlər görülür.**

Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. Yüksək döyüş hazırlığının nəticəsidir ki, hava hücumundan müdafiə bölmələrinin sayıqlığı sayəsində avqustun 13-ü Şuşa şəhəri ətrafında bölmələrimizin mövqeləri üzərində kəşfiyyat məqsədli uçuşlar həyata keçirməyə cəhd göstərən qanunsuz erməni silahlı dəstələrinə məxsus kvadrakopter aşkar edilib və xüsusi üsulla endirilərək ələ keçirilib. Azərbaycan-Ermənistan dövlət sərhədində, eləcə də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində döyüş növbətçiliyi aparan Ordumuzun şəxsi heyəti istənilən təxribatın qarşısını almağa hazırdır. Nazirliyin yayımladığı videoda erməni kvadrakopterini aşkarlayaraq ələ keçirən ordumuzun kiçik çavuşu Əbülfəz Əhmədi hadisə barədə danışıb.

## ERMƏNİLƏRƏ ULTİMATUM VERMƏK LAZIMDI



**Laçından və Zabuxdan çıxan ermənilər yenə vandallıqlarından əl çəkmirlər. Unitazlarını aparsınlar, amma evləri niyə yandırırsız, ay namərdlər? Özü də dünya cəhənnəm, sülhməramlıların gözü qarşısında.**

Bizim xalq səbrli xalqdı, amma səbrin də bir həddi var. Əgər yanğınları dayandırmasalar Laçında və Zabuxda yandırdıqları hər evin qarşılığı biz də, heç uzağa getmirik, Əsgəranda və Ağdərədə 10 ev yandıra bilərik.

Ona görə də ermənilərə ultimatum verilmәlidi - özlərini yığışdırsınlar, yoxsa Dəmir Yumruq başlarında çatlayar.

Ay namərd, sənin Laçında, Zabuxda və ya hansısa kənddə evin olub? Elə qeyrətin olub Suriyada, Livanda, İraqda evinin qeyrətini çəkərdin də.

*Etibar Əliyev*

## İNFORMATİKA BİABIRÇILIĞI

Bax:səh-4

## Ermənistan Azərbaycanla sərhəddə 3 buraxılış məntəqəsi açacaq



**Ermənistan Azərbaycanla sərhəddə üç buraxılış məntəqəsi açacaq.**

Adalet.az xəbər verir ki, bu barədə Ermənistan Milli Təhlükəsizlik Xidmətinin təklif etdiyi layihədə deyilir.

Sözügedən buraxılış məntəqələri bunlardır: Kəlbəcər (Kəlbəcər rayonu), Sədərək (Sədərək rayonu), Eyvazlı (Qubadlı rayonu). Layihənin əsaslandırılmasında qeyd edilir ki, layihənin qəbul edilməsi Baş nazir Nikol Paşinyanın avqustun 4-də hökumətin iclasında verdiyi göstərişləri yerinə yetirmək zərurətindən irəli gəlir.

Qeyd edək ki, avqustun 4-də erməni Baş naziri bildirib ki, Ermənistan Naxçıvanlaə Azərbaycan arasında əlaqələri günü bu gün təmin etməyə hazırdır.

## Rusiya XİN: "Ermənistandan cavab gözləyirik"

**”Biz Ermənistana verdiyimiz nota ilə əlaqədar bu ölkədən cavab gözləyirik”.**

Adalet.az ”News.am”a istinadən bildirir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin İnformasiya və Mətbuat Departamentinin direktor müavini İvan Neçayev deyib. ”Bu gün Rusiyanın müvəqqəti işlər vəkili ilə Ermənistan Xarici İşlər Nazirliyinin rəhbərliyi arasında konstruktiv söhbət baş tutub. Biz cavab gözləyirik”, - o bildirib.

Xatırladaq ki, Rusiya avqustun 17-də Ermənistana nota verib. Buna səbəb isə ”Surmalu” ticarət mərkəzində baş verən partlayışla bağlı Rusiyanın ittiham olunmasıdır.

## SONUNCU YER UĞRUNDA GƏRGİN MÜBARİZƏ GEDİR



**Futbol üzrə Azərbaycan çempionatının 2-ci turun oyunları keçirildi. Təbii ki, iki turdan sonra komandalar haqqında çox söz demək mümkün deyil, amma hər kəsin gücü və qabiliyyəti az-çox göründü.**

Təxminən 4-5 komanda birincilik uğrunda mübarizə aparır və 4 komanda da axırıncı yer uğrunda çarpışır. Bunlar ”Səbail”, ”Sumqayıt”, ”Şamaxı” və ”Kəpəz” komandalarıdı.

”Kəpəz” axırıncı yer uğrunda mübarizədə uduzacaq. Çünki komanda hələ indi-indi özünü tanımağa başlayıb, həm də oyunlarını öz yerində keçirmir.

Amma azarkeşlərin Yaşar Vahabzadəni istefaya çağırması xoşagələn hal deyil. Hər hansı bir komandada məşqçini tez-tez dəyişdirmək o klubu məhvə aparar. Yaxşı, Yaşar çıxdı, yerinə Əli, Vəli, Pirvəli... kimsə gəldi, ona da iki-üç ay vaxt lazımdı futbolçuları tanısın, kimin nə qabiliyyəti olduğunu bilsin, oyun tərzini öyrənsin. Onacan yenə komanda uduzacaq, yenə istefa, yenə baş məşqçi. Gəncəlilərə bir az səbr arzulayıram, Yaşar Vahabzadəyə də uğur!

Amma o qapıçı ilə nəinki Bakıya gəlmək olar, heç Yevlaxa çatmaq olmaz. Ən adi topları buraxdı.

## Türkiyədə Prezident seçkilərinin vaxtı açıqlanıb



**Türkiyədə Prezident seçkiləri 2023-cü il iyunun 18-də keçiriləcək.**

Trend-in məlumatına görə bu barədə, bu barədə Türkiyənin ədliyyə naziri Bekir Bozdağ açıqlama verib.

”Türkiyədə Prezident seçkiləri 2023-cü il iyunun 18-də keçiriləcək. Bu seçkilər Prezident Rəcəb Tayyib Ərdoğanın namizəd olacağı ikinci seçkilər olacaq”,- deyə o əlavə edib.

## İRƏVANDAKI PARTLAYIŞ



**İrəvanda ”Surmalu” bazarında baş verən partlayışa səbəb olan pirotexnika İrandan alınıbmış. Görünür, İran Ermənistana vaxtında xəbər verə bilməyib ki, o pirotexnikanın içində sizə azərbaycanlıları qırmaq üçün sursat da göndərmişik.**

## ŞƏKƏR YUSİFLİDƏN GÜNÜN STATUSU



***”Kamil Həmidov Astarada qazinin evini çəkib: deyir, bu cəngəllikdən adamı tapıb əsgər apara bilmisinizsə, onun problemini də həll edin. Çox haqlı münasibətdir”.***

## ÜST: "Meymunçiçəyi virusunun adının dəyişdirilməsi üzərində çalışırıq"

**Meymunçiçəyi virusu 92 ölkədə müşahidə edilib. Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Gebreyesus mətbuat konfransında bildirib.**

Onun sözlərinə görə, dünya üzrə yoluxma sayı 35 mini keçib və 12 nəfər virusa görə həyatını itirib.

Gebreyesus qeyd edib ki, onlar COVID-19 pandemiyası zamanı müşahidə etdikləri kimi, peyvəndlərə ədalətsiz çıxışın təkrarlanacağından və ən yoxsulların geridə qalmağa davam edəcəyindən narahatdırlar.

O, həmçinin əlavə edib ki, meymunçiçəyi virusunun adının dəyişdirilməsi üzərində iş gedir.

## BİR STATUS DA RASİM MÜZƏFFƏRLİDƏN



**“Xoşluqla maşınlarımız keçməsə, zorla tanklarımız keçəcək”.**

## GÜNÜN LƏTİFƏSİ



Deyir bostanı belləyirdim.

Birdən gördüm ki, yerdə 50 qəpiklik metal pul var. Götürüb cibimə qoydum.

Təzədən belləməyə davam edirəm.

Görürəm yenə 50 qəpiklik pul. Beləcə düz on dəfə ard-arda.

**- Bəlkə xəzinədir?**

**- Ə, yox ee, sən demə, şalvarımın cibi deşik imiş.**

## Müəllim, direktor və müavinlərinin maaşlarına əlavələr ediləcək



**Prezident İlham Əliyev ”Dövlət ümumi təhsil müəssisələrinin rəhbər işçilərinin və həmin təhsil müəssisələrinin (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrinin) təhsilverənlərinin vəzifə maaşlarına aylıq əlavələr müəyyən edilməsi haqqında” fərman imzalayıb.**

Adalet.az xəbər verir ki, fərmana əsasən, 2022-ci il sentyabrın 1-dən dövlət ümumi təhsil müəssisələrinin aşağıdakı rəhbər işçilərinin və həmin təhsil müəssisələrinin (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrinin) sertifikatlaşdırmadan keçən təhsilverənlərinin vəzifə maaşlarına aylıq əlavə müəyyən edilib:

- direktor və direktor müavinlərinin (təhsilalanların sayına görə);
- təhsilverənlərin (sertifikatlaşdırmanın nəticəsinə görə).

Nazirlər Kabinetinə bu Fərmanın nəzərdə tutulan əlavələrin məbləğlərini 2022-ci il sentyabrın 1-dək təsdiq etmək tapşırılıb.

## İlham Əliyev onlara general rütbəsi verdi

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında sərəncam imzalayıb.**

Adalet.az xəbər verir ki, sərəncamla Dövlət Sərhəd Xidmətinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilib.

**General-leytenant ali hərbi rütbəsi**

**general-mayor Rəsul Afiq oğlu Tağıyevə**
**general-mayor Müzəffər Ələsgər oğlu Pirizadəyə**
**general-mayor Elçin Zaur oğlu İbrahimova**
**general-mayor ali hərbi rütbəsi**
**polkovnik Zaur Rəşidoviç Niftullayevə**
**polkovnik Natiq Zahid oğlu Abuzərliyə**
**polkovnik Misir Əziz oğlu Əliyevə**
**polkovnik Aqil İnşalla oğlu Babayevə**
**polkovnik Azad Əyyub oğlu Abdullayevə**
**polkovnik Vüsal Eynulla oğlu Sultanova.**

## *Ətraf mühitə çirkli maddə atılmasına görə ödəniş normativləri dəyişdirilib*




**Nazirlər Kabineti ”Təbii ehtiyatlara görə ödəmələrin, çirkləndirici maddələrin təbii mühitə atılmasına görə ödəmələrin tətbiqi və həmin ödənişlərdən əmələ gələn vəsaitdən istifadə haqqında” 3 mart 1992-ci il tarixli qərarında dəyişiklik edib.**

Adalet.az xəbər verir ki, bununla bağlı Baş Nazir Əli Əsədov qərar imzalayıb.

Qərar ətraf mühitə çirkləndirici maddələrin atılmasına görə ödəniş normativlərinin yeni iqtisadi şəraitə uyğunlaşdırılması və təbiətdən istifadəçilərin ətraf mühitin mühafizəsi sahəsində fəaliyyətinin tənzimlənməsi, tullantıların atılmasına, axıdılmasına və yerləşdirilməsinə görə onların məsuliyyətinin artırılmasına nail olmaq məqsədilə qəbul edilib.

”Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı nəticəsində ətraf mühitə təsirlər getdikcə artmaqdadır. Təsərrüfat və digər fəaliyyətlər üçün müəyyən edilmiş ekoloji və texnoloji tələblərə, qüvvədə olan standartlara və ətraf mühitin kəmiyyət, keyfiyyət normativlərinə riayət etmək, ətraf mühitin mühafizəsi və təbii resursların bərpası üzrə tədbirləri həyata keçirmək üçün ətraf mühitin çirkləndirilməsinə görə ödəniş normativlərinin yenilənməsinə zərurət yaranıb.

Belə ki, qüvvədə olan mövcud qiymətlər 1992-ci ilin iqtisadi göstəricilərinə görə təsdiq edilib. Bu da hazırki dövrün tələblərinə cavab vermir və ölkənin iqtisadi inkişafı ilə uzlaşmır. Bu normativlər ötən dövr ərzində baş vermiş iqtisadi devalvasiyalar nəticəsində öz təsir qüvvəsini itirmişdir və buna görə də müəssisələr qarşısında ciddi məsuliyyət yaratmır.

Ötən dövr ərzində Azərbaycan BMT-nin ”Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında” Bazel Konvensiyasına qoşulub, tullantıların uçotunun və qeydiyyatının aparılması sisteminin təkmiləşdirilməsi məqsədi ilə Nazirlər Kabinetinin 2003-cü il 30 mart tarixli qərarı ilə ”Təhlükəli tullantıların pasportlaşdırılması Qaydası” və 2008-ci il 25 yanvar tarixli qərarı ilə ”İstehsal prosesində əmələ gələn tullantıların inventarlaşdırılması Qaydası” təsdiq olunub. Bu Qaydalarda da Bazel Konvensiyasının təsnifat sistemindən istifadə olunur. Tullantıların idarə olunma sisteminin beynəlxalq tələblərə uyğun təkmilləşdirilməsi də ölkə üçün böyük əhəmiyyət kəsb edir. Lakin bu günə qədər təhlükəli tullantıların təhlükəlilik xüsusiyyətləri 1985-ci ilin müvəqqəti təsnifat sistemi ilə müəyyənləşdirilirdi. Bu sistem tullantıların təhlükəlik xüsusiyyətinin ətraf mühitə və insan sağlamlığına zərərli təsirlərini tam əhatə etmir.

Qərar ətraf mühitə çirkləndirici maddələrin atılmasına görə ödəniş normativlərinin yeni iqtisadi şəraitə uyğunlaşdırılması və təbiətdən istifadəçilərin ətraf mühitin mühafizəsi sahəsində fəaliyyətinin tənzimlənməsi, tullantıların atılmasına, axıdılmasına və yerləşdirilməsinə görə onların məsuliyyətinin artırılmasına nail olmaqa imkan verəcək”, - deyə məlumatda qeyd olunub.

# *İlham Əliyev:* "Qarabağda yaşayan ermənilərin nə stasusları olacaq, nə də müstəqillikləri"

**Regionların inkişafı Dövlət Proqramının icrası ilə bağlı son illər ərzində bütün bölgələrdə quruculuq-abadlıq işləri daha geniş vüsət almışdır. Bununla bağlı Prezident İlham Əliyevin bölgələrə səfərləri müntəzəm xarakter daşıyır. Bölgələrdə aparılan işlərə nəzarəti Prezident İlham Əliyev bilavasitə özü aparır.**

Bölgələrdə İnfrastruktur layihələri icra edilir. İstər qazlaşdırma, istər elektrik enerjisi, su təchizatı, yolların tikintisi ilə bağlı çox böyük layihələr icra edilmişdir. İsmayıllı rayonunda qazlaşdırma 80 faizdən çoxdur, Ağsu rayonunda 100 faizə yaxındır. Bu iki rayonda son illərdə 10-dan çox elektrik yarımstansiyası inşa olunmuşdur və elektriklə təchizat tam təmin edilib. Yolların çəkilişi ilə bağlı - həm kənd yollarında, eyni zamanda, İsmayıllı-Muğanlı yolunun yeni hissəsində işlər icra edilir. Ağsuda və İsmayıllıda 160 çarpayılıq xəstəxana tikilmişdir, 100-ə yaxın məktəb inşa edilmiş, ya da əsaslı şəkildə təmir olunmuşdur. İş yerlərinin yaradılması ilə bağlı böyük layihələr icra edilib.

”Diri Baba” türbəsi bərpa və konservasiya olunub. ”Diri Baba” türbəsi öz nadirliyi ilə bütün Qafqaz bölgəsində seçilir. Yaşı 500 ildən çox olan bu türbə əsrlər boyu Azərbaycan xalqı tərəfindən müqəddəs yer kimi tanınıb.

”Basqal ölkəmizin qədim kəndlərindən biridir. Bu yerin tarixi siması qorunmalıdır, eyni zamanda, burada yaşayan insanlar üçün daha yaxşı şərait yaradılmalıdır, iş yerlərinin açılması üçün yeni imkanlar olmalıdır. Basqal qəsəbəsində 179 otaqlı müasir otelin açılışı bölgənin turizm potensialını böyük dərəcədə genişləndirəcək. Basqaldakı oteldə 300-ə yaxın iş yeri açılır və orada işləyənlər də yerli sakinlərdir”- deyə Bu günlərdə İsmayıllı rayonunun Basqal qəsəbəsində olan Prezident İlham Əliyev, Az Tv-yə verdiyi müsahibəsində bildirib. .

Səfəri zamanı Ağsu rayonunu da ziyarət edən Prezident, bu rayonda görülən işlər barədə də fikirlərini bölüşüb: ”Yeni iş yerlərinin açılması prosesi Azərbaycanda daim aparılır. Ağsu rayonunda böyük aqroparkın fəaliyyəti bölgə iqtisadiyyatına töhfə verir. Orada da 200-ə yaxın iş yeri açılıb. Əhalinin artması iş yerlərinə tələbatı artırır. Özəl sektor üçün yaradılmış şərait yeni iş yerlərinin açılmasına kömək edir. Kənd təsərrüfatının inkişafı ilə bağlı əvvəlki illərdə qəbul edilmiş qərarlar öz bəhrəsini verir.

Dünya iqtisadiyyatına inteqrasiya uğurla davam edir. Ümumi daxili məhsulumuzun əksər hissəsini özəl sektor formalaşdırır, həm yerli şirkətlər, həm xarici investorlar, xarici şirkətlər. Belə olan halda dünyada gedən istənilən iqtisadi proses bizə də təsirsiz ötüşmür”.

İlham Əliyev dünyada baş verən qlobal böhranla bağlı ərzaq təhlükəsizliyi məsələsinə də toxinub: ”Bu gün Azərbaycan özünü ət məhsulları ilə 90 faiz, quş əti ilə 80 faiz, süd, süd məhsulları ilə 85 faiz səviyyəsində təmin edir. Növbəti 3-5 il ərzində biz yüz faiz səviyyəsinə çıxacağıq. Biz özümüzü taxılla hələ uzun illər tam təmin edə bilməyəcəyik. Özümüzü buğda ilə təminetmə əmsalı Azərbaycanda bu ilin əvvəlinə 62 faiz idi. Məhz bu məqsədlə xüsusi proqram işlənib hazırlandı, yeni növ subsidiyaların tətbiq edilməsinə start verildi. Təqribən 3-4 il ərzində biz özümüzü ərzaqlıq buğda ilə 80 faiz səviyyəsində təmin edə bilsək böyük nəticə olacaqdır.



Özümüzü bütün problemlərdən tam sığortalamaq üçün praktiki işlər aparırıq və aparacağıq. Növbəti illərdə həm bu gün mövcud olan əkin sahələrində daha bol məhsul götürmək üçün suvarma layihələri, düzgün aqrotexniki tədbirlərin görülməsi və digər tədbirlər, subsidiyalar nəticəsində biz məhsuldarlığı böyük dərəcədə artıra biləcəyik. Azad edilmiş torpaqlarda da əkin-biçin işləri aparılır. Gələcəkdə Qarabağda və Şərqi Zəngəzurda yetişdiriləcək məhsullar, o cümlədən ərzaq təhlükəsizliyimizin tam təmin edilməsində bizə böyük kömək göstərəcək.

Azad edilmiş ərazilərdə həm kənd təsərrüfatı, həm maldarlıq, həm bitkiçilik üçün çox münbit iqlim və təbii şərait var. Maksimum dərəcədə bundan səmərəli şəkildə istifadə olunmalıdır. Bu il 50 min hektarda taxıl əkilmişdir və artıq məhsul yığımı da sona çatmaq üzrədir.Növbəti illərdə məhsuldarlıq daha da artacaq, əkin sahələri artacaq. Füzuli, Ağdam, Cəbrayıl, Qubadlı rayonlarında taxılçılıq, o cümlədən üzümçülük, meyvəçilik, fındıqçılıq sahələri inkişaf etməlidir”.

”Kəlbəcər, Laçın, Zəngilan rayonlarında heyvandarlığın çox böyük perspektivləri var.Artıq ikinci ildir ki, çobanlar ilə qoyun sürüləri oraya göndərilib. Artıq Kəlbəcər və Laçın rayonlarında yüzlərlə arıçı öz təsərrüfatını qurub və bol məhsul götürür. Artıq biz bal ixracatçısına çevrilmişik”.

44 günlük ”Zəfər qələbəsindən” dərs çıxarmayan erməni separatçıların ara-sıra təxribat xarakterli hərəkətlərinə cavab olaraq keçirilən hərbi əməliyyatlarla bağlı Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan bildirdi ki, ”Bir neçə saat ərzində davam edən ”Qisas” əməliyyatı cəza tədbiri idi. Azərbaycan şəhidinin qanı düşmənlərə baha başa gəldi və onlar bunu unutmamalıdır. Əgər yenə də buna oxşar təxribat törədilərsə, cavab da eyni olacaq və heç kim bizə mane ola bilməz, heç kim bizi durdura bilməz. ”Qisas” əməliyyatı Ermənistana bir daha göstərdi ki, bizi heç kim və heç nə dayandıra bilməz, nə kiminsə bəyanatı, nə kiminsə açıqlaması, nə hansısa telefon zəngi.

İkinci Qarabağ müharibəsi gücümüzü göstərdi. Dəfələrlə Ermənistana xəbərdarlıq etmişdik ki, odla oynamasınlar, yeni reallıqları qəbul etsinlər və hərbi təxribatlara əl atmasınlar. Erməni silahlı birləşmələri Qarabağı birdəfəlik tərk etməlidir. Bu, Ermənistanın öhdəliyidir, 10 noyabr 2020-ci ildə Ermənistan tərəfindən imzalanmış kapitulyasiya aktında təsbit edilib və biz buna nail olacağıq.

10 noyabr 2020-ci il Bəyannaməsində açıq-aydın göstərilir ki, yeni yol çəkiləcək və üç il ərzində bu yolun planlaşdırılması və razılaşdırılması təmin edilməlidir. Bu bəndi üçtərəfli Bəyanata saldıran məhz Azərbaycandır. Ermənistanı Xankəndi ilə birləşdirən yol Laçın şəhərinin içindən keçir. Əgər bu bənd olmasa idi, o zaman Laçın şəhəri beş kilometr enində olan zonaya düşəcəkdi və tez bir zamanda oraya keçmiş köçkünləri qaytarmaq mümkün olmayacaqdı”.

”Bütün Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı işlər aparılır. 32 kilometr uzunluğunda olan yol cəmi bir il ərzində inşa edildi. Rusiya Müdafiə Nazirliyi ən yüksək səviyyədə bu marşrutu bizimlə razılaşdırdı və təsdiqlədi.

Laçın şəhərindən, Zabux və Sus kəndlərindən qanunsuz məskunlaşmış insanlar çıxarılmalıdır. Onların orada qalması hərbi cinayətdir. Çünki o, Cenevrə konversiyalarının qaydalarına ziddir. İşğalçı ölkə işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma apara bilməz. Bu, hərbi cinayətdir. Laçın şəhərinin, Sus, Zabux kəndlərinin camaatı yaxın zamanlarda öz doğma yerlərinə qayıdacaqdır.

Azərbaycan üzərinə götürdüyü bütün öhdəliklərinə sadiqdir, Ermənistan isə, sadəcə olaraq, yenə də fitnəkarlıqla məşğuldur. Vaxt uzatmaq onlara heç nə verməyəcək. Əgər onlar fikirləşirlər ki, bir ildən, ya ilyarımdan sonra nəsə dəyişəcək bunların xeyrinə, səhv edirlər. Qarabağda yaşayan ermənilər bizim vətəndaşlarımızdır. Nə qədər onlar bunu tez dərk etsələr, o qədər də hamımız üçün yaxşı olar. Ermənistan hakimiyyəti Qarabağda yaşayan ermənilərə öz təsir imkanlarını itirir. Əksinə, Azərbaycan hakimiyyəti öz təsir imkanlarını artırır. Qarabağda yaşayan ermənilər açıq-aydın gördülər ki, Ermənistan hakimiyyəti onların problemlərini həll etmək iqtidarında deyil. Bu gün danışıqlar masasında hər hansı bir statusdan, ümumiyyətlə, söhbət belə getmir. Qarabağda yaşayan ermənilərin hüquqları da, təhlükəsizliyi də Azərbaycan dövləti tərəfindən təmin ediləcək. Qarabağda yaşayan ermənilər düzgün addım atmalıdırlar, başa düşməlidirlər ki, onların gələcəyi ancaq Azərbaycan cəmiyyətinə inteqrasiyadan keçir. Ermənistan öz təsir imkanlarını itirmək üzrədir, Azərbaycan hakimiyyətinin müsbət təsiri artır və artacaq. Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, tarixi nöqteyi-nəzərdən, beynəlxalq hüquq nöqteyi-nəzərindən tərkib hissəsidir.

Qarabağda yaşayan ermənilərin nə statusu olacaq, nə müstəqilliyi olacaq, nə də ki, hansısa xüsusi imtiyazı olacaq. Azərbaycan vətəndaşları necə, onlar da elə. Azərbaycan vətəndaşlarının hüquqları necə qorunursa, onların da elə. Azərbaycanda yaşayan xalqların hüquqları necə qorunursa, onların da elə. Ancaq budur yol”.

**Hazırladı:**
**Rüstəm Hacıyev**

# *Deputat:* "Məktəbli forması başdan-ayağa hoqqabazlıqdır"

**”Bu gün əksər vətəndaşımızın məktəblə birbaşa əlaqəsi var. Onların da ən yaralı yeri dərsliklər və məktəbli paltarıdır. Heç nəyi gizlətmək lazım deyil, həm dərslik nəşri, həm də məktəbli paltarı ayrı-ayrı imtiyazlı şəxslərin inhisarındadır”.**

Adalet.az xəbər verir ki, bunu deputat Fazil Mustafa deyib.

”Ona görə də hər vasitə ilə min hoqqa çıxarırlar ki, vətəndaşdan pul qoparsınlar. Dərslik pulsuz verilir, nə olsun? Üzərində on-on beş yardımçı kitabı da almalısan ki, kimlərsə pul qazansın? Əlavə məcburən yalnız yükü olub məzmunu olmayan bu qədər kitab aldırarlar? Üstəlik də bu dərslikləri niyə may ayında yığırsınız?

Üç ay nəklə uşaq təkrar edəcək? Onsuz da dərslər mənasızdır. Çox vətəndaş uşağının təhsil alması naminə bunu boğazından kəsib ödəyir. Məktəbli forması isə başdan-ayağa hoqqabazlıqdır.

Formalar bir neçə məmurun sexində istehsal olunur və üzərinə istədiyi qiymət yapışdırırlar. Hamı tökülub inhisarçıdan baha qiymətə forma almağa. Unutmayaq ki, bu forma çox uşaq üçün bir il işə yarayır. Təhsilin keyfiyyətinə diqqət yetirmək lazım, formasına deyil. Təklifim budur ki, müvafiq icra hakimiyyəti məktəbli qızlar və oğlanlar üçün ən azı 10 çeşid alternativ geyim formaları təqdim etsin. Qoy bir məktəbdə on çeşid bir-birinə yaxın forma olsun, təki valideyn onu rahat əldə etsin. Bəlkə elə valideyn var ki, forma almağa imkanı yoxdur, özü evdə tikib uşağa versin.



Bütün hallarda alternativ çox olanda qiymət də münasib olur. Əslində dövlət formanı pulsuz təmin etmənin yollarını tapsa yaxşı olardı. Yüz yerdə mənasız israfımız var, təhsildən hər yayındırılan vəsait küçədə bir cahilin, bir narkomanın sayının artması deməkdir. Bu ölkə onsuz da cahilliyə məğlub olmağa doğru gedir...”

# Laçın şəhərinə qayıdışa hazırlıq başlanacaq

**Laçın şəhərindən otuz il əvvəl məcburi köçkün düşən və respublikamızın müxtəlif yerlərində müvəqqəti məskunlaşan həmvətənlərimizin doğma yurda qayıdışa hazırlanması barədə Prezident İlham Əliyevin verdiyi tapşırığın icrasına başlanıb.**

Bu məqsədlə avqustun 16-da Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində onların bir qrupu ilə görüş keçirilib. Adalet.az xəbər verir ki, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhid olanların xatirəsi ehtiramla yad edilib. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun erməni faşizmi üzərində qələbəsi nəticəsində düşmənin bir güllə atmadan tərk etdiyi Laçın şəhərində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlılarının, üçtərəfli Bəyanatın şərtlərinə uyğun olaraq, dilokasiyanın dəyişdirilməsi, qanunsuz məskunlaşdırılmış ermənilərin bu ərazidən çıxarılması dövlətimizin gücünün, qüdrətinin növbəti nümayişi kimi dəyərləndirilib. Qanunsuz məskunlaşdıqları yerlərdən çıxarkən ermənilərin evləri və meşə sahələrini yandıraraq, yenidən vandalizm törətməsi qətiyyətlə pislənilib. Laçınlılar məcburi köçkünlük dövründə onlara hərtərəfli dövlət qayğısı göstərildiyini bildirərək, həm buna görə, həm də ata-baba torpaqlarına qayıtmaq arzularını gerçəkləşdirdiyi üçün Prezident İlham Əliyevə minnətdarlıq bildiriblər. Birinci vitse-prezident Mehriban Əliyevanın köçkünlüklə bağlı problemlərin həlli ilə bağlı gördüyü işlər dərin razılıq hissi ilə qeyd edilib. Dövlət Komitəsinin Böyük Qayıdışa hazırlıq məqsədilə həyata keçirdiyi tədbirlər barəsində görüş iştirakçılarına ətraflı məlumat verilib. Bir daha diqqətə çatdırılıb ki, məcburi köçkünlüyü başa çatan vətəndaşların könüllü, təhlükəsiz şəraitdə və ləyaqətlə doğma yurda qayıdışını təmin etmək üçün dövlətimizin başçısının tapşırığı ilə bütün lazımi tədbirlər həyata keçirilir. Görüşdə qayıdışa hazırlıq və köçürülmənin təşkili ilə bağlı açıq və səmimi fikir mübadiləsi aparılıb. Laçınlılar doğma yurda qayıdıb, onun sosial-iqtisadi inkişafına, işğalın fəsadlarının aradan qaldırılmasına töhfə verməyə, dağlar qoynundakı şəhəri dirçəltməyə hazır olduqlarını bildiriblər.



Tədbir iştirakçıları Laçına qayıdış xəbərini sevinclə qarşıladıqlarını və tezliklə qayıdacaqlarına ümidvar olduqlarına bildiriblər.

*Rəşad Məcid*

# Ana, görə bildin?



***Zabuxdan keçirdik.***

***- Ana, görə bildin?***

***- Evin üstünü, damını gördüm ancaq. Bəlkə, qayıdanda, geri qalxanda bir az çox görünər.***

***Bu il iyunun 14- də Laçına, doğulduğum Ağoğlan kəndinə getdiyim maşında yaxından tanıdığım ailənin - ana və oğulun dialoquydu bu.***

***Oğul maşını sürürdü. Ana isə qabaq oturacaqdan boylanıb 30 il görmədiyi doğma yerlərə baxırdı. Sülhməramlıların müşayiətiylə gedirdik deyə, dayanmağa icazə yox idi.***

***Ana ilə oğulun ilk baxışdan sakit, amma qəhər və həsrət dolu dialoqu hələ maşın Laçının vaxtilə "Poçt" deyilən ərazisinə qalxar-qalxmaz başlamışdı: Ora filankəsin eviydi... burda abidə vardı, dəyişiblər... dayıngilin evi görünür, odey odur...***

***Laçında kilsə tikiblər, Zabuxacan yol qırağına xaç işarəli daşlar düzüblər, hərdən qoyun otaran uşaqlar gözə dəyir.***

***Hələ o gün - iyunun 14-də Laçından keçəndə vitrinləri, qapı-pəncərələri sökülüb aparılan tikililərdən hiss olunurdu ki, "zorən qonaqlar" yol üstə, getmək ovqatındadır. İndi Zabux ətrafında haray-həşir qoparıblar, xaricilərin gəlib burada tikdikləri evlərdən çıxarılacaqlarına görə ah-nalə çəkirlər. Amma bütün bu yalançı ah-nalələr, harayhəşirlər maşından boylanıb öz evini - əlləri ilə daşını daş üstə qoyduğu yuvasını, övladlarını böyütdüyü doğma həyətini görmək istəyən o ananın keçirdiyi həyəcanın, neçə illərdən bəri ürəyində gəzdirdiyi nisgilin heç mində bir zərrəsi də deyil.***

***Zabuxda doğulub böyüyən, işğaldan sonra 30 il doğma yurd həsrətiylə yaşayan övladları yaşlı, təzyiqi, xəstəlikləri olan ananı məhz elə buna görə - bəlkə, maşından boylanıb uzaqdan da olsa evini, doğma kəndini gördü deyə özləriylə gətirmişdilər.***

***O vaxtlar Laçında uzaqbaşı 5-3 erməni ailəsi olardı, ya olmazdı, amma Zabuxda biri də yox idi. Zabux həm də əfsanələrlə dolu bir kənd olub. Deyirlər, Soltan bəy bu dərədə ermənilərin qarşısını kəsərək onları məhv edib.***

***... Axşamüstü geri qayıdanda ana yenə evlərinə sarı boylanırdı. Amma yenə də yaxşı görə bilmədi.***

***İnşallah, avqustun 25-dən sonra namərd qonaqlar çıxıb gedər, ana yenidən bu yerlərə gələr, salamat qalmış ev-eşiyini könül rahatlığı ilə görər, ürəyində qubar bağlamış neçə illərin nisgilini göz yaşları ilə əridib bitirər...***

*Rüstəm Hacıyev*

# Ukraynada müharibə sonsuzluğa qədərmi davam edəcək?



**Dünyanın tanınmış siyasətçilərinin ekspertlərinin bu məsələyə yanaşmaları da müxtəlifdir. Lakin onların əksəriyyətinin qənaəti ondan ibarətdir ki, hərbi qarşıdurma mütləq dayandırılmalı və tərəflər qarşılıqlı güzəştləri qəbul etməklə danışıqlar masasına oturmalıdırlar. Lakin göründüyü kimi bu o qədər də asan başa gələ bilən məsələ deyil.**

**Əvvala Rusiya tərəfi uzağı bir həftəyə qalib gələcəyinə inamı ilə artıq 6 aya yaxındır ki, istədiyinə nail ola bilmir və onların heç qələbə perspektivi belə görünmür. Buna baxmayaraq, danışıqlar masasına oturmaq istəmir və bunun üçün Ukrayna tərəfinin heç bir halda qəbul edə bilməyəcəyi, Donbass və Luqansk vilayətlərinin qondarma "müstəqilliyinin" tanınması kimi absurd şərtlər irəli sürür.**

**Təbii ki, yeni silahlarını sınaqdan çıxarmaq üçün haxıt poliqon tspan və müharubənin sonlanmasında maraqlı olmayan ABŞ və Qərbin fitvası və həm maddi, həm də hərbi dəstəyindən "ruhlanan" Ukraynada bu şərtləri qəbul etmir və edə də bilməz. Ukraynanıların danışıqlar masası arxasına otumaq üçün, rus qoşunlarının Krımdan, Donbas və Luqanskdan qeyri şərtsiz çıxarması və Ukraynanın ərazi bütövlüyünü tanıması kimi öz şərtləri var ki, bunu da ambisiyası çox yüksək olan, hələ də imperiyanın bərpssı xəyalları ilə yaşayan Putin Rusiyası heç bir halda qəbul etmir. Yəni yuxarıda qeyd etdiyimiz kimi, danışıqların baş tutma perspektivi demək olar ki, görümmür.**

**Əslində siyasi və hərbi ekspertlərin də düşündükləri kimi, məsələnin diplomatik həlli mümkünsüz görünür. Qalır qeyri diplomatik həlli, yəni bu da müharibəni sonsuzluğa qədər davam etdirmək.**

**Hələ ki, həm Rusiya rəhbərliyi, həm də Ukrayna rəhbərliyi qeyri diplomatik yola - müharibəni davam etdirməyə üstünlük verirlər. Müharibə isə dağıntılar, coxsaylı insan tələfatları, daha ağır faciələr deməkdir.**

**Maraqlıdır ki, Rusiya - Ukrayna müharibəsi hər iki dövlətlərlə yanaşı, bütün dünyanı ciddi iqtisadi böhran vəziyyətinə gətirib çıxarıb. Artıq Rusiyadan enerji asılılığı ilə üzləşən Avropa ölkələrində ciddi enerji böhranı ilə üsəzləşir. Qiymətlər sürətlə artır. Bu isə vətəndaşların etirazlarına səbəb olur. Qarşıdan gələn qış aylarında istiliklə bağlı, ərzaq və digər tələbatlarının qiymətlərində daha çox artımların olacağından xəbər verir.**

**Avropa buna hazırdırmı? Göründüyü qədər yox. Artıq Fransa, Almaniya, Bolqsrıstan, Macarıstan və digər dövlətlərin syasi rəhbərləri antirusiya sanksiyalarının tədbiqi ilə bağlı etiraz səsləri eşidilməkdədir. Qadağalara baxmayaraq İspaniya, İtaliya, Yunanıstan kimi NATO-ya üzv dövlətlərin gizli yollarla Rusiyadan enerji məhsullarını aldıqları barədə xəbərlər yayılır ki, bu da Ağ Evi çox narahat edir.**

**Müharibənin davam etməsində maraqlı olan Birləşmiş Ştatlar, bundan istifadə edərək əzəli və əbədi düşmən saydığı Rusiyanı çökdürmək istəyir. Lakin hələ ki, buna nail olmaqdan çox uzaqdır. Antirusiya sanksiyaları, Rusiyadan çox tərəfdaş saydığı dövlətlərə ciddi təsir edir. Bu isə Sem dayının heç nəzərdə tutmadığı "mərkəzdən qaçmalara" səbəb ola bilər.**

**Bütün bulara baxmayaraq, Ağ Ev rəhbərləri ən yüksək səviyyələrdə bir tərəfdən güya müharibənin sonlandırılmasının tərəfində olduqlarını bəyan etsələr də, digər tərəfdən də Ukraynanı ən müasir silahlarla təhcuz etməkdə davam edirlər. Pentaqon bunu belə əsaslandırır ki, "Ukrayna istəyirsə, biz verməliyik".**

**Bir sözlə müharibə davam edir, hər ötən gün, gah ukrayna ordusu bir və ya iki yaşayış məntəqəsini azad etdikləri, çoxlu sayda rus əsgərlərinin və hərbi texnikasının məhv edikləri barədə xəbərlər yayır, gah da rusiya hərbi geniraliteti haraları isə aldıqları, və s. barədə, daha çox təbliğata hesablanmış xəbərlər yayırlar...**

## *Ukrayna PUA-larla Kurska zərbələr endirdi*

**Kursk vilayətinə pilotsuz təyyarələr hücum edib, nəticədə bir nəfər yaralanıb.**

Bu barədə Rusiya Teleqram kanalları məlumat yayıb.

Məlumata görə, ilk hücum avqustun 18-də səhər saat 8 radələrində Belovski rayonundakı Kuçerov fermasının yaxınlığında baş verib:

”Daha sonra üç pilotsuz təyyarə üç bomba atıb, nəticədə bir sərhədçi yaralanıb. Bir neçə saatdan sonra pilotsuz təyyarələrin növbəti hücumu olub və 4 avtomobilə ziyan dəyib”.

Nəriman Qasimoğlu



# DUBLYONKA, MOSKVA MİLİSİ, QASIM QASIMZADƏ...

*Əhvalatın dəqiq tarixi yadımda deyil, təxminən ötən əsr 80-ci illərinin əvvəlləri olar.*

*Qasım Qasımzadə Moskvaya ezamiyyətə hazırlaşır, sənədlərini, kağız-küğuzlarını çantasına yığır, bir yandan da anam Tamara Ələkbərqızı ona möhkəm-möhkəm tapşırır ki, Moskvadan gəlinimizə dublyonka almağı unutmasın. Təxmini qiymətini də deyir bilsin, alanda onu aldatmasınlar. Bakıda o zaman dəbdə olan belə dublyonkanı qeyri-qanuni ticarətlə məşğul olan alverçilərdən almaq olurdu ki, bu da çox baha başa gəlirdi. Qasım müəllim söz verir unutmaz, çalışar Moskvanın iri dükanlarının birindən alıb gətirsin.*

*Moskvaya yola düşür. Aeroportdan birbaşa yollanır paytaxt mərkəzində yerləşən məşhur "Moskva" mehmanxanasına. Hər zamankı səfərlərində olduğu kimi, bu dəfə də SSRİ Yazıçılar İttifaqında katibə işləyən Valentina Trofimovnanın telefon zəngilə ona ayrılan otaqda yerləşir. Mehmanxana otağında rahatlanıb istirahət edəndən sonra axşamtərəfi enir restorana ki, bir az yemək yesin, sonra da baxsın nə edir.*

*Restoranda əyləşdiyi masaya ahıl bir kişi yaxınlaşır, şairdən nəzakətlə icazə istəyib stulların birində əyləşir. Ofisiant hər ikisindən sifarişləri qəbul edib gedincə həmin kişi Qasım müəllimi söhbətə tutur. Aralarında tanışlıq başlayır, bir-birinin kimliyini soruşurlar. Şairin yasca böyük olan yeni tanışı özünü belə təqdim edir ki, təqaüdə çıxmış hərbçidir, övladları hökumətdə vəzifələrdədir, özünün də hər yerdə yaxşı əlaqələri var və s. Həmsöhbətinin kimliyini biləndə də ədəbiyyatdan söz salır. Maraqlı ədəbiyyat söhbəti təzəcə qızışır ki, adam sözü gətirib çıxarır Mirzə İbrahimovun yaradıcılığına, Azərbaycan ədibinin əsərlərinə dair təhlillərə. Milliyyətcə rus olan, Qasım müəllimin keçmiş hərbçi saydığı şəxsin milli ədəbiyyatımıza aid bilgisi Azərbaycan şairində heyrət doğurur, müsahibinə isti münasibət yaradır. Xülasə, bir saatlıq-filan tanışlıq çevrilir olur əməlli-başlı dostluq ki, bu da qarşılıqlı sağlıqlarla elə həmin restorandaca möhkəmlənir. Qasım müəllim ürəyiaçıqlıqla ona ezamiyyət planlarından danışır, dublyonka almaq tapşırığı barədə də söz salır.*

*Keçmiş hərbçi isə, dediyinə görə, Moskvaya bəzi işlərinin dalınca gəlibmiş. Şairə "tı ne bespokoysə, u menə xoroşie svəzi v QUM (Möskvanın mərkəzində, Kremldən bir az aralı yerləşən məşhur Dövlət Universal Mağazası - N.Q.), kak-nibudğ sxodim tuda i kupim çto nado" deyir. Kefləri kök ayrılırlar, vədələşirlər Moskvada olduqları müddətcə axşamlar bir yerdə şam etsinlər.*

*Ertəsi gün axşam yenə də həmin restoran, həmin masa... Bu dəfə keçmiş hərbçi bir az da dərin təəssürat buraxır Qasım müəllimdə. Sovet ədəbiyyatının problemləri bir yana, Azərbaycan ədəbiyyatına aid başqa nümunələrdən də peşəkarcasına danışır. Yenə şirin-şirin söhbətləşirlər, görüşmək ümidi ilə ayrılırlar.*

*Ertəsi gün görüşəndə o iki günün təzə dostu Qasım müəllimə köynək bağışlayır. Bu jesti ilə Qasım müəllimin ürəyini almasın da neyləsin? Yeyib-içəndən sonra şair təbii ki, bu dəfə həmsöhbətini qətiyyən qoymur əlini cibinə salsın, şam yeməyinin hesabını ofisianta hər ikisinin yerinə özü verir. Razılaşırlar sabah günorta mehmanxananın dəhlizində görüşüb getsinlər QUM-a və dublyonka məsələsini yerindəcə həll etsinlər.*

*Səhəri gün görüşürlər, yollanırlar QUM-a. Xeyli girişi-çıxışı olan bu iri "supermarket"in içində bir az dolaşandan sonra "dostu" şairə deyir, dublyonkanın pulunu ver, girim administratorun kabinetinə, məsələni həll edib gəlirəm. Qasım müəllim dublyonkanın o zamankı qiyməti dəyərində 250 rublu ona uzadır. "Dostu" qarşılarındakı qapını açıb içəri keçir, dalınca da qapını örtür.*

*Şair gözləyir, gözləyir, gözləyir... Bir də baxır deyəsən çox keçdi, adam qayıtmır ki, qayıtmır. Hövləsələsi daralır, yaxınlaşıb qapını itələyir. Və görür... qapı birbaşa küçəyə açılırmış, yəni çıxış qapısı imiş... "Dost"unun xəyanətini anlayıb bərk pərt olur.*

*Gedib başına gələnləri Yazıçılar İttifaqında Azərbaycan ədəbiyyatı üzrə müşavir işləyən Azər Mustafazadəyə nəql edir.*

*Sonra da Moskva milisinə, yəni polisinə üz tutur. Şairi ehtiramla qəbul edən müstəntiq ondan fırıldaqçının xarici görünüşcə hansı əlamətləri olduğunu soruşur. Şairi diqqətlə dinləyən müstəntiq ona bir foto göstərir, fotonun həmin şəxsə aid olub-olmadığı ilə maraqlanır. Qasım müəllim "dost"unu dərhal tanıyır. Milis əməkdaşı təəccüblə: "Neujeli gto on, trudno veritsə, çto moşennik takoqo vsesoöznoqo masştaba moq idti na takuö meloçğ. Vı, uvajaemıy pisatelğ, predstavləete, kto Vas obxitril?" - deyir. Ardınca da şairə onun irimiqyaslı fırıldaqlarından bir epizod danışır.*

*Çoxdan bəri axtarışda olan həmin şəxsin törətdiyi cinayətlərdən biri dövlət səviyyəsində həyata keçirdiyi bir əməliyyatla bağlı imiş.*

*Deməli, bu həqiqətən istedadlı adam haradansa hökumət telefonlarından biri ilə SSRİ-nin iri vilayətlərindən birinin partiya komitəsilə əlaqə yaradaraq özünü Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin məsul əməkdaşı qismində təqdim edəndən sonra "dövlət səviyyəsində" vilayət rəhbərinə tapşırıq verir ki, filan tarixdə vilayət komitəsinin plenumunu təşkil etsin. Həmin tarixdən bir neçə gün əvvəl də yollanır vilayətin paytaxtına, orada bəzi təsərrüfat rəhbərlərilə görüşlər keçirib onlara yüksək vəzifələr vəd edir. Plenumda vilayətin partiya-təsərrüfat işlərində buraxdığı nöqsanlardan, partiyanın zəhmətkeşlərin rifahı naminə tapşırıqlarından, yerli rəhbərliyin yarıtmaz fəaliyyətindən alovlu bir nitq söyləyir. Onun natiqliq qabiliyyəti öz işini görür, çıxışı sürəkli alqışlarla qarşılanır.*

*Plenumdan sonra da büronun iclasını keçirir. İclasda kimlərisə vəsifəsindən çıxardaraq sövdələşdikləri şəxsləri onların yerlərinə təyin edir. Və, əlbəttə, qısa müddətdə yığdığı külli miqdarda rüşvətlə dolu çemodanını götürüb yola düşür. Onu hörmət-izzətlə yola salırlar.*

*Bir neçə gündən sonra vilayət partiya komitəsinin məsul əməkdaşı MK-nın təşkilat şöbəsi ilə əlaqə yaradıb bildirir ki, plenumun nəticələrinə dair yazılı hesabat hazırdır. Şöbədən maraqlanırlar ki, nə plenum, nə hesabat?! Hal-qəziyyə bütün ayrıntıları ilə aydın olanda dəhşətə gəlirlər ki, bir nəfər fırıldaqçı bu boyda sovet hökumətini necə aldada bilibmiş...*

*Moskvalı müstəntiq Qasım müəllimə anladır ki, bu fırıldaqçının tez bir zamanda ələ keçməyi çətin olar. Hər halda bir yenilik olarsa şairə məlumat verərlər.*

*Bir neçə gün də Moskvada qalıb bu macəradan sonra işlərini yekunlaşdıraraq Bakıya qayıtmalı imiş. Heç iki gün keçmir paytaxt milisinin bir əməkdaşı mehmanxanaya gəlib Qasım müəllimə fırıldaqçının tutulduğunu deyir və şairi şəhər milis şöbəsinə dəvət edir.*

*Köhnə "dostlar"ı üzləşdirirlər. Qasım müəllim həbs edilmiş "dost"unu gördükdə deyir: "Tı je takoy talantlivıy çelovek, tak zaçem takimi vehami zanimaeşğsə? Ə vedğ doverilsə tebe. Delo, koneçno, ne v denğqax. Tı prosto bessovestno ukral moe doverie k lödəm. Vot çto mne obidno..." Müstəntiq üzünü məhbusa tutub soruşanda ki, üzləşdiyi adamı tanıyırmı, deyir tanımıram. "Vı sçitaete, çto on vret vam v liüo?" deyə bir də soruşur. Məhbus "Qospodi, koneçno, on qovorit pravdu, razve mojet takoy solidnıy çelovek vratğ? No on menə s kem-to putaet prosto".*

*Ertəsi gün təkrarən milisə çağırılan şair ürəyiyumşaqlıqla müstəntiqdən xahiş edir işi elə qursun ki, "dost"unun cəzasında ağırlaşdırıcı hallar olmasın. Müstəntiq şairin xahişini təbəssümlə qarşılayıb ona məhbusla sonradan ikilikdə olan söhbətini çatdırır.*

*Məhbus peşmanlıqla deyibmiş ki, gərək o cür yaxşı insanla elə rəftar etməyəydi, bu qədər işlərinin içində heç vaxt başına gəlməyib ki, belə tezlikdə və xırda işə görə həbs edilsin, görünür, o cür gözəl insanı aldatdığı üçün Allah da cəzasını tez verməli imiş. Və xahiş edibmiş onu şairlə bir daha üzləşdirməsinlər, sadəcə üzrxahlığını ona çatdırsınlar...*

*Qasım müəllim qayıdır Bakıya. Onunla qucaqlaşıb görüşürük. Hal-əhval tuturuq. Tamara xanım da öz tapşırığının nəticəsini soruşur. Şair xanımına gülə-gülə deyir, sən hələ mənə yaxşı bir çay dəmlə, sizə bir əhvalat danışacam...*

# Elçin Quliyev: "Hərbçilərimiz sərhəddə dövlətin maraqlarını qorumaqdan qürur duyur"

**"Qəhrəman Azərbaycan sərhədçisi - uğrunda qan tökdüyü və şəhidlər verdiyi torpaqlarımızın azad olunmasında iştirakından və Azərbaycan-Ermənistan dövlət sərhədində üçrəngli dövlət bayrağımız altında dövlətin maraqlarını qorumaqdan böyük şərəf və qürur duyur!"**



Adalet.az xəbər verir ki, bunu Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, general-polkovnik Elçin Quliyev bildirib.

O vurğulayıb ki, bu gün beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun yüksəlməsi, ölkə iqtisadiyyatının qüdrətlənməsi ilə əlaqədar sərhəd təhlükəsizliyi məsələlərinin ön plana keçdiyi şəraitdə sərhəddə dövləti maraqları müdafiə edən sərhədçilərimiz onlara göstərilən ali diqqətə görə qürur hissi keçirirlər:

"Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev DSX-nin hərbi hissə və bölmələrinə 41 dəfə səfər edib. Bu rəqəm təkcə region dövlətləri üçün deyil, bütün dünya miqyasında sərhəd mühafizə orqanlarına dövlət başçısı tərəfindən göstərilən diqqət və qayğının unikal göstəricisi, Dövlət Sərhəd Xidmətinin fəaliyyətinə, həyata keçirilən islahatlara verilən ən yüksək qiymətdir".

DSX rəisi vurğulayıb ki, şəxsi heyət üçün zəruri xidməti və yaşayış şəraitinin yaradılması üzrə qaldırdığımız hər bir məsələyə Azərbaycan Prezidenti İlham Əliyev hər zaman xüsusi diqqətlə yanaşıb:

"Məhz bunun nəticəsidir ki, 2001-ci ildən etibarən Dövlət Sərhəd Xidmətinin bütün sərhəd dəstələrinin qarnizonları, "Sərhədçi" İdman Mərkəzi, Abşeron rayonunun Goradil və Lənkəran rayonunun Vel qəsəbələrində istirahət mərkəzləri, Türkan qəsəbəsində DSX Sahil Mühafizəsinin yeni bazası və yaşayış binaları kompleksi, DSX Akademiyası, Sərhəd Nəzarəti inşa edilib, Dövlət Sərhəd Xidmətinin Aparatının binası əsaslı təmir edilib. Sərhədçilərin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı əsasında Bakı şəhərində 412 mənzilli yaşayış binaları inşa olunub, 624 mənzildən ibarət yaşayış şəhərciyinin inşası və güzəştli ipoteka şərtləri ilə DSX əməkdaşlarının mülkiyyətinə verilməsi layihəsi uğurla icra olunub.

Respublika miqyasında 154 binadan ibarət 1441 xidməti mənzil tikilərək və ya əsaslı təmir edilərək sərhədçilərin istifadəsinə verilib". "Azərbaycan sərhəd mühafizəsinin bütün şəxsi heyəti dövlət sərhədinin toxunulmazlığının təmin edilməsi kimi müqəddəs vəzifə ilə fəxr edir və gələcəyinə inamla baxır. Bu inam Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müdrik siyasətinə və onun rəhbərliyi altında əldə edilən taleyüklü qələbələrə əsaslanır.

Bu gün səngərdə və sərhəddə böyük əzmlə xidmət aparan qəhrəman Azərbaycan sərhədçisi - uğrunda qan tökdüyü və şəhidlər verdiyi torpaqlarımızın azad olunmasında iştirakından və Azərbaycan-Ermənistan dövlət sərhədində üçrəngli dövlət bayrağımız altında dövlətin maraqlarını qorumaqdan böyük şərəf və qürur duyur! Vətəninə, dövlətinə, Prezidentinə xidmət etmək qürurunun daşıyıcısı olan hər bir Azərbaycan sərhədçisi bundan sonra da şərəflə xidmət edəcək, doğma Azərbaycanımızın təhlükəsizliyi və inkişafı naminə səy və bacarığını əsirgəməyəcək, müqəddəs sərhədlərimizin keşiyində daim ayıq-sayıq duracaq!", - o bildirib.

**Nicat Novruzoğlu**

# Əlindən gələni beş qaba çək!

## 50 saylı marşrutda hərəkət edən 90 HS 679 nömrəli avtobusun sürücüsü yol hərəkəti qaydasını kobud surətdə pozur

**Son günlər metronun "Neftçilər" stansiyasından Yeni Günəşli yaşayış sahəsinə hərəkət edən 50 nömrəli marşrutda özbaşınalıq baş alıb gedir. Belə ki, həmin marşrutda yeni işə qəbul olunmuş bir neçə gənc sürücü yol hərəkəti qaydasını tez-tez kobud surətdə pozur, digər sürücülərlə ötüşür, mobil telefonla danışır və hətta sükan arxasında siqaret də çəkirlər. Biz bu barədə bir neçə dəfə öz tənqidi fikirlərimizi səsləndirmişik.**



Avqustun 18-də saat 12 radələrində 50 nömrəli marşrutda hərəkət edən 90 HS 679 nömrəli avtobusun sürücüsü metronun "Neftçilər" stansiyasına çatmağa az qalmış digər bir avtobusla ötüşməyə başladı. O, bunu keçirdi, bu da onu. Axırda o biri avtobus 50 nömrəli avtobusu arxada qoyub dayanacağa çatdı. 50 nömrəli avtobusdakı sərnişinlər 90 HS 679 nömrəli avtobusun sürücüsünə "Niyə başqa avtobusla ötüşüb bizim həyatımızı təhlükə qarşısına qoyursunuz?" sualına sürücü etiraz elədi və bildirdi ki, mənə belə xoşdur. Gedin, işinizlə məşğul olun.

Hətta sərnişinlərdən biri sürücüyə dedi ki, sizdən şikayət edəcəm. Sürücü yenə söz altında qalmadı və bildirdi: "Gedin, əlinizdən gələni 5 qaba çəkin! Heç kim mənə bir şey edə bilməz".

**Həmin səhnəni biz də seyr edirdik və sürücünün yol hərəkəti qaydasını kobud surətdə pozması ilə yanaşı, sərnişinlərlə də kobud davranışın da şahidi olduq. Bu sürücü özündən çox müştəbeh və arxayındır. Gec-tez qəza törədəcəyi qaçılmazdır. Ona görə də Bakı Şəhəri Nəqliyyat Agentliyi və eləcə də marşrutun sahibi bu intizamsız sürücü haqqında ciddi tədbir görməlidi. Əks təqdirdə qəzanın baş verməsi hər an ola bilər. Bizdən deməkdir, biz dedik və borcumuzdan çıxdıq. İndi iş qalır əlaqədar qurumların bu sürücü barəsində ciddi tədbir görməyinə...**

**Faiq QİSMƏTOĞLU**



Səxavət Məmməd

# İranın qarın ağrısı...

*Qarabağ ətrafında cərəyan edən proseslər onu deməyə əsas verir ki, mövzu "Qarabağ problemi"ndən çoxdan çıxıb. Hazırda əsas məsələ Zəngəzurla bağlıdır.*

*Rusiyanın Ukraynaya təcavüzü, ABŞ və Avropa ölkələrinin Rusiyaya tətbiq etdiyi sanksiyalar şimal qonşumuzun iqtisadiyyatına ciddi təsir göstərir. Rusiya cənub və şərqə baxmağa məcburdur. Yəni Ukraynaya təcavüz faktı olmasaydı və Qərbin sanksiya məngənəsində sıxılmasaydı, çətin ki yönünü cənuba və şərqə tutardı. Bu həm də o anlama gələcəkdi ki, Rusiya Qarabağda istədiyi kimi davranacaqdı. İstədiyi vaxt gərginliyi artırıb, istədiyi vaxt azaldacaqdı. Beləcə təkcə münaqişəni yox, həm də bölgəni idarə edəcəkdi.*

*Son baş verənləri izlədikdə Rusiyanın tələsdiyini görürük. Rusiya üçün Zəngəzur - Zəngəzur dəhlizi" yox, məhz Zəngəzur - olmazsa-olmazlardandır. Baş verənlər belə təəssürat yaradır ki, Rusiya Zəngəzuru Ermənistanın idarəetməsindən almaq istəyindədir. Bu, müqavilə ilə mi olacaq, yoxsa hansısa başqa üsulla, bunu indidən demək çətindir, ancaq Rusiyanın israr etdiyi bəllidir.*

*Azərbaycan isə bu məsələdən istədiyi kimi yararlanmaqdadır. Qarabağda yüksəkliklərə nəzarəti ələ keçirir, Laçın və kəndlərini boşaltmaq üçün təzyiqini artırır. Bu, ciddi nəticələr də verir. Müharibədən sonra Rusiya tərəfi Qarabağdakı separatçı rejimin himayədarı, su gətirəni, ev tikəni kimi davransa da, indi Xankəndidə oturduqları masaya Azərbaycan bayrağı belə qoyurlar. Maraqlar necə siyasət yeridəcəyini müəyyənləşdirir. Rusiya hazırda Azərbaycan tərəfinin bütün "şıltaqlıq"larına göz yummaq məcburiyyətindədir. Diqqətinizə çatdırmaq istəyirəm ki, müharibədən bir qədər sonra Rusiya Hadrut və Şuşanın erməni tərəfinə verilməsi üçün təzyiqlər edirdi, indi isə tam əksini görürük.*

*Ermənistanın yanında və ona açıq dəstək verən tək ölkənin isə İran olduğunu görürük. İran Prezidenti artıq neçənci dəfədir bəyan edir ki, bölgədə sərhədlərin dəyişməsi onların qırmızı xəttidir. Bizim cəmiyyət bunu bəzən lağa qoyur, bəzən qeyri-ciddi yanaşır. Məsələ ondadır ki, İran hansı proseslərin getdiyini bilir və bundan narahatdır. İranın narahatlığı təkcə Cənubi Azərbaycan deyil. Çünki Zəngəzur əl dəyişdirərsə, dəmiryol və magistral yol xətti açılacaq, yükdaşıma məhz bu yola keçəcək. Beləcə İran tərəfi ciddi maliyyə itkisi ilə qarşılaşacaq. Bunun üzərinə narkotik trafikini də gəlsək, məsələnin mahiyyəti üzə çıxmış olur. İranla Ermənistan arasındakı son telefon trafikini həm də "İran öz dərdindədir" kimi də oxuya bilərik və bunda qətiyyən yanılmarıq. Rusiya cənub və şərqə açılmaq üçün ən qısa yolun məhz Zəngəzur olduğunu bilir. Tarixi səhvini düzəltmək üçün həmin ərazini Azərbaycana hədiyyə etmək niyyətində də olmayacaq. Çünki yolun üzərində olmaq Rusiyaya hava-su kimi lazımdır. Hesab edirəm ki, bundan sonra Rusiyanın Ermənistana təzyiqləri günbəgün artacaq. Bunu bəzən siyasi yolla edəcək, bəzən Azərbaycanın, ən sonda isə Ermənistandakı hərbi bazaları vasitəsilə. Sonuncunun olması az gözləniləndir.*

*Azərbaycan hazırkı vəziyyətdən daha çox yararlanmaq üçün əlinə düşən bütün fürsətlərdən sonuna qədər yararlanmalıdır. Bir də belə tarixi fürsət çətin ələ düşsün...*

# İntim videolar yayan FHN polkovniki həbs edildi

Fövqəladə Hallar Nazirliyinin (FHN) əməkdaşlarının intim videolarını yaymaqda təqsirləndirilən FHN-in Dövlət Yanğından Mühafizə Xidməti rəisinin köməkçisi, daxili xidmət polkovniki Zaur Mirzəyevin barəsində həbs qətimkan tədbiri seçilib.

Bu barədə Adalet.az-a Baş Prokurorluğun Mətbuat Xidmətindən bildirilib.

"Baş Prokurorluğun İstintaq idarəsində ibtidai istintaqı aparılan cinayət işi üzrə Zaur Mirzəyev Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunmaqla barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib", - deyə, qeyd edilib

Qeyd olunub ki, Binəqədi Rayon Məhkəməsi istintaq orqanının təqdimatını təmin edib. Məhkəmə Zaur Mirzəyevin barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı qərar çıxarıb.

Xatırladaq ki, Baş Prokurorluğun yaydığı məlumata əsasən, FHN-in Dövlət Yanğından Mühafizə Xidməti rəisinin köməkçisi, daxili xidmət polkovniki Zaur Mirzəyev xidməti kompüterinə xüsusi proqram vasitəsilə video və foto çəkiliş həyata keçirmək üçün gizli kamera quraşdırıb, xidməti və sair asılılıqlarından yararlanmaqla cinsi ehtirasını təmin etmək kimi çirkin şəxsi niyyətlə qadınlarla 2013-cü ildən başlamaqla 2019-cu ilin sonlarınadək iş otağında cinsi əlaqə və digər formalarda intim münasibətdə olarkən video və foto çəkilişlər aparıb, hazırlanmış qanunsuz pornoqrafik materialların 2022-ci ilin avqust ayında internet şəbəkələrində yayılmasına səbəb olub. Araşdırmalarla Zaur Mirzəyevin səlahiyyət hüdudlarından açıq-aşkar surətdə kənara çıxıb cinayət xarakterli əməlləri ilə həmin şəxslərin hüquq və qanuni mənafelərinə, habelə FHN-in işgüzar nüfuzuna ciddi xələl gətirərək ağır nəticələrə səbəb olmasına əsaslı şübhələr müəyyən edilib. Faktla bağlı Cinayət Məcəlləsinin 156.2.1 (şəxsi həyatın toxunulmazlığını pozma), 242 (pornoqrafik materialları və ya əşyaları qanunsuz yayma) və 309.2-ci (vəzifə səlahiyyətlərini aşma) maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə edilib. İş üzrə Zaur Mirzəyev avqustun 17-də şübhəli şəxs qismində saxlanılıb.

Hazırda intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Bakıda qanunsuz işləyən unlu-qənnadı məmulatları müəssisəsi aşkarlanıb

**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) qida təhlükəsizliyinin təmin edilməsi, istehlakçı hüquqlarının müdafiəsi istiqamətində tədbirləri davam etdirir.**

Bu barədə Qida Təhlükəsizliyi Agentliyindən (AQTA) məlumat verilib. Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə küçəsi 9 ünvanında yerləşən, fiziki şəxs Kərimova Təranə Həsən qızına məxsus unlu-qənnadı məmulatlarının istehsalı müəssisəsində Agentlik əməkdaşları tərəfindən aparılmış plandankənar yoxlama zamanı sanitar-gigiyena qaydalarına və normativ hüquqi sənədlərin tələblərinə əməl edilmədiyi, eyni zamanda müəssisənin qida təhlükəsizliyi qeydiyyatından keçmədən fəaliyyət göstərdiyi aşkarlanıb.

Belə ki, müəssisədə temperatur və rütubət rejminə riayət olunmadığı, mal qonşuluğu prinsipinin pozulduğu, xammal və hazır məhsul anbarları olmadığından un kisələrinin istehsal sahəsində saxlanıldığı, istehsal prosesində texnoloji ardıcıllığa əməl olunmadığı, istifadə olunan işçi masaların və rəflərin gigiyenik materialdan hazırlanmadığı, sobaların və məhsulların yığıldığı dəmir qabların korroziyaya uğrayaraq pasla örtüldüyü, sanitar qovşağın birbaşa istehsal sahəsinə açıldığı, havalandırma sisteminin quraşdırılmadığı, həmçinin işçi heyətin xüsusi geyimlə təmin edilmədiyi və dövri tibbi müayinədən keçmədiyi, istifadə olunan xammalların minimum keyfiyyət və təhlükəsizliyini təsdiq edən sənədlərin mövcud olmadığı, müntəzəm olaraq təmizlik işlərinin aparılmadığı və səlahiyyətli qurumla müqavilənin bağlanılmadığı müəyyən edilib. Aşkar olunmuş nöqsanlarla bağlı müəssisədə məhdudlaşdırıcı tədbirlərin tətbiqi barədə qərar qəbul edilib və müəssisə rəhbəri inzibati məsuliyyətə cəlb olunub.

Uğur Dündar

# İdeal həyat



***Dahi fizik Albert Eynşteyn 1922-ci ildə akademik tədqiqatlar üçün Yaponiyaya gedir.***

***Orada 1921-ci ildə Fizika üzrə Nobel Mükafatını qazandığını öyrənir.***

***Bu xəbəri aldığı gün o, qaldığı "İmperial" otelində ona xidmət edən işçiyə pul vermək istəsə də, Yaponiyada bəxşiş mədəniyyəti olmadığına görə bəxşişi bəzən alçaltmaq, təhqir etmək kimi başa düşürdülər.***

***"Mən sizinlə Nobel sevincimi bölüşmək istəyirəm, amma bəxşişi qəbul etmirsiniz, ona görə də icazə verin, sizinlə bir xatirəm olsun"- deyiən Eynşteyn otel otağında masanın arxasına keçir və bir qeyd yazır.***

***Qeydi yazandan sonra imzalayır və "xahiş edirəm bunu saxlayın" deyir.***

***Yapon işçi bu qeydi ömrünün sonuna qədər saxlayır.***

***Ölümündən sonra qardaşı oğlu olduğu iddia edilən şəxs 2017-ci ildə Qüdsdəki Winners Auction House-da bu qeydi hərraca çıxarır.***

***Eynşteynin imzası olan qeydi 1 milyon 560 min dollara satılır.***

***Eynşteyn qeyd vərəqində yazmışdı:***

***"Təvazökar bir həyat, uğur axtarışından qaynaqlanan narahat bir həyatdan daha çox xoşbəxtlik gətirir!"***

***Bu cümləni həqiqətən dərk etməyin dəyəri bu puldan çoxdur!***

***Xoşbəxtliyin dalınca qaçaraq xoşbəxt ola bilməzsən. Xoşbəxtlik axtarılmır, anında yaşanır. Bəzən xoşbəxtliyin xatirəsi belə xoşbəxtlik bəxş etməz!..***

***Bəlkə yaxşı döşək ala bilərsən, amma başını yastığa qoyan kimi dinc və sağlam yuxu ala bilməzsən!..***

***Bəlkə çox bahalı villaya, hətta malikanəyə sahib ola bilərsiniz, amma pulla xoşbəxt bir yuva qura bilməzsiniz!.***

***Mark Tvenin dediyi kimi:***

***"Yaxşı dostlar, yaxşı kitablar, başınız yastığa dəyəndə sizi yuxuya aparan daxili rahatlıq və heç əksik olmayan bir vicdan... Budur ideal heyat!"***

***Dilimizə uyğunlaşdıran: Eminquey***

Elşad Məmmədli

# Qurban olsun uşaqlara...



*Bu gün günorta Sumqayıtda avtobusda sürücü tərəfindən ailə üzvlərimə qarşı anormal davranış haqda məlumat vermişdim.*

*Hadisə barədə ilk olaraq dərhal Sumqayıt Şəhər İcra Hakimiyyətinin sözçüsü Eyvaz Qocayevlə danışmışdım. Ardınca yazdığım posta Daxili İşlər Nazirliyinin sözçüsü, dostum, hörmətli Elşad Hacıyevi tağ etmişdim.*

*Hadisə barədə bilgi verdikdən dərhal sonra Eyvaz Qocayev bildirdi ki, müvafiq şəxslərlə danışıb və sürücü həmən xətdən uzaqlaşdırılıb.*

*Bir qədər sonra DİN-in Sumqayıt Şəhər Dövlət Yol Polisi Şöbəsindən mənimlə əlaqə saxlanıldı. Elşad Hacıyevin onları hadisə barədə məlumatlandırdığını və müvafiq araşdırmalara başlanıldığını dedilər.*

*Həmçinin, mənim özümü Sumqayıt şəhər Dövlət Yol Polisi Şöbəsinə dəvət etdilər. YPX bölməsinin komandiri Fəqan İsmayılov qəbul etdi, həmin sürücünü və marşrut xəttin rəsmisini də bölməyə dəvət etdi. (Buradaca deyim, Fəqan İsmayılovun xüsusi etiketli, peşəkar davranışına, savadına heyran qaldım.) Sürücü bölmədə etdiyi hərəkətə görə üzr istədi, narkotik istifadəçəsi olmadığını dedi (aparılan narkotestlə də təsdiqləndi), günortakı anormal hərəkətlərinin, görünüşünün, təhqiramiz, vecsiz davranışının, avtobusu "dəli kimi" sürməsinin əsəb gərginliyi, yorğunluğu, stressli durumda olması səbəbindən meydana gəldiyini dedi. Bölmə komandiri də yetərincə tənbeh etdi, həm hüquqi, həm mənəvi, həm də protokolla. Sürücü davranışlarına bundan sonra kontrol edəcəyinə, əsəbi, gərgin, idarəetməz durumda və təhlükəli avtobus sürməyəcəyinə söz verdi. "4 uşağım var, bir iş idi oldu, daha sərnişinlərlə belə davranışım olmaz, stressli idim, bağışlayın" deməsindən sonra xeyli yumşaldım, hansısa ağır cəza verilməməsini xahiş etdim. Qurban olsun uşaqlara. Zatən bu gün yaşadıqları ona ömürlük dərs olacaq.*

*Operativ reaksiyaya görə DİN-ə, hörmətli Elşad Hacıyevə, Fəqan İsmayılova və Eyvaz Qocayevə təşəkkür edirəm. Əgər bir neçə saat vaxtımızı ayırıb bir sürücünü islah edə bildiksə (yekun davranışı belə düşünməyə əsas verdi), demək, cəmiyyətə hansısa faydamız dəydi.*

# Zaporojye AES-də partlayış baş verərsə, yarım milyon insan ölə bilər

**Beynəlxlaq ekspertlər Ukrayna ərazisini işğal etmiş Rusiya ordusunun Zaporojye AES-də fəlakət törədəcəyi təqdirdə radioaktiv zəhərli buludların necə hərəkət edəcəyini modelləşdiriblər.**



Adalet.az musavat.com-a istinadən xəbər verir ki, bununla bağlı proqnoz Ukrayna Hidrometeorologiya İnstitutunun və Milli Elmlər Akademiyasının alimləri tərəfindən həyata keçirilib.

Onlar radiasiyanın potensial hərəkətini əks etdirən qısa video yayımlayıblar.

Əgər avqustun 15-dən 18-dək olan hava şəraiti dəyişməzsə, o zaman radioaktiv buludlar öncə şimala hərəkət edərək Kiyev və ona bitişik rayonlara təsir edəcək.

Sonra əsas bulud kütləsi qərbə doğru hərəkət etməyə başlayacaq və böyük bir ərazini örtəcək.

Radiasiya Ukraynanın qərb bölgələrini "süpürdükdən sonra" Avropa ölkələrinə keçəcək. Polşa, Slovakiya, Macarıstan və Rumıniya təhlükə altında olacaq. Bulud Belarus ərazisinin təxminən yarısını da əhatə edəcək.

Xatırladaq ki, Rusiya qoşunları martın 4-dən Zaporojye AES-ə nəzarət edir. Ruslar AES-in peyk şəhəri olan Enerqodarı da işğal etdilər.

Ruslar AES-in ərazisini dəfələrlə atəşə tutub, hətta bir sıra obyektlərə ziyan dəyib. Ukrayna hakimiyyəti Beynəlxalq Atom Enerjisi Agentliyindən münaqişənin həllində kömək istəyib.

**Obyektdə fəlakət baş verəcəyi təqdirdə, Zaporojye Vilayət Hərbi Administrasiyasının rəhbəri Aleksandr Staruxun sözlərinə görə, iki rayondan 400 min sakin təxliyə edilməli olacaq.**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# İzin qalsa...

## Heç vaxt unudulmayacaqsan

**...Dünyada o adamlar xoşbəxtdir ki, yaşadığı ömrü mənalı və yadda qalan yaşayırlar. Yəni onlar başqalarından fərqli olaraq özləri üçün deyil, bütün cəmiyyət, xalq və insanlar üçün ömür sürürlər. Və bir çox halda düşünürlər ki, mənasız ömür yaşamaqdansa, yaddaqalan, iz qoyan aylar, illər yola salsınlar. Təbii ki, belə insanlar adi insanlar deyillər, hamı tərəfindən sevilir və hörmət olunur. Ən azından ona görə ki, onlar insanların dərdini, qəmini və sevincini özününkü bilir. Və bir də bu cür adamlar öz sadəliyi, səmimiliyi və dürüstlüyü ilə hamının yaddaşında əbədi iz qoyurlar. Uzun illər tanıdığım, hal-əhval tutduğum və bir çox halda yoldaşlıq elədiyim istedadlı jurnalist, gözəl ziyalı, ”Azərbaycan” qəzetinin əməkdaşı Hüseyn Rafiq oğlu Kərimov o qədər tərbiyəli, o qədər mədəni, o qədər ziyalı insan idi ki, bu gün də yaddan çıxmır.**

**”Azərbaycan” nəşriyyatının 1-ci mərtəbəsinə daxil olanda lövhədə bir şəkil gördüm və donub yerimdə qaldım. Bu, bir neçə gün əvvəl görüşüb, öpüşdüyüm və mehribancasına söhbət elədiyim Hüseyn Kərimovun şəkli idi. Bir anlıq çaşdım və hətta özümü itirdim. Qəhər məni boğdu, həyatım bir daha fani olduğunu gördüm. Ən azından ona görə ki, bir neçə gün əvvəl onunla görüşmüşdüm. Daha doğrusu, mənim ”Azərbaycan” qəzetində Rəhman Salmanlı kimi, Daşdəmir Əjdəroğlu kimi, Flora Sadıqova kimi tələbə dostlarım və yoldaşlarım var. Elə tez-tez də 4-cü mərtəbəyə Rəhman Salmanlının yanına düşüb hal-əhval tuturuq, dərdləşirik və tələbəlik illəri xatırlayırıq. Çox vaxt da o otaqda Rəhmanla yanaşı, üzbəüz əyləşən Hüseyn Kərimovu görərdim. Çox danıqmağı sevməz və diqqətlə mənim söhbətimə qulaq asardı.**



**O qədər tərbiyəli, o qədər mədəni, ziyalı idi ki, adamla danışanda utanırdı. Axırıncı dəfə də Rəhmanın yanına gedəndə yenə Hüseyn müəllim otaqda idi. İçəri girdim, Rəhmanla öpüşüb-görüşdüm və həmin an Hüseyn Kərimov da ayağa qalxıb çox səmimi olaraq mənimlə qucaqlaşdı. Uzun illərin dostu, qardaşı və yoldaşı kimi qucaqlaşdıq. Heç ağlıma gəlməzdi ki, bu, bizim son görüşümüzdü. Yenə otaqda hər üçümüz söhbət elədik. Dərdləşdik. Hüseyn qayıdıb dedi ki, qoy, bir stəkan çay gətirim, için! Dedim, çox sağ ol! Gəldim ki, həm Rəhmanı görüm, həm də səni. Üzünə demək olmasın. Sən çox istiqanlı, səmimi və bal kimi şirin bir insansan...**

**...Söhbətimiz düz yarım saat çəkdi. Hiss etdi ki, kondisionerdən xoşum gəlmir. Ona görə də pultu götürüb düyməni basaraq kondisioneri söndürdü. Mən də dedim ki, vaxtınızı çox almayım. Yaradıcı adamlarsız, işinizi görün! Düz qapının ağzına qədər məni ötürdülər. Sonra Hüseyn müəllim otağa qayıtdı, Rəhman Salmanlı isə redaksiyadan çıxıb dəhlizdə bir siqaret yandırdı. Tay mən də bir daha Rəhmanla xudahafizləşib iş yerimə qayıtdım...**

**Hüseyn Kərimovla mən ”Panorama” qəzetində işləyəndə tanış olmuşdum. Həmin qəzetin də baş redaktoru çox istedadlı jurnalist və gözəl ziyalı Araz Zeynalov idi. Araz müəllim də bu yaxınlarda rəhmətə gedib. Yeri cənnət olsun! Bax, onda ”Panorama” qəzetində Elşən Əliyev, Lətif Novruzov və Hüseyn Kərimov kimi istedadlı jurnalistlər var idi. Altıncı mərtəbənin dəhlizində onlarla qonşu olsaq da, aramızda bir şirinlik və bir səmimiyyət var idi. Bəzən qonşular bir-biri ilə yola getmir. Amma biz nəinki yola gedirdik. Həm də dostluq eləyirdik. Bir müddətdən sonra Lətif Novruzov bizim qəzetə keçdi. Səhv etmirəmsə, Hüseyn müəllim də başqa bir mətbuat orqanında çalışmağa başladı. Mən onu zəhmətkeş, savadlı, sözünün yiyəsi kimi tanımışam. Mən tanımışam ki, Hüseyn Kərimov çox ədalətli, vicdanlı və qərəzsiz bir jurnalistdir. ”Azərbaycan” qəzetində də öz tutduğu yolu davam etdirirdi. Yəni bir jurnalist, bir yazar kimi tapşırılan işi vicdanla, məsuliyyətlə yerinə yetirirdi.**

**...Heç vaxt çöhrəsindən təbəssüm əskik olmazdı. Adam var ki, görüşəndə dərddən, kədərdən söhbət açır, ağrısını, acısını sənin üstünə tökur. Amma Hüseyn müəllim dünyanın başqa bir adamı idi. Yəni görüşdüyü adama ancaq sevinc, təbəssüm və mehribanlıq bəxş edərdi...**

**...Çöhrəsindəki sevinci çalışardı ki, dostuna, yoldaşına və yaxınlıq elədiyi adama ötürsün. Və heç vaxt da özündən razı və özündən müştəbeh olmazdı. Başqa cür də mümkün deyildi. Bu adamın oturuşundan-duruşundan, sözündən-söhbətindən ağayanalıq, mərdlik və kişilik hiss olunurdu. Hiss olunurdu ki, sanballı bir nəslin, sayılıb-seçilən bir ocağın övladıdı.**

**Deyirlər ki, Hüseyn Kərimov övladına toy eləməyə hazırlaşırmış. Amma zalım əcəl ona imkan vermədi. Həyatın çox amansız və sərt üzü də var. Bir də görürsən ki, sən başqa cür düşünürsən, başqa cür fikirləşirsən, ancaq tale sənə başqa cür yanaşır. Yəni sən istədiyinə yox, Allahın dərgahına qovuşursan.**

**Hüseyn özü necə idisə, övladlarını da belə tərbiyə eləmişdi. Çünki insanın kökündən, nəslindən və qanından gələn nə varsa, onlar özündən sonra övladlarına və nəvələrinə qismət olur və mən inanıram ki, Hüseynin balaları da ailə quracaq, sevinəcək. Çünki Allah heç vaxt yetimləri kimsəsiz qoymur. Atasın, anasın alsa da, həmişə o kimsəsizlərə arxa durur və onları qoruyur. Hüseyn Kərimovun da balalarını Allah-təala həmişə hifz edəcək!**

**Sentyabrın 11-də Hüseyn Kərimovun Allahın dərgahına qovuşmasının 40 günü tamam olacaq. Əlbəttə, Hüseynsiz günlər onun doğmaları üçün çox ağırdı. Amma təsəlli olan odur ki, Hüseyn Kərimov Allahın ona bəxş etdiyi ömrü çox şərəflə, ləyaqətlə və qürurla yaşayıb. Və mənim nəzərimdə Hüseyn Kərimov bir jurnalist, bir insan, bir ziyalı kimi həmişə iz qoyub. Yadımda da, çöhrəsində təbəssüm olan, nur olan bir insan kimi qalacaq. Çünki çöhrəsində nur, sevinc olan adamlar həmişə sevilir və yaddan çıxmırlar...**

## 5 milyard insanın sonu ola bilər

**ABŞ-da aparılan bir araşdırma, mümkün nüvə müharibəsi zamanı 5 milyarddan çox insanın ölə biləcəyini ortaya qoydu.**

Rutgers Universitetinin alimləri ABŞ və Rusiya arasında müharibə zamanı baş verə biləcək bütün ssenariləri araşdırıblar. Nature Food elmi jurnalında dərc edilən araşdırmada nüvə müharibəsinin səbəb olduğu tüstü, qalıq və hisin günəş işığının qarşısını ala biləcəyi və milyardlarla insanın ölümünə səbəb ola biləcəyi ifadə edilib. Bildirilib ki, yer üzündə insan əhalisinin yarıdan çoxu məhv ola bilər, kiçik miqyaslı nüvə müharibəsi isə qlobal ərzaq istehsalında geri dönməz dağıntılara səbəb ola bilər.

Zaman-zaman gərginliyin yaşandığı Hindistan-Pakistan xəttində baş verə biləcək müharibənin 5 ildə qida istehsalını 7 faiz azaldacağı qeyd edilib. Digər tərəfdən, ABŞ-Rusiya müharibəsində hasilatın 3-4 il arasında yüzdə 90 azalacağı bildirilib. Tədqiqata rəhbərlik edən və xüsusi modelləşdirmə sistemindən istifadə edən Rutgers Universitetinin Ətraf Mühit Elmləri İnstitutunun professoru Alan Robok, ”Bu məlumatlar bizə bir şeyi deyir, biz hər hansı bir nüvə müharibəsinin qarşısını mütləq almalıyıq” dedi.

**Eminquey**

# Atmosferə normadan artıq zərərli qazlar atılırsa...

### Avqustun 1-dən 31-dək DİN Baş Dövlət Yol Polisi İdarəsi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi birgə “Təmiz hava” aylığı keçirir

**Bu gün dünyanı ən çox narahat edən məsələlərdən biri ekoloji tarazlığın pozulması, atmosferin, çayların, göllərin, dənizlərin və meşələrin çirklənməsidir. Təbii ki, bu dediyimiz amillər çox strateji əhəmiyyətlidir və ondan Yer üzündə yaşayan insanlar istifadə edirlər. Yəni dəniz, okean, çay, hava, meşə çirklənirsə, son nəticədə bu, bumeranq kimi insanların özlərinə qayıdır və ona zərər vurur.**

Atmosferin çirklənməsi isə daha dəhşətlidir. Ona görə dəhşətlidir ki, atmosferə atılan min tonlarla zərərli qazlar göy üzünə yığılır və ordan da yağış kimi yenidən yer üzünə qayıdır. Hələ üstəlik də, milyardlarla insanlar o çirkli havanı udmağa məcbur olurlar. Çirkli havanın udulması isə müxtəlif xəstəliklərin, o cümlədən xərçəngin yayılması deməkdir. Əlbəttə, bütün göstərdiyimiz bu faktlar onu deməyə əsas verir ki, atmosferin çirkləndirilməsi insanlar üçün çox böyük bəladır və onun qarşısı alınmalıdır.

Təbii ki, bu, dünyəvi bir məsələdir. Dünyanın hər yerində atmosferin çirklənməsinin qarşısını almaq üçün milyonlarla vəsait xərclənir və böyük layihələr gerçəkləşdirilir. Aydındır ki, bizim məmləkətimizdə də zaman-zaman atmosferə atılan zərərli qazların qarşısını almaq üçün çox böyük Dövlət Proqramları və layihələr həyata keçirilir. Onlardan biri də hər ilin avqust ayının 1-dən 31-ə qədər DİN-in Baş Dövlət Yol Polisi İdarəsi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birlikdə keçirdiyi ”Təmiz hava” aylığıdır. Onu da qeyd edək ki, bu cür tədbirlərin çox böyük önəmi var, təbiətin və atmosferin qorunmasında əhəmiyyətli rol oynayır. Aydındır ki, hər bir dövlət səviyyəli tədbirin gerçəkləşdirilməsi birmənalı olaraq insanların sağlam həyat yaşamasına və onların həyatını təhlükədən xilas olunmasına yönəldilir.

Artıq avqustun 1-dən bugünkü tarixə qədər DİN-in Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşı respublika ərazisində reydlərə başlayıb və nəqliyyat vasitələrini texniki sazlığını yoxlamaq üçün stasionar postlarda və rayon ərazilərində reydlər keçirir. Öncədən onu qeyd edək ki, əvvəlcədən sürücülərin, eləcə də hüquqi, fiziki və vəzifə şəxslərin maarifləndirilməsi diqqət mərkəzində saxlanılıb. Belə ki, yol polisi əməkdaşları ayrı-ayrı nəqliyyat sahələrində, istehsalat yerlərində və digər məkanlarda olub həmin insanlarla müəyyən maarifləndirici tədbirlər aparıb. Bu işdə Baş Dövlət Yol Polisi İdarəsinin avtotexniki müfəttişlik şöbəsinin əməkdaşlarının xidmətini xüsusi ilə qeyd etmək lazımdır. Çünki şöbənin əməkdaşları nəinki ”Təmiz hava” aylığında, həm də adi günlərdə belə sürücülərlə, hüquqi, fiziki və vəzifəli şəxslərlə söhbətlər aparır, onlara mövcud vəzifələrini izah edir və bir daha xatırladır ki, atmosferin çirklənməsinin qarşısını alması üçün üzərilərinə düşən işləri vaxtında yerinə yetirsinlər.

Bir faktı da qeyd edək ki, ”Təmiz hava” aylığında avtotexniki müfəttişlik şöbəsinin əməkdaşları rayonlara ezam olunur, Bakı şəhərində reydlərin təşkilində yaxından iştirak edirlər. Heç kimə sirr deyil ki, bəzən rayon yerlərində sürücülər texniki cəhətdən daha çox nasaz avtomobillərdən istifadə edirlər. Xüsusən də Sovet və Rusiya istehsalı olan ”Vaz” markalı avtomobillərdən atmosferə daha çox zərərli qazlar atılır. Onunla yanaşı, istismar müddəti çox olan ”Kamaz”, ”Kraz” və ”Şadman” tipli ağır tonlajlı maşınlardan da atmosferə normadan artıq zərərli qazlar tullanır.





Ona görə də reyd zamanı bu cür nəqliyyat vasitələrinin sürücüləri mütəmadi olaraq saxlanır və onlarla səmimi söhbətlər aparılır.

Avtotexniki müfəttişlik şöbəsinin apardığı bu maarifləndirici söhbətlərdən və xəbərdarlıqlardan nəticə çıxaranlar da var, nəticə çıxarmayanlar da. Həmin sürücülərin bir çoxuna birinci dəfə xəbərdarlıq edilir. Amma ikinci, üçüncə dəfə onlar saxlanılarkən nəqliyyat vasitələrinin yoxlanılması zamanı atmosferə normadan dəfələrlə çox zərərli qazlar atıldığına görə həmin sürücülər inzibati məsuliyyətə cəlb olunurlar.

Yol Patrul Xidməti Alayının birinci, üçüncü, altıncı, yedinci, on ikinci və eləcə də ekoloji postunda saxlanılıb yoxlanılarkən neçə-neçə nəqliyyat vasitəsindən atmosferə normadan artıq zərərli qazlar atılması aşkarlanıb. Bu cür faktların üzə çıxması ilk növbədə həmin avtomobillərin sükanı arxasında əyləşən sürücülərin maarifləndirmə və xəbərdarlıq tədbirlərinə bir daha məhəl qoymamaları müəyyənləşib. Çox təəssüf ki, bir çox intizamsız sürücülər bəzi hallarda yol polisinin humanist və insanpərvər münasibətlərindən sui-istifadə edirlər. Bu da nəticədə həmin sürücülərin inzibati məsuliyyətə cəlb olunması və 50 manat civarında cərimə edilməsi ilə yekunlaşır.





Avtotexniki müfəttişlik şöbəsinin rəisi, polis polkovnik-leytenantı Xalid Əzimov bildirir ki, ekoloji tarazlığın pozulması birmənalı olaraq nəinki yol polisini, cəmiyyəti narahat edən ən böyük problemlərdən biridir. Elə məhz buna görə də həmişə dövlət bu məsələni prioritet kimi diqqət mərkəzində saxlayır və hər il biz Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə ”Təmiz hava” aylığı keçiririk. Bu isə öz müsbət nəticəsini zaman-zaman verir. Çünki bu cür tədbirlərin gerçəkləşdirilməsi sözün həqiqi mənasında təbiətimizi və atmosferi çirklənməkdən xilas edir. Ümumiyyətlə, bu gün dünya çox böyük bir ekoloji fəlakət qarşısındadır. Meşələr qırılır, yandırılır, dənizlər, okeanlar, çaylar çirkləndirilir. Atmosferə isə normadan artıq min tonlarla zərərli qazlar atılır. Xüsusən də istismar müddəti bitmiş və köhnə nəqliyyat vasitələrindən atmosferə daha çox zərərli qazlar tullanır. Elə bizim də reydlərimiz vaxtı stasionar postlarda və eləcə də xüsusi yerlərdə həyata keçirilən tədbirlər zamanı bu cür nəqliyyat vasitələri aşkar edilir. Xüsusən də istimar müddəti bitmiş Rusiya istehsalı olan ”Vaz” markalı nəqliyyat vasitələrindən atmosferə daha çox zərərli qazlar atılır. Əlbəttə, hər bir sürücü, hər bir fiziki, hüquqi və vəzifəli şəxs öz üzərinə düşən missiyanı yerinə yetirsə, havamız da bu dərəcədə çirklənməz. Havanın çirklənməsi isə insanların çətin anlar yaşamasına və müxtəlif xəstəliklərə düçar olmasına gətirib çıxarır. Bir daha sürücülərdən, adını çəkdiyimiz digər şəxslərdən xahiş edirik ki, mövcud qanunlara əməl etsinlər, texniki cəhətdən nasaz olan avtomobillərlə mənzil başına getməsinlər. Bir faktı da qeyd edim ki, bu cür köhnə avtomobillər qəzalar zamanı digər nəqliyyat vasitələri ilə toqquşanda deformasiya uğrayır və ölüm hadisələri daha çox baş verir.

Onu da qeyd edək ki, atmosferə atılan normadan artıq zərərli qazlara səbəb olan amillərdən biri də yanacağın keyfiyyətsiz olmasıdır. Bu barədə sürücülər biz jurnalistlərə də dəfələrlə öz fikirlərini bildiriblər. Deyiblər ki, bizim idarə etdiyimiz avtomobil təzədir, ancaq bəzi yanacaqdoldurma məntəqələrində maşınımıza yanacaq vurduranda görürük ki, avtomobilimiz yaxşı işləmir və nəqliyyat vasitəsini yoxlayanda atmosferə normadan artıq zərərli qazların atılması faktı aşkarlanır.

**Deməli, burdan da belə bir məntiqi nəticə çıxır ki, bu işdə tək sürücülər, fiziki, hüquqi və vəzifəli şəxslər deyil, həm də yanacaqdoldurma məntəqələri məsuliyyət daşıyırlar. Bir sözlə, təmiz havamızı çirkləndirməmək üçün hər bir insan öz üzərinə düşən vəzifəni yerinə yetirməlidir. Yoxsa, əks təqdirdə atmosferə normadan artıq zərərli qazların atılması prosesi davam edəcək.**

**Faiq QİSMƏTOĞLU**

# Karantin rejimi yenidən sərtləşdirilə bilərmi?





**Nazirlər Kabinetinin ”Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı əlavə tədbirlər haqqında” qərarına əsasən, koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində tətbiq edilən xüsusi karantin rejiminin müddəti 2022-ci il 1 sentyabr saat 06:00-da bitir. Lakin hazırda gündəlik yoluxanların sayı artma tempi ilə irəliləyir. Yoluxma sayı artarsa karantin rejimi yenidən sərtləşdirilə bilərmi?**

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) infeksion xəstəliklər üzrə işçi qrupunun rəhbəri Vasif Əliyev bu barədə fikirlərini mətbuatla bölüşərkən bildirib ki, son günlər yoluxma hallarında artım müşahidə edilir. Lakin realda olan rəqəmin daha yüksək olduğunu düşünürəm. Çünki virusa yoluxan insanlar xəstəliyi yüngül keçirtdiyi üçün test vermə zərurəti yaranmır.

Onun sözlərinə görə, yoluxma sayının artmasına baxmayaraq, xəstəxanalarda ciddi bir yataq problemi yaşanmır: ”Daha öncə COVID-19 dalğalarında gördüyümüz çətin vəziyyəti indi müşahidə etmirik. Yoluxma sayının artması dolayı yolla ağır xəstələrinin sayının artmasına gətirib çıxara bilər. Lakin karantin rejimini sərtləşdirilməsi daha çox ağır xəstə hallarının artması ilə əlaqədardır. Əgər xəstəxanalarda yer problemi yaranarsa, o zaman təbii ki, karantin rejimini sərtləşdirilməsi nəzərdən keçirilə bilər. Buna Operativ Qərargah tərəfindən mövcud vəziyyət ciddi təhlil edildikdən sonra qərar veriləcəkdir”.

V.Əliyev hazırki vəziyyəti qənaətbəxş hesab etdiyini vurğulayıb: ”İstənilən halda insanlar ehtiyatlı davranmalıdır. Qapalı məkanlarda yaxın təmasda olmamalı, ara məsafəsi saxlamalı, gigiyenik qaydalara əməl etməli və vaksinasiya olunmalıdır. Düşünürəm ki, ümumilikdə hazırki vəziyyət karantin rejiminin sərtləşdirilməsinə ehtiyac yaratmır. Lakin yaxın günlərdə vəziyyət yoluxma sayı və xəstələyin ağırlıq dərəcəsi ilə əlaqədar olaraq gözdən keçirilə bilər və qərarlarda bunu əsasında verilə bilər”.

Milli.Az-a açıqlamasında həkim-infeksionist Nilufər Məmmədova isə bildirib ki, koronavirusa yoluxanların sayı 1000-i keçsə belə, vəziyyətin kritik həddə çatacağı gözlənilmir: ”Pandemiya müxtəlif mutant variantlar ortaya çıxaracaq və bu mutant variantlarla yoluxan insanlarda immunitet yaranaraq tədricən aradan qalxacaq. Yəni rəqəmlərin müəyyən qədər yüksəlməsi müşahidə oluna bilər, amma əvvəlki pik həddləri, ölüm səviyyəsindəki artımı gözləmirik.

İstər-istəməz insanların əksəriyyəti bu xəstəliyi keçirib və vaksin olunub. Həm də hər növbəti mutant variantlar məntiqi olaraq xəstəliyi zəifləməyə doğru aparmalıdır.

Amma ümumuilikdə götürsək, payız-qış aylarında onsuz da koronavirus xəstəliyi hər zaman olur, görülür. Yəni bu il də payız-qış aylarında koronavirusların artması, görünməsi, istər mutasiya variantlarının, istərsə də öncədən gördüyümüz variantların müşahidə edilməsi qaçılmazdır. Yalnız payız-qış aylarında da yoluxma sayında müəyyən qədər yenidən artım görə bilərik. Ancaq hələ ki epidemioloji vəziyyət nəzarət altındadır.

Kartantin qaydalarının tətbiqi, sərtləşdirmə tədbirləri hər bir ölkənin mövcud vəziyyətinə uyğun qiymətləndirilib qərar verilir. Hazırda xəstəxanalarda belə bir gərgin vəziyyət yoxdur ki, sərt karantin rejimi tətbiq olunsun. Sadəcə müyyən qədər maskanın və sosial məsafənin və digər qorunma qaydalarının gündəmə gəlməsi ola bilər. Bu, xüsusən irəlidə payız-qış aylarında olacaq. Hazırda ciddi bir vəziyyət olmadığı üçün hansısa bir sərt karantin rejiminə ehtiyac görülmür.

Yoluxma sayı hətta 1000-i də keçə bilər. Bu o demək deyil ki, hər yoluxan xəstəliyi ağır keçirəcək və ya xəstəliyin sipmtomları müşahidə olunacaq. Yəni hər yoluxma halı xəstələnmə halı demək deyil. Yoluxma sayında artım yay aylarında turistik səfərlərin çoxluğu ilə bağlıdır. İstər bizim ölkəyə, istərsə də bizim vətəndaşların digər xarici ölkələrə gedib-gəlməsi ilə əlaqədar olaraq və maskadan istifadənin tamamilə aradan qalxması səbəbindən yoluxma sayında artım gözlənilir.

Amma bu vəziyyətin kritik həddə çatacağı, ölkə səhiyyəsinin gərgin vəziyyətə salınacağı gözlənilmir.

**Rəqəmlərin 1000-in üzərində olması belə hələ də ölkə səhiyyəsini çətin vəziyyətə salmayacağı üçün qorxulu deyil. Sadəcə təbii ki, yoluxma sayı nə qədər çox olursa, xəstələnmə sayı da bir o qədər artır və ağırlaşma, stasionar xəstə sayı da bir o qədər artır. Amma xəstəxanaların çətin vəziyyətlə üz-üzə qalması üçün yoluxma sayının aylarla yüksək rəqəmlərdə qalması və ağır xəstələrin sayının çox olması lazımdır. Amma çox şükür ki, bu mutant variantda çox ağırlaşmalar görmürük”.**

**Nicat Novruzoğlu**

Etibar Əliyev

# İNFORMATİKA BİABIRÇILIĞI



*İndoneziyada keçirilən 34-cü Beynəlxalq İnformatika Olimpiadasında şagirdlərimizin nəticələri qənatbəxş olmayıb. Ən yüksək nəticə göstərən şagirdimiz Müasir Lisey Təhsil Kompleksinin şagirdi Səid Nəsibov 163 balla bürünc medal qazanıb. Bu dəyərli şagirdimiz etiraf edir ki, özü sərbəst hazırlaşıb. Digər şagirdlərimiz 600 baldan 92, 56, 22 bal toplayıblar.*

*Keçən ilin nəticələri: Əziz Hüseynov 213, Səid Nəsibov 195 balla bürünc medal qazanıblar. Digər 2 şagirdimiz 195, 174 bal toplayıblar.*

*2020-ci ildə bürünc medalçılarımız 303, 272 və 239 bal toplayıblar.*

*Qaydalar həm də sadədir. Medallar Ümumi iştirakçıların 50 faizinə verilir.*

*Bu il keçirilən Olimpiadaya yeni qoşulan ölkələr olduğundan bir bürünc medal qazana bilmişik.*

*Olimpiada Mərkəzinin yaradıldığı Riyaziyyat- İnformatika liseyinin şagirdlərinin nəticələri acınacaqlıdır. Bu layihəni də puç elədilər. fuadqarayev və muxtarməmmədov mifi karton ev-cik kimi dağıldı. Milyonlar hara xərclənib?Digər bir neçə ölkənin nəticələri məni xeyli düşündürdü.*

*Ukrayna şagirdlər 2 qızıl, 1 gümüş, 1 bürünc medal qazanmaqla 8- ci yeri tutublar.*

*Gürcüstan 1 gümüş, 2 bürünc.*

*Qırğızıstan 3 bürünc, 1 həvəsləndirici.*

*Beləliklə, Azərbaycan 88 ölkə arasında 69- cu yerdə;*

*İran 9-cu yerdə;*

*Türkiyə 18 -ci yerdə;*

*Qazaxstan 23 - cü yerdə;*

*Gürcüstan 33- cü yerdə*

*Qırğızıstan 37- ci yerdə.Bədnam qonşularımızın bizdən kəskin şəkildə öndə olması isə yalnız əsəb yaradır.*

*Bu gedişlə İnformasiya Texnologiyları sahəsində mütəxəssis hazırlamqda bədgüman olaraq qalacağıq.*

***P.S.** Bu sahəyə cavabdeh adamlar təcili kənarlaşdırılmalıdırlar. Qalib ölkənin imicinə zərbə vurmayın. İstedadlı uşaqların potensialını artırmağı bacarmırsınızsa, çəkilin bu yoldan!*

Emin Piri

# Tribunasız sevgi



**22 yaşım var idi. ”N” saylı hərbi hissələrdən birində leytenant rütbəsi ilə yeni xidmətə başlamışdım.**

**Hərbi hissələrdə adətən həftədə bir dəfə səhər saatında şəxsi heyəti ölkədə və dünyada baş verənlər barədə ictimai-siyasi məlumatlandırma olur.**

**Hərbi hissə komandiri bizimlə söhbətləşdi və mənə dönərək;**

**-Piriyev, sən yaxşı bacarırsan, hazırlaş hər həftə əsgər-zabit heyəti qarşısında çıxış edərsən.**

**Qış vaxtı idi. Olduğumuz həmin yerdə bəzən -20 -25 dərəcə şaxta olurdu.**

**Çıxışa başladım. Tribunada qızışmışam. Mikrofonsuz uca səslə danışıram. Vətən, Sakarya, millət və.s. O qədər həvəslə danışıram ki, zamanın necə keçdiyi bilmədim. Onda gördüm ki, hərbi hissə komandiri mənə çönərək;**

**-Piriyev, donduq hamımız, daha bitir çıxışı.**

**Bu zaman fərqində oldum və bitirdim.**

**Sonra zabit dostlar çayxanaya çağırdı ki, gəl, oturaq yeyib-içək.**

**Dedim yəqin çıxışlarım xoşlarına gəlib ona görə dəvət ediblər.**

**Dedilər ki, bizə erməni lazım deyil, sən bir neçə dəfə də tribunada çıxış etsən burda sağlam adam qalmayacaq...**

**Sözümün canı odur ki, hərbi hissələrdə hansısa layihə, görüşçün gedəndə tribunada çıxış edərək günəş altında, şaxtada əsgər, zabitləri saatlarla saxlamayın. Vallah, o alqışlar çox zaman-siz Allah, gedin- deməkdir.**

**Sevgini tribunasız da göstərmək olar!**

## Vahimə





**Tez-tez Operativ Qərargah ölkədə koronovirusa yoluxanların statistikasını müxtəlif televiziya kanallarında və saytlarda yayır. Vallah, bunun xeyrindən çox ziyanı var. Çünki insanlar hər dəfə bu rəqəmləri eşidəndə qorxuya düşür və həyəcanlanır.**

Çünki onsuz da ”COVİD-19” virusu peyda olduğu gündən insanlar narahat anlar yaşayırlar. İndi də tez-tez həmin statistik rəqəmlərin hər gün televiziyalarda səsləndirilməsi insanların psixoloji durumunu bir qədər də ağırlaşdırır.

Yaxşı olardı ki, o rəqəmləri əlaqədar qurumlar bilsələr də, amma televiziya kanallarında informasiya kimi yayıb gündəmə gətirməsinlər.

Onsuz da insanların çoxunun əsəbləri pozulub, yeni statistik rəqəmləri görəndə və eşidəndə pozulmuş əsəblər bir az da tarıma çəkilir.

## Saxta sular



**Ölkədə bu gün saxta sular istehsalı baş alıb gedir. Bir balaca imkanı olan adam sex açır, müxtəlif sular istehsal edir. Xüsusən də ”Sirab”, ”Borjomi”, ”Badamlı” adı altında istehsal olan bir çox sular heç də əsl mineral su deyil.**

Ona görə də Qida Təhlükəsizliyi Agentliyi saxta yolla istehsal olunan suların qarşısını almalı, standartlara uyğun olmayan və keyfiyyətsiz sular istehsal edən sexlərin fəaliyyətinə nəzarəti gücləndirməlidir.

**Emil FAİQOĞLU**



Aydın Canıyev

# Musiqimizin trümolası

O həm də muğamın narkomanı, səsin qumarbazı, fitrətən sufidi.

Onun ən böyük üstünlüyü dünyanın ən qədim ikinci peşə sahibləriylə danışmamasıdı!

Onun ən böyük xoşbəxtliyi onu danışdıra biləcək həddə qədər adamların az olmasıdı.

Onu xilas edən ən böyük siyasət siyasətə qoşulmamasıdı!

Onu sevdirən ən gözəl xüsusiyyət səsinin ənginliyi, ənginlikdə səsimiz olmasıdı.

Onu dəyərləndirən ən şirin uğuru fatehliyindədi. Lakin yerlə göyün arasında qalan bu fateh nə yerin, nə də göyün sahibidi. O, sadəcə, yerlə göyün arasında dolaşan ruhumuzun fatehidi. Dilmancdı Allahla muğamı dərk edənlər arasında!

Bu fatehliyə yol isə nə qədər qəribə olsa da, başlanğıcını "narkomanlıq"dan götürüb.

### *"Muğamın narkomanı"*

...məsələn:

- Arif Babayev "sənsiz, ey şux..." oxumağıyla;
- Fatma Mehrəliyeva "Sarıtorpaq" şikəstəsinin "Kəsmə-...şi" ilə;
- Xan Şuşinski "Mənsuriyyə";
- Əlibaba Məmmədov "Dəşti"... oxumağıyla möhürləyiblər ifaçılıqlarını (adbaad sadalamaq uzun çəkər).

Yəni, hərəsi ayrı-ayrılıqda bir muğamı, ya da dəstgahı oxuyub! Lap elə minnət qoymayıb deyək ki, yaxşı oxuyublar. Bəs Alim neyləyib?



Alimin elədiyi nə müğənnilikdi, nə də xanəndəlik. Çünki vokal oxuyan estrada oxumur, caznan məşğul olan xalq mahnıları.

Bu, "narkomanlıq"dı - muğama narkotik kimi aludəçilikdi.

Bütün başqaları oxuyanda bilirsən ki, harda hansı xalı vuracaq, pətənəyi harda ayaq verməyə məcbur edəcək. Tavandan o üzləri yoxdu!

Bəs Alim nətəridi?

Hə, Alimdə yenə "narkomanlıq"dı. Hər hansı bir muğamın və yaxud dəstgahın ikinci, üçüncü, beşinci oxusunda ifa tərzi hər dəfə orijinal maneradadı..

Bura qədər narkomanlıqdı!

Əvvəla, Alimin hər hansı bir muğamı və yaxud dəstgahı ən azından ona görə fərqlənir ki...

*SÖZARASI:* Bir dəfə "zayadlıy narkoman"dan soruşdum ki, dədə, çəkəndə nə hiss edirsən? Başladı nə başladı:

- beləsini çəkəndə ləpələnirəm;
- eləsini çəkəndə gülürəm;
- o birisində ağlayıram;
- digərində Şiri-Xurşid, bir ayrısında dəvəsi ölmüş ərəbin mərsiyəxanı oluram.

Heç bir izahata varmadan, təklif edirəm: Alimin ifasında səslənən muğamları bir-bir dinləyin və baxın - oxuyur, ağlayır, ağrıyır, döyüşür, Məcnun, Fərhad, Xosrov, Kərəm... hamısını YARADIR! O biriləri... OXUYUR! Sadəcə oxuyur, özü də pis oxumurlar, çox da yaxşı oxuyurlar. Amma Alim yaradır! Nəyi?

Bir də baxın videokasetə: hər bir muğamın və yaxud dəstgahın ifası minimum monotamaşadı; dekorasiya öz yerində, akustika tam nəzərə alınıb, ansambl var, əsas məsələ odu ki, hansı muğam hansı xassəyə malikdi, o xassə proyeksiyalanır!

Əsas məsələ buracan olan narkoman "vıxodka"ların təqdimatı da deyil. Əsl iş bundan sonradı! Bundan sonra "qumarbazlıq" gəlir!

### *"Səsin qumarbazı"*

Bura qədər Alimin etdiklərini ayrıları da tərsliyinə salıb da düzüb qoşa bilər - bircə muğamın, yaxud da ki, dəstgahın ifasında. O birilərinin düzüb qoşa bilmədiyi Alimin etdiyi "qumarbazlıq"dı. Bu məqamlarda Alim səsin taleyiylə oynayır! Əvvəla, zildə oxuyan ustadlar olub, var, olacaq. Alimə qədər də, Alimdən sonra da Alimin elədiyini eləmək mümkün olmayacaq: bu, zildən zilə qalxıb da zildə oxumağı davam etdirə bilmək məharətidi!

Vəssalam!

Buna nail olmaq yalnız kamil bir sufinin işidi!

Sufilik həm də gözbağlayıcılıq və fitrətən xariqüladəlikdi. Ən müxtəlif yollarla sufilik mənsəbinə-məqamına yüksəlmək olar. Alim buna ən riskli, yüzdəyüz faizə ehtimalla nail olub:

- səsin diapozonu bütün muğam və dəstgahların BƏMDƏN ZİLƏ keçilməsiylə yoxlanılıb;
- səsin diapozonu bütün muğam və dəstgahların ZİLDƏ ifasında tamamlanıb;
- səsin diapozonu bütün muğamların və dəstgahların ZİLDƏN ZİLƏ keçməklə ifasında möhürlənib, üstəlik də...

Alim Qasımov 1980-ci ildə Nəriman Qasımovdan "beş" alan iki tələbədən biri olsa da, həm də qədim Çin fəlsəfəsi uşudan irəli gələn keyfiyyətlərə malikdi. Onda orta əsrlər sufizminə, M.Füzuli qəzəllərinə mükəmməl bələdlik də etiraf olunmalıdı (etiraf etmək istəməyənlər M.F.Axundov adına kitabxananın arxivində Alim Qasımovun oxucu anketinə nəzər yetirə bilərlər). Düzdü, Akif İslamzadə belə bir bacarığa qabil olmağını dilə gətirib, lakin bunun Alimin payına düşdüyünü vurğulayıb. Məhz bu fikrə istinadən deyirik ki, sufilik təkcə müvafiq təmrinləri öyrənib ağılla, savadla həyata keçiriləsi missiya da deyil, axı...

Bu, artıq allahın izni olmayan bir işdi! Hərçənd bizə Vaqif Mustafazadənin instrumental ifaçılığını nümunə göstərə bilsələr də, yenə də Alim Qasımov balansına düşmür.

Ən nəhayət, nə Alimi fars və Qarabağ muğam ənənələrindən uzaq düşməkdə ittiham eləmək lazımdı, nə də Bakı kəndlərindən qaynaqlanan bir istedad kimi qiymətləndirmək.

Alim Qasımov, sadəcə, hər üç muğam ifaçılıq mədəniyyətinə bələddi, amma özü bir məktəb yaradıb. O məktəbin yetirmələri isə yalnız özləri bəndələrin gözünə "narkoman, qumarbaz" kimi görünən sufilər ola bilər! Fitrətən "narkoman, qumarbaz və sufi" olanlar!

Alim məhz belə "narkomanlıq, qumarbazlıq və sufilik" hesabına muğamın fatehidir!

Amma Alim Qasımovun bütövlükdə musiqimizdə yerindən söhbət açası olsaq, deməyə borcluyuq:

- Musiqimizin Xanı var - Padşahı da dünyaya gələ bilər, Seyidi var - Axundu da tapılar. Bülbülü də üstündən, can alan Yavəri ilə Münəvvəri nə qədər gözəl olsa, onları Yaradan Xaliq yenə xarüqələr yaratmağındadır, ancaq Alim Qasımov bu musiqi kəhkəşanının heç vaxt oxunmayacaq TRÜMOLASIdır - hər zaman, hər keçiddə!!!

*SON SÖZ ƏVƏZİ:* Alim Qasımov o xoşbəxtlərdəndir ki, etirafı üçün can atmır! 90 il əvvəl "Vilayəti-şikəstə"nin ifasına görə "Şərq musiqisinin peyğəmbəri" adını almış ustad sənətkarlardan sonra "Vilayəti-şikəstə" oxuyub hücrəsinə qapılması həm də cəsarətin və ifaçılıqda kişiliyn trümolasıdı! - çünki Alim Qasımovun oxuduğunu bir daha bir kimsə bir oktava yuxarı oxumaq qüdrətində olmayacaq! Buna heç Allahın özü icazə verməmişdi Alim Qasımova. Bu bir "kopolu oxumaqlıq idi" (Hacıbaba Hüseynov), biz gördük!

Bu "kopolu oxumaqlığın" da FA-sı Respublika sarayında verdiyi sonuncu konsertdə möhtəşəmcəsinə təsdiq olundu.

Alimpərəstlərdən olan dostumuz Tahir danışıb: "həmin o konsertdə Alim sanki insanları muğama hamilə edib onları bari-həmlini yerə qoymağacan özlərindən alırdı. Təsadüfən böyrümüzdə oturan, aşağıdan bir az aşağı, yuxarıdan bir az yuxarı geyinmiş üç qızın da zalda olduğunun fərqinə vardım. Əslində muğam ardı, abır-həyadı, bu "əxlaqda" qızların Alimin ifasından nə alacaqlarını düşünməyimin badına gedib eyni zamanda onları da izlədim. Zal Alimi ayaq üstə alqışlayanda o üç qızın məmnunluqdan heyi yox idi!".

Bir də belə "kopolu" oxuyan olacaqmı Sən yaratdığın dünyada, İlahi?!

*YAZIYA SÖZARDI:*

Əslində Alimdən yazilmamalıdı! Yazan odu!

Əslində Alim müsahibə verməməlidi: onunla söhbət ilahilikdən vəhy kimi gəlir - Muğamın Quranını ayə-ayə çatdırır!

Əslində 46 yaşı ayın 14-də tamam olmuş Alim haqqında son söz onun 62 yaşında deyilməlidi - peyğəmbərliyin bitdiyi yaşda!

Təəssüflər olsun ki, Allah daha nə peyğəmbər göndərir, nə də möcüzə yaratmağa icazə verir.

Əslində mən Alimdən bir "kopolu" yazı yazmaq istəyində idim. Yazası olsaydım, bütün içimi aparardı bu yazı - bir daha yazmağa güc və hey saxlamazdı məndə.

Akif İslamzadənin dediyinə qayıdıram: Alimin qismətinə düşmüş paya şərik olmaq, - lap yazı yazmaqla belə, - səsdən məhrumluğa gətirib çıxarır...

Mən 16 il sonraya saxladım o yazını - onda rahat olar! /avqust 2003/



Bəxtiyar Vahabzadə

## ALLAH

*İdrakda yol açmış gecədən gündüzə Allah,*
*Güldürməsən öz könlünü, gülməz üzə Allah.*
*Dünyaya şəfəqlər kimi tanrım səpələnmiş,*
*Qəlbin gözü yanmazsa, görünməz gözə Allah.*

*Allah! Bilirik cisim deyil, bəs nədir Allah?*
*Ən yüksək olan haqda, həqiqətdədir Allah.*
*Dondunsa təkamül və gözəllik qabağında,*
*Dərk et bu, təəccübdə, bu heyrətdədir Allah.*

*Bildik, bilirik, gizlidir insandakı qüdrət,*
*Hər kəs onu fəhm etməsə, acizdir o, əlbət.*
*İnsanın əzəl borcudur insanlığa hörmət,*
*İnsanlığa hörmətdə, ləyaqətdədir Allah.*

*Gerçək də budur: gizlidir hər zərrədə vəhdət.*
*Bir zərrə ikən küllə qovuşmaq ulu niyyət.*
*Gördüklərimiz zahirdir, bətnə nüfuz et!*
*Bətndəki, cövhərdəki fitrətdədir Allah.*

*Fitrət də yatır sözdə, sözün öz yükü fikrim.*
*Seçmiş, seçəcək daima tükdən tükü fikrim.*
*Mən bir ağacam, yarpağı sözlər, kökü fikrim,*
*Sözlərdə deyil, sözdəki hikmətdədir Allah.*

*İnsan! Təpədən dırnağa sən arzu, diləksən,*
*Nəfsində doyumsuz, fəqət eşqində mələksən.*
*Zülmün üzünə haqq deyilən şilləni çəksən,*
*Şilləndə möhürlənmiş o qeyrətdədir Allah.*

*Cahil enər alçaqlığa, öz qəlbinə yenməz,*
*Vicdandan əgər dönsə də, xeyrindən o dönməz.*
*Zülmətdə, cəhalətdə, ədavətdə o görünməz,*
*İlqarda, sədaqətdə, məhəbbətdədir Allah.*

## BİR SALAMA DƏYMƏDİ

*Bu gün mən səni gördüm,*
*Salam vermək istədim,*
*Üzünü yana tutdun.*
*Söylə, illərdən bəri*
*Qəlbimizin bir duyub*
*bir vurduğu illəri,*
*Axı, nə tez unutdun?*
*Beş ildə gözümüzdən axan o qanlı sellər,*
*Bir salama dəymədi?*
*Heç üzümə baxmadan*
*yanımdan necə keçdin?*
*Sən eşqin salamını qorxuyamı dəyişdin?*
*Yoxsa sən öz əhdinə, ilqarına ağ oldun?*
*O qədər yaxın ikən, bu qədər uzaq oldun.*
*Şirin gülüşlərimiz, acı fəğanlarımız*
*Bir salama dəymədi?*
*Qayğılı anlarımız, qayğısız anlarımız*
*Bir salama dəymədi?*
*Sən neylədin, bir düşün!*
*Yalnız indi anladım;*
*ah, sən daha mənimçün*
*Əlçatmaz bir çiçəksən,*
*Yaşanmış günlərim tək geri*
*dönməyəcəksən!*
*Qop ey tufan, əs ey yel! Xəzəl olum,*
*tökülüm*
*Düz beş il ürəyimdə*
*Bəslədiyim məhəbbət,*
*bir salama dəymədi.*
*Bir günlük həsrətimə dözə bilməyən*
*gülüm,*
*Bəs nə oldu?*
*Bu həsrət bir salama dəymədi?*
*Getdin, dalınca baxdım,*
*can ayrıldı canımdan,*
*Sən necə etinasız ötə bildin yanımdan?*
*Ah çəkdim, başım üstə yarpaqlar əsdi,*
*gülüm,*
*Sənin qəlbin əsmədi.*
*Arxana da baxmadın!*
*Niyə sənin yolunu məhəbbətin*
*kəsmədi?*
*Qazancımız de, bumu?*
*Deyilməmiş o salam əlvidamız oldumu?*
*Sən mənə zülm eylədin,*
*mənə zülm yaraşır.*
*Bir salama dəyməyən eşqə ölüm yaraşır!*

## AXI DÜNYA FIRLANIR

*Vaxtın dəyirmanında daş əridi, qum oldu,*
*Tarixə atdığımız qayıtdı, lüzum oldu.*
*Dünənin həqiqəti bu gün tərs yozum oldu,*
*Niyə də yozulmasın, axı, dünya fırlanır.*

*Çox ovlaqlar içində çox ovları ovladım,*
*Aşıb-daşan arzumu mən artıq cilovladım.*
*Mən atamı ötmüşəm, məni ötür övladım,*
*Bu, belə də olmalı, axı, dünya fırlanır.*

*Dünən düz sandığımı bu gün əyri sanıram.*
*Bəzən olur, özümdən özüm oğurlanıram.*
*Hər il başqa arzunun başına fırlanıram,*
*Niyə də fırlanmayım, axı, dünya fırlanır...*

*Çox əyilən görmüşəm, əyilməyən başları.*
*Sular duruldu, gördük dibindəki daşları*
*Ünvanmı dəyişdi dünənin alqışları;*
*Niyə də dəyişməsin, axı, dünya fırlanır...*

*Necə dönür bu dövran, necə dönür bu gərdiş,*
*Tazılarm üstünə dovşanlar da gülərmiş.*
*Dünya bina olandan hər şey dəyişilərmiş,*
*Dəyişməsin neyləsin, axı, dünya fırlanır.*

*əbədini dünyada mən əbədi sanmadım,*
*Bir atəşə tutuşdum, min atəşə yanmadım,*
*Bütlər gəldi və getdi, birinə inanmadım*
*Niyə inanmalıyam, axı, dünya fırlanır.*

*Fırlandıqca bu dünya, yox da dönüb var olur,*
*Quruyan çeşmələrdən sular yenə car olur.*
*Bu dünyanm xeyri də, şəri də təkrar olur,*
*Niyə təkrar olmasın? Axı, dünya fırlanır.*

*Min-min illər bu dünya beləcə fırlansa da,*
*Bir yuvanın bülbülü min budağa qonsa da,*
*Aylar, illər, fəsillər bir-birini dansa da,*
*Dəyişməzdir əqidəm, çox da dünya fırlanır,*

*Nə qədər istəyirsə, min o qədər fırlana,*
*Qarşıma gah şər çıxa, gah xeyir dığırlana.*
*Çərxi-fələk istəyir lap dolana tərsinə,*
*əqidəmi heç nəyə dəyişmərəm mən yenə.*

## YAMAN DARIXMIŞAM

*Yaman darıxmışam səninçin, yaman!*
*Mən əsir düşmüşəm öz istəyimə.*
*Nifrəti gizlətmək asandan asan,*
*Sevgini gizlətmək mahalmış, demə!*

*Haraylar yüksəlir könüldən yenə,*
*Bu necə haraydı, bu necə haydı?*
*Öhdəmdən gələrdim... Gözüm üzünə,*
*Qulağım səsinə darıxmasaydı...*

*Elə bil hər yerdən üzülüb əlim...*
*Mən azıb qalmışam qəm dərəsində.*
*Dirilib yaşanır sənli günlərim*
*Sənsiz günlərimin xatirəsində.*

*Yaman darıxmışam... Bu nədir yenə*
*Ağlım sağa baxır, ürəyim sola.*
*Ürəyim dönübdür göy göyərçinə*
*Qonub sən gedəli sən gələn yola.*

*Yaman darıxmışam... Hər axşamçağı*
*Arzumu günəşin telinə sardım.*
*Mənimlə olsaydı, mən darıxmağı*
*Zamana ən uzun ölçü sanardım.*

*Yuxuma gəlmişdin... Qısıldıq küncə.*
*Danışdıq... Yel əsdi... Dağıldı dərd-qəm.*
*Kölgəyə dönmüşdüm, Səni görüncə*
*Sənin işığında yox oldu kölgəm*

## SEVƏ BİLİRƏMSƏ...

*Ancaq məhəbbətçün yaranmışam mən,*
*Alammaz əlimdən bu haqqı kimsə.*
*Xoşbəxtem,*
*küsmərəm öz taleyimdən,*
*Əgər sevirəmsə...*
*sevilirəmsə...*

*Məhəbbət - amalım, arzularımdır,*
*Ona kainatım, cahanım deyim.*
*Mənim dövlətimdir, mənim varımdır*
*Bütün varlığımla sevə bilməyim.*

*Sevə bilirəmsə, əgər ürəkdən*
*Dünyanın ən gözəl adamıyam mən.*
*Səni sevirəmsə, sevirəm demək*
*Həyatı,*
*dünyanı,*
*yoxdur düşmənim...*
*Əgər sevirəmsə - qəlbim aynatək*
*Şəffafdır,*
*həssasdır,*
*kövrəkdir mənim...*

*Bu könül aynama gülümsəyərək,*
*Göylər də,*
*yerlər də*
*əks olur həmən.*
*Sevirəm,*
*sevirəm,*
*sevirəm,*
*demək,*
*Bütöv bir aləməm, kainatam mən.*

*Mən ki, kainatam, aləməm, nə qəm,*
*Ayım da,*
*Günüm də,*
*Ulduzum da var.*
*Həm zülmət,*
*həm də ki,*
*aydınlıq gecəm,*
*Həm açıq,*
*həm tutqun*
*gündüzüm də var.*

*De məndən varlısı dünyada varmı?*
*Sevən də özünü yoxsul sanarmı?*
*Mənim öz eşqimin öz ulduzları*
*Dağıdır, könlümə nur, qucaq-qucaq...*
*Axı, bu sərvəti, dövləti, varı*
*Məhəbbət bəxş edir insana ancaq.*

*Bəli, ilk insanla həmyaşam artıq,*
*Bilmirəm aydayam, ya gündəyəm mən.*
*Zamandan, məkandan çıxmışam artıq,*
*Dünyəvi aləmin fövqündəyəm mən.*

*Öz böyük eşqimlə fəzadayam mən.*
*Məni endirməyin yerə, amandır.*
*Dünya çox kiçikdir məhəbbətimdən,*
*Hər arzum bir cahan, bir asimandır.*

*Verir arzularım göydə səs-səsə,*
*Deməyin yerdə uç, yer bəs deyilmi?*
*Yanan bir ürəyə, sevən bir kəsə*
*Asiman özü də qəfəs deyilmi?*
*Sevə bilirəmsə, əgər ürəkdən*
*Dünyanın ən yaxşı adamıyam mən!*

## ÖMÜR

*Deyirlər, çox azdır yüz il, əlli il,*
*İnsana bir ömür kifayət deyil.*
*Hələ isitməmiş öz yerimizi*
*Ölüm cəllad olub haqlayır bizi.*

*Deyirlər, şirindir dadı dünyanın,*
*Kaş iki olaydı ömrü insanın.*
*Nola, çalışsaydıq ömrün birində,*
*Sonra əylənəydik biz digərində.*

*Hərə öz ömrünə bir cürə baxmış,*
*Hərə bu dünyanı bir cürə anlar.*
*Cahanda bəs nədən zövq alacaqmış*
*Zəhmətin özündən zövq almayanlar?*

*Yüz-yüz ömür belə azdır doğrusu*
*Bir ömrü insana az sayanlara*
*Haramdır bu hava, haramdır bu su*
*Əylənmək eşqilə yaşayanlara.*

*Yaşamaq, yanmaqdır, yanasan gərək,*
*Həyatın mənası yalnız ondadır*
*Şam əgər yanmasa, yaşamır demək*
*Onun da həyatı yanmağındadır.*

*Ömrü az olsa da, qartal yenmədi*
*Dedi, səmalarda öz oylağım var.*
*Ömrün azlığından gileylənmədi*
*Ömrü insan kimi başa vuranlar.*

*"Bu dünya beş gündür",- deyib hər yerdə*
*Sağ ikən qəbirdə uzanan da var.*
*Öz alın tərilə bircə ömürdə*
*Yüz insan ömrünü qazanan da var.*

Emin Piri

# MİQ EQOSU

MİQ imtahanları bütün çatışan və çatışmayan cəhətləriylə müəllim olmaq istəyənlərçün mütərəqqi addımdı. Amma sözüm imtahan prosesindən, suallarından deyil, yer seçimlərindəndir.

Özüm də bir neçə dəfə iştirak etmişəm, hər dəfə qəbul olmuşam. Üç kərəsə imtina edib getməmişəm. Həm şəhərə, həm rayona qəbul olmağıma baxmayaraq.

İndisə öz-özümə düşünürəm. Yer seçib getməməyin anlamı nədir? Baxmayaraq ki, məndə özəl səbəblər olmuşdu.

İndi cavabı tapdım. Eqo. Məhz eqo!

Baxın, mən bal toplaya bilirəm, mən qəbul ola bilirəm, amma getmirəm, imtina edirəm.

Öz eqomuzu təmin etmək istəyimiz, başqalarına özümüzü sübut etmək istəyimiz nələrə səbəb olur?

Ola bilər, hansısa namizəd bizdən az bal toplayıb. Bu onun zəif müəllim olmasına dəlalət etmir. Amma biz o yerə girib getməməklə bəlkə də kiminsə ruzisiylə oynamış oluruq. Bəlkə də həmin vaxt bizim qəbul olduğumuz yerə namizəd olan şəxs çörəyə möhtacdır. Amma biz eqomuzdan onu məhrum edirik.

Bəlkə də öz kəndindən olan biri, gələcəyin gözəl kadrı ora girəcəkdi, amma biz digər namizədlər onu bundan məhrum edirik.

Əlbəttə, özünü yoxlamaq naminə hər dəfə imtahana girmək də olar. Amma yer seçmədən, başqalarının ümidiylə oynamadan.

Düşünürəm ki, savadın kiməsə sübut edilməsinə ehtiyac yoxdu. Siz getməyəcəyiniz yeri yazmamaqla qoy sizi savadsız bilsinlər. Əsas odur ki, siz içinizdə biləssiniz ki, bunu bacara bilirsiniz, amma kiminsə ən azı bir illik ümidini məhv etmirsiniz.

Əsad odur ruhunuz rahatdır, eqonuz daha sizi incitmir. Huzur tapmısınız. Gerisi təfərrüatdır.

Əlbəttə, yer seçmək, qəbul olmaq da, sonra qəbul olduğunuz yerdən imtina edərək getməmək də sizin ixtiyarınızdadır.

Qanunlar da bunu deyir.

Amma sonra adam tək qalanda, özüylə söhbətləşəndə deyir;

-Bunu etməyimə, başqalarının ümidlərlə gözlədiyi yerə qəbul olub getməməklə düz etmədim...

***P.S.*** Mən etiraf etdim, sizi bilmirəm.

## *Sabah hava necə olacaq?*



**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraiti yağmursuz olacaq.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, cənub-şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 23-26° isti, gündüz 35-38° isti, Bakıda gecə 24-26° isti, gündüz 36-38° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 55-60 %, gündüz 35-40 % olacaq.

Sabah Azərbaycanın rayonlarında da hava əsasən yağmursuz keçəcək. Şərq küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 21-26° isti, gündüz 35-40° isti, dağlarda gecə 15-20° isti, gündüz 25-29° isti olacaq.



Zaur USTAC

## *AĞ ADAM*

(Rəşad Məcidin doğum gününə)

Tanrı mayasını tutubdu "ağ"la,
Torpağı ağ, sümüyü ağ, sözü ağ.
Sən bu hekayətə ya gül, ya ağla,
Bu adamın əyrisi ağ, düzü ağ.

Ağoğlanda göz açıbdı dünyaya,
Ağ doğulub, nur saçıbdı dünyaya,
Ağ qalacaq, and icibdi dünyaya,
Sözün tutub; alnı açıq, üzü ağ.

Ağdam adlı məmləkətin uşağı,
Burda çözüb min-bir türlü tuşağı,
Çox dinləyib "dastan" deyən "aşığı";
Hekayətin mini qara, yüzü ağ.

Ağcabədi, mədəniyyət beşiyi,
Yurd yeridi, çəkilibdi keşiyi,
Sadə olub daim evi, eşiyi,
Məqamında kürsüsü ağ, mizi ağ.

Ustac deyir; tam arınıb bu adam,
Ağayana, mərd tanınıb bu adam,
Yarananda, ağ yaranıb bu adam,
Ağ adamdı; "dirsəyi ağ", "dizi ağ".

Qeyd:

21 avqust dəyərli ziyalımız - yazıçı, jurnalist, Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət işçisi, "525-ci qəzet"in baş redaktoru, Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının üzvü - Rəşad Məcidin doğum günüdür. Şad günü münasibəti ilə Rəşad müəllimi təbrik edir, can sağlığı, uzun ömür və bütün fəaliyyətində uğurlar arzulayırıq. Rəşad müəllim 58-i tamamlayaraq, 59 yaşınına qədəm qoyur. "60"-la bağlı "Yazarlar"ın xüsusi "Ağ adam" adlı təbrik layihəsi var. Bu layihədə iştirak etmək istəyən hər kəs Rəşad Məcidin həyat və yaradıcılığı barədə olan yazılarını zauryazar@mail.ru e-mail ünvanına göndərə bilərlər. Bütün materiallar 01.08.2022-ci ildən 01.08.2023-cü ilə qədər qəbul ediləcək. Yazılarınızı gözləyirik.



Rəvanə Asiman

# Mən niyə istefa verdim...



*2 illik ucqar kənd məktəbində işləməyimin xülasəsi və istefa ərizəm...*

*İş müsahibəmdə xanım mənə belə bir sual vermişdi: "Məktəb rəhbərliyindən biri sizi təhqir etsə, reaksiyanız necə olar? " Cavabımı vermişdim, müsahibədən də keçmişdim, ancaq beynimdə bir sual insan kimi oturmuşdu, mənlə danışırdı. Məgər məktəb rəhbərliyində elə səviyyədə insan ola bilərmi?*

*Gənc müəllimlər ümidlərlə məktəbə təcrübə qazanmağa gedir. Məndə 2 il 20 ilə bərabər oldu. Çox təəssüf ki, mənfilər çox oldu, mən onlardan dərs aldım.*

*2 il ərzində müəllimlik edə bildimmi, bunu şagirdlərim bilər, mən onu bilirəm ki, təkcə əlimdən gələni deyil, ürəyimdən gələni də etdim və vicdanım rahatdır. Müəllimlikdən ziyadə cahilliklə savaşdım.*

*Ən məyusedici tərəf isə diplomlu cahillərlə. Bir neçə nümunəni yazacağam:*

*Direktor mənə sual verir: Siz uşaqlara niyə kitab oxudursunuz ki?*

*Tərbiyə işləri üzrə müavin vulqar və təhqiredici üslubda danışır.*

*Kitabxana kartları pulla satılır və kitabxana açılmır. Gündə sadəcə 15 dəqiqə açıq olurdu.*

*Odun sobasını yandıran xala belə vəzifəsini icra etmir.*

*Müəllim dərsə içkili halda girir.*

*Şagirdlərə dərman paylanılır və bu heç kəsi narahat etmir.*

*Əlbət, vəzifəm deyildi, lakin hamısının işinə qarışdım. Reaksiya verdim, lazım gəldi dalaşdım. 10 dəfəyə yaxın Təhsil Nazirliyi və Təhsil Şöbəsinə yazılı və şifahi şikayətimi bildirdim. Demək olar ki, hamısı nəticəsiz qalırdı.*

*Təhsil Nazirliyinə göndərdiyim ərizə çap şəklində çıxarılıb məktəbə gətirildi və son nəticədə mən xəbərçi oldum, yoxlama belə nəticəyə gəldi ki, məktəb ailədir, ailənin sirri kənara çıxmaz.*

*Bir şikayətimdə Tərbiyə üzrə müavinin vəzifəsini icra etmədiyini qeyd etmişdim, yoxlama isə həmin müəllimdən mənim necə işlədiyimi soruşdu. O isə 9-cu siniflərə dərs keçmədiyimi dedi.*

*Halbuki o mənim dərsimdə bir dəfə belə iştirak etməmişdi. Mən iradımı bildirdikdə isə: vəzifəsini icra edib mənə "tərbiyə" verəcəyini dedi. 2 illik savaşımda bir dəfə də olsa, əzildiyimi hiss etməyən mən sinif otaqlarının birinə girib hönkür-hönkür ağladığımı xatırlayıram, hələ də o stresi yaşayıram.*

*Bəli, müsahibədəki həmin xanımın subliminal mesajı idi. Təhqir olunmuşdum...*

## *İstifadəyə yararsız süd məhsulları məhv edildi*



**İstifadəyə yararsız süd məhsulları məhv edilib.**

Bu barədə Qida Təhlükəsizliyi Agentliyindən (AQTA) məlumat verilib. Bildirilib ki, "AZ FP CO LTD" MMC-nin Agentliyə müraciəti əsasında, istehlaka yararsız və istifadə müddəti bitmiş 67 adda, 13919.46 kq müxtəlif növ süd məhsulları "Təmiz Sumqayıt-Kənan" MMC-yə məxsus tullantıların zərərsizləşdirilməsi poliqonunda məhv edilib.



Əbülfət MƏDƏTOĞLU

# Məmmədin sevgi ömrü

## Bu bir ruh söhbətidi

**Həyatımdakı maraqlı və həm də səmimiyyəti ilə qalan, yaşayan adamlardan biri də şair, rəssam Məmməd Dəmirçioğludur. Onun barəsində keçmişin adamı kimi danışmaq çox çətindir. Çünki Məmməddə heç kimdə görmədiyim, duymadığım tamam fərqli bir istiqanlıq vardı. İstər telefon söhbətlərimizdə, istər üzbəüz təmaslarımızda mənə elə gəlirdi ki, onu hələ dünyaya gəlməmişdən tanımışam. Bu şirinliyin oxşarını mən rəhmətlik Akif Səməddə də duymuşdum. Elə görünür bu incə nüans da indi cənnətdə bir yerdə olan hər iki şairi bir-birinə bağlayırmış...**

Mən Məmməd Dəmirçioğlunun yaradıcılığına kifayət qədər bələdəm. Demək olar ki, onun özünün avtoqrafla bağışladığı kitablarını tez-tez gözdən keçirir, xüsusilə onun "Mənzərə"lər silsiləsini hər söhbətdə xatırlayıram. Bir xeyli müddət Məmməd "Ədalət" qəzeti üçün "İnsan mənzərələri" yazdı. Günlərin birində də öz mənzərəsini həm kağıza, həm də yaddaşa köçürüb ayrıldı, sevdiklərindən, sevənlərindən. Bu, təbii bir haldır mənim üçün. Ona görə ki, o duyğularla, o sevgi ilə, bu qarmaqarışıq - iti sahibini tanımayan dünyada çox qalmaq hər adamın gücündə deyil. Məmməd Dəmirçioğlu da məhz bu qarışıqlıqdan, bu çirkab qoxulu mənzərələrdən bezdi, iyrəndi və yır-yığış edib getdi tanrı dərgahına. Gedəndə bizə söz əmanət qoydu, sənət əmanət qoyub getdi. İndi onun "Səhra gülləri"ni oxuyuram...Bu kitabın orta səhifələrindən birində yer alan şeirdir. Məmməd Dəmirçioğlu yazır ki:



*Bu gecə dilimdəsən,*
*Sözüm ilə yatacam.*
*Ürəyimə qor salıb,*
*Közüm ilə yatacam.*

Mən onun səmimiyyətinə heç bir şübhə etmədən məhz bu cür yatdığını qəbul edirəm. Çünki o həm rəssam, həm şair kimi heç kimin könlünə toxunmağı ağlına belə gətirməyib. Bütün ağrı-acını, bütün qayğı yükünü, özü də heç kimdən soruşmadan, izin almadan çəkib, daşıyıb. Və elə ona görə də o gecəni də sözlə yatıb, səhəri də ürəyinin ağrısı ilə açırdı. Mən də ruh dostumun həmin o ovqatının işığında həyatın mənə yaşatdığını, mənə etdiyi yaxşılıq və pislikləri unudaraq sadəcə sevginin ətəyindən tutdum. Və Allahımdan dua edərək bu dünyanın mənə aid hissəsində, mənə verilən ömür payımda bir dilək dilədim:

*Ruhum yatır sinəndə*
*Əlini günlük elə...*
*Ruhunu da ona qoş -*
*Yanını güllük elə...*

Hər halda bir Allah bəndəsi olaraq dilə gətirdiyim istək, könlümdə qanadlandırdığım arzu heç kimə toxunmayıb, heç kimin haqınna müdaxilə edilməyib və bu istək hər kəs üçün qəbul olunandı. Təki içində sevgi olsun. Amma sevginin ağrısından qorxan, sevginin əzabından çəkinən, həsrətini az qala yeddi başlı əjdaha kimi görən yalançı aşiqlərə sevgi yaxşı heç nə vəd etmir. Bunu öncədən bilmək lazımdı. Məhz həyatın bu üzünü həm rəssam, həm şair kimi bilən və görən Məmməd Dəmirçioğlu da tərəddüd etmədən, necə deyərlər, çox açıq və içdən gələn istəklə pıçıldayır:

*Dərdlərimə ağrıma,*
*Alışmışam ağrıma.*
*Basacağam bağrıma,*
*Dizim ilə yatacam.*

Bundan gözəl və bundan tutarlı nə demək, necə demək mümkündü, necə yatdığını, necə yatacağını. Mən sadəcə və sadəcə Məmmədin bu etirafını öz ürəyimin səsi kimi qəbul edirəm. Ona qulaq asa-asa həyatın çiynimdəki yüklərini unudub , sevgimin vüsala gedən yolunun çətinliklərindən ötüb keçməyə özümü müsəlləh əsgər hesab edirəm. Tam qətiyyətlə, əminliklə sırada olduğumu, anındaca səsinə, hayına qaçmağı hazır dayandığımı həm yazıram, həm də bütün səsimlə car çəkirəm:

*Nə yuxumdan çıxıb get,*
*Nə də fikrimi tərk et!*
*Harayıma hər an yet -*
*Ömrümü tünlük elə...*

Sizi bilmirəm, amma mən nə yazdığımın fərqində olduğumdan , birmənalı olaraq, yaşantılarımın mənzərəsini sözlə yaratmaq istəyirəm və bu istək də Məmmədin mənə tanış, mənə doğma "mənzərə"lərindən qaynaqlanır. Çünki o mənzərələr yaşanmış və təsdiqini tapmış gerçəkliklər idi. Gerçəkliyin içərisində isə nəyi necə axtarmağından asılı olmayaraq fakt yerindədir. Reallıq göz önündədi, hansı eynəklə, hansı bucaq altında baxmağından asılı olmayaraq o gerçəklik: - Mən burdayam! - deyir.

Odur ki, Məmmədin bu bulaq suyu kimi dupduru, həm də bal şirinliyində olan pıçıltısı o gerçəkliyi mənim gözümün önündə canlandırır. İndi siz də həmin gerçəkliyi gözünüzün önünə gətirsəniz, onda bilərsiz ki, sevgi adamı hansı mənzərənin təmsilçisinə çevirə bilir. Yəni adamı hansı hallara salır. Bax, onu bir də bilmək və yaşamaq və görmək üçün Məmməd Dəmirçioğlunun indi təqdim etdiyim şeirinin sonuncu bəndinə diqqət yetirin:

*Ay ahımla alışıb,*
*Qaranlığa qarışıb.*
*Bu gecə də barışıb,*
*Özüm ilə yatacam.*

Gördünüzmü, necə konkret, necə gerçək, necə səmimi bəyanatdı. Həm Allah qarşısında, həm sevgi qarşısında, həm ürək, həm də ruh qarşısında. Bunu yalnız ömrü SEVGİ olanlar edə bilər. Məmmədin ömrü - rəssam ömrü, şair ömrü, aşiq ömrü və bütövlükdə İNSAN ömrü sevgidən ibarət idi. Həm həyata, həm də hər kəsə. Mən də onun bu ömrünün şahidi kimi ruhuna qoşulub gəldiyim yolda çəkinmədən elə Məmməd sayağı bir ərklə Allahdan diləyimi diləyəndə, istəyimi dilə gətirəndə yalnız SEVGİni düşündüm, SƏNİ düşündüm və Məmmədin şeirinə qoşulub gələn şeirimi belə tamamladım:

*Qəlb boşdusa - ev kimi...*
*Demərəm dön, sev, kimi!*
*Ona dəli sevgimi -*
*Allah, min illik elə!*

**Bəli, bir ruh dostumla, bir işıqlı, bir unudulmaz DƏYƏRLİ insanla, daha doğrusu, bizə onun əmanət etdiyi sözü ilə dərdləşdim, pıçıldaşdım və bu yazını ortalığa çıxartdım. Düşünürəm ki, Məmmədin ruhu izinsiz etdiyim bu işə görə məni bağışlayar. Ruhu şad olsun Məmməd Dəmirçioğlunun!**

# Əjdər Ol-un "Səhər"i

## Və mənim "Səhər duam"

**Adi məntiqlə yanaşanda səhərin açılması təbii bir haldır. Və səhərin açılması heç kimdən asılı olmadığı kimi, heç kimin də sifarişi deyil. Elə gecələr də onun kimi. Deməli, təbii olan bir prosesə kənardan baxıb duyğulanmaq, onda nəyisə görmək, nəyisə axtarmaq tamam başqa bir işdi. Və maraqlıdı ki, bu işə daha çox şairlər, rəssamlar, yəni ruh adamları meyl göstərirlər, can atırlar. Necə deyərlər, "işin işindən iş çıxarırlar". Onda da baxıb görürsən ki, səhər və səhərin açılması, gecə və gecənin düşməsi sən demə həm də poeziya imiş, rəssamlıq imiş. Onu görmək isə poeziyanın, rəssamlığın içərisində - iç dünyasında gəzib-dolaşmaq, görüb bilmək imiş...**

Bax, bu mənada, mən də adətən dan üzünü, sübh çağını sehr etməyi, səhərin necə açıldığını izləməyi çox sevirəm. Elə şər qarışanda da, sakit bir guşədə tək-tənha ətrafın yavaş-yavaş qaranlığa bürünməyini də onun kimi. Bu tərkidünyalıq deyil. Bu, mənim üçün baş verən hadisənin içərisində olmaqdı. Elə əlimdəki kitabın müəllifi də bu duyğuların gözəl tərcürmanı, yəni onu bütün çalarları ilə görüb oxucuya çatdıranıdı. Kitabın adı "YaŞa"dı. Müəllifi isə dəyərli şairimiz Əjdər Ol-dur! (Allah şairimizin tezliklə yolunu ailəsinə, dostlarına tərəf salsın. Və inşallah tezliklə onu öz aramızda görmək, ailəsinə və dostlarına nəsib olsun! - Ə.M.)

Mən Əjdər Ol-un oxucularından biri kimi hər dəfə onun söz dünyasına baş vuranda yeni bir nüansla, yeni bir bədii səhnə ilə qarşılaşıram. Elə təbiətin şıltaqlıq etdiyi bugünlərdə kitab rəfimdən "YaŞa"nı götürdüm. Və necə deyərlər, gözüyumulu açdım, qarşıma "Səhər" şeiri çıxdı. Oxudum şeiri. Və düşündüm ki, məhz səhərə yazılıb bu şeir. Özümü inandırdım ki, Əjdər Ol məhz bu səhərin açılmasını izləyib və həmin o prosesin içərisində bu şeir dünyaya gəlib. Əjdər Ol yazıb ki:

*Gördüm nimdaş buludların*
*bir ucdan süzülməyini.*
*Quşların ordudan qabaq*
*nizama düzülməyini.*

Doğurdan da, əgər buludların ağlamağa başladığı səhəri izləmisinizsə, onda siz də mənimlə həmfikir olacaqsınız, onda siz də görəcəksiniz ki, o nimdaş buludlar necə süzülür, necə didilir... Görəcəksiniz ki, quşlar necə aşağıdan uçmağa, halay tutmağa, sıralanmağa başlayır və bütün bunları görəndə üzünüzə toxunan damcılar sizi xəyal aləmindən diksindirib ayıracaq. Amma mənə görə bu xoş ayrılıqdı. Çünki səhər açılır və sən səhəri seyr edirsən. Onda da mən məhz qayğılarımın, acılarımın, əhvalımın necə durulduğunu, necə özünə dönüş yoluna çıxdığını hiss edəcəm, yaşayacam və mən də deyəcəm ki:

*Ruhumun şan-şan vaxtı*
*Dərdin danışan vaxtı...*
*halım qarışan vaxtı -*
*bir təbəssüm əta et!..*

Bax, bu ovqatın içində yaranan poetik səhnəni, bir rəssam işi kimi lap birbaşa desəm, naturadan çəkilmiş rəsm əsəri kimi görmək mənə çox xoşdu.

O qədər xoşdur ki, etdiyim səhər duası məni elə bil ki, Allaha, göy üzünə və Sənə yaxınlaşdırır. Bunun da həm təşəbbüscüsü,



həm qanadlandıranı, yol göstərəni, bir sözlə məni məndən çıxıb getməyə həvəsləndirən səhərin vəsvidi, səhərin tərənnümüdü. Onu da Əjdər Ol edir. O, yazır ki:

*Bulud bir çiçəkdən gördü,*
*Kəpənək küləkdən gördü,*
*Tanrı bir mələkdən gördü,*
*canımın üzülməyini.*

Hiss etdinizmi, mənim nə yaşadığımı, nə çəkdiyimi şair necə ustalıqla misralayıb. Elə bil ki, fırça ilə çəkib, elə bil ki, birbaşa hamımızın üzünə deyib. Bu, təkcə istedad deyil, bu, həm də yaşamdı. Əjdər Ol-un bu səhər yaşadığı hisslərin alovudu, bürüyüb məni də, yəqin elə sizi də.

Mən də, elə siz də bu alovun içində yanmırıq. Çünki o hisslər yandırmır, o hisslər ümid verir, inam verir, yaşamağa ,var olmağa kökləyir adamı. Bilirsiz niyə? Ona görə ki, niyə yandığımızın müxtəlif səbəblərini xatırladır bizə Əjdər Ol. Anlayırıq ki, biz çiçəkdən, küləkdən, hətta mələkdən də qorranıb alışa bilirik.

Çünki ruhumuzda, varlığımızda, ürəyimizdə sevgi var. Ona bir qığılcım düşür və biz o sevgi ilə yaşayırıq. Canımız üzülə-üzülə, sevgimiz pərvazlana-pərvazlana, həsrətimiz qılınc oynada-oynada... Amma yaşayırıq. Bu məqamda mən yenə üzümü Sənə tuturam. Çünki indi yalnız duyğularımı Sən anlayırsan və mən də Sənə deyirəm:

*Əllərimi ovuşdur*
*don atmaqdan sovuşdur...*
*gözü gözə qovuşdur -*
*Qəlbi qəlbə buta et!..*

Həqiqətən də, anlayış xoşbəxtliyin özüdür. Kimliyindən, şəxsiyyətindən, cəmiyyətdə, təbiətdə tutduğu yerdən asılı olmadan Allahın yaratdığı, düşünmək qabiliyyəti olan hər kəsdə anlayış olsa, həyatın ağrı-acısı, giley-güzarı, problemləri mənim inancıma görə yarıba-yarı azalar. Bu anlayış isə sevgidə Şah damardı. Tərəflər bir-birini anlayanda onların bir-birinə güvənci də artır, sabaha ümidi də. Büdrəməkdən, yıxılmaqdan qorxmadan ayaqda dururlar. Nə yazıq ki, anlayış və ümumiyyətlə, anlamaq dərdi bütün dünyanın çözülməyən və yaxud da çözülməsi mümkünsüz olan problemdi. Ona görə ki, bu problem fərdlərin daxilindən qaynaqlanır. Deməli, yer üzündəki insanların sayı qədər də anlamaq və anlayan problemi var. Bunlar da bir-biri ilə dartışmaqda, çəkişməkdədilər. Nəticədə nə qədər dağıntılar, nə qədər mərhumiyyətlər, nə qədər ürək sınıqlığı, nə qədər infarkt və nə qədər də...nəsnələr var və olmaqda da davam edir. Elə bu səhərin şəklini çəkən Əjdər Ol da həmin mənzərəni izləyə-izləyə təqribən mənim düşündüyümü, mənim ifadə etdiyimi şeirin dili ilə deyir. Və yazır ki:

*Tapdalandı yollar, izlər,*
*İşə düşdü bütün sözlər,*
*Axmaqlar oturub gözlər,*
*dünyanın düzəlməyini.*

Oturub gözləyənlər axmaq olduqları qədər də anlamaq kasadıdılar. Onlar anlaya bilmədiklərini və yaxud da anlaşmaq istəmədiklərindən gəlib axmaq olublar.

Onlara yalnız yazıqlar olsun! - demək mümkündür. Düşünməyin ki, söylədiyim bu fikir kimisə anlamağa həvəsləndirmək üçündü, yox, südlə gələn sümüklə çıxır - deyib atalar. Nə isə...

Bütün baxış bucaqları altında öz bildiyimə, öz inancıma sadiqəm. Yalnız həmin nöqtədən, həmin aspektdən çıxış edərək özümə və çevrəmə bəyan edirəm ki, gördüyünü dərk etmək, dinlədiyini yozmaq cəm şəklində anlamaqdı. Ona görə də mən özümü də, sizi də hər zaman anlamağa çalışmışam və bilmişəm ki, Allahıma və Sənə olan sevgimdə də, Allahıma və Sənə doğru gedən yolumda da mənim müşahidəçim və himayəçim Anlamaqdı. Elə bu səhər duamda da mən o istəklə hamıya üz tutub demişəm:

*Sevgidə xocalıqdan*
*Mən ölüm, qocalıqdan...*
*Sən enmə ucalıqdan -*
*Tanrıma da əda et!!!*

**Bəli, açılan hər səhəri öz anlayışımla, öz duyumumla görmək, özünə köçürtmək, hətta bu açılan səhərlə həmsöhbət olmaq son dərəcə duyğusal bir haldı. Mən çox istərdim ki, açılan səhərlər hər birimizə həmin o duyğusallığı bol əllə bağışlasın və biz hamılıqca səhərimizə onun duasını həm ürəyimizin, həm də ruhumuzun istəyi ilə edək. Allah səhər dualarımızı yerdə qoymasın! AMİN!**

Əbülfət MƏDƏTOĞLU

# Minnətdarlıq



**İki aydan artıqdir ki, gözəl Qubada, Alekseyevkadakı bağ evimdə həm dincəlir, həm də yazıb, yaradıram. Hemodializ xəstəsi olduğum üçün Quba Diaqnostika mərkəzində "Hemodializ şöbəsi"ndə həftədə üç gün dializ olunuram.**

**Mən bu şöbədə çox səmimiyyətlə qarşılandım, qayğı ilə əhatə olundum. Burada xəstələrə "can" deyə müraciət edirlər. Nüfuzlu qəzetiniz vasitəsi ilə "Hemodializ şöbəsi"nin bütün əməkdaşlarına - həkim Rəvanə Adıgözəlovaya, baş tibb bacısı Gülnarə xanıma, tibb bacılarına - Vəsiləyə, Fidana, xüsusi ilə Günaya, təmizlik işçilərinə - Məfruzəyə, Elnarəyə, Mehbarəyə, səmimiyyət və diqqətlərinə görə minnətdarlığımı bildirirəm. Mən dializdə özümü xəstə hiss etmədim.**

**Cəmiyyətimiz belə məsuliyyətli peşəkarların sayəsində gözəldir. Quba Diaqnostika Mərkəzinin Hemodializ şöbəsi yaxşı bir nümunədir.**

**Nizaməddin Şəmsizadə**
**Azərbaycan Respublikasının Dövlət Mükafatı Laureatı**

## Ən ideal yaş açıqlandı - evlilik üçün...

**Ailə dövlətin hər zaman kiçik bir modeli olaraq qəbul olunur. Sağlam ailə isə güclü dövlətin özülü deməkdir. Lakin ən uğurlu evlilik yaşı barədə müxtəlif versiyalar həmişə müzakirə mövzusudur. Burada həm psixoıoji həm də digər nüanslar var. Bu barədə mütəxəssislər tərəfindən ideal evlilik yaşı müəyyən edilib. Beləki Amerika Birləşmiş Ştatlarında aparılan bir araşdırma ilə ideal evlilik yaşı məlum olub.**

Lakin Qərb ölkələrində ümumi evlilik anlayışı gənclərin 20 yaşlarında peşəkar həyatlarının əsasını qoymaları, karyeralarını inkişaf etdirmləri, daha sonra isə 30 yaşlarında ailə qurmalarına əsaslanır. Son illərdə xüsusilə təhsilli qadınlar karyeralarını inkişaf etdirmək istəyi ilə ailə həyatı qurmaq təzyiqi arasında qalıblar. Gənclərin 20 yaşlarında öz karyeralarını və müstəqil şəxsiyyətlərini qurmaqla məşğul olması, daha yetkin yaşda ailə qurması Qərbdə xoşbəxt evliliyin sirri kimi ifadə edilir.



Virciniya Universitetinin Ailə Tədqiqatları İnstitutundan Brad Wilcox və Demographic Monitoring tədqiqat şirkətindən Lyman Stounun birgə müəllifi olduğu məqalədə vurğulanır ki, insanlar uyğun həyat yoldaşları tapmaq və yaxşı seçimlər etmək üçün daha yetkin 30 yaşlarını gözləyirlər. ABŞ-da orta evlilik yaşının qadınlar üçün 29, kişilər üçün 30 olduğu bildirilən məqalədə universitet məzunları arasında bu ortalamanın getdikcə artdığına diqqət çəkilib.

"Ailə Araşdırmaları İnstitutu"nun apardığı araşdırmaya görə isə, boşanmağa ən çox meyilli olan cütlüklər 18-20 yaşları arasında evlənənlərdir. Araşdırmalar göstərir ki, 25 yaşında evlənən birinin boşanma ehtimalı 20 yaşında evlənənə nisbətən 50% azdır.

Mütəxəssislərin fikrincə, ideal evlilik yaşı 25-30 yaş arasıdır.

Lakin hesab edə bilərik ki, bir çox məsələr kimi evliıik yaşı anlayışı da nisbidir. Təbii ki, zamanında evliliyin üstünlükləri yetərincədir. Amma orta yaşlarda da evlənib xoşbəxt olanlar da az deyil. Bir sözlə hansı yaşda olmağınızdan asılı olmayaraq xoşbəxtlik sizinlə olsun.

**Söhbətləşdi:**
**Bünyamin BÜNYADZADƏ**

# Nərican kəndinin şair oğlu

**Öz təmsilləri, qəzəlləri, lirik, satirik və məhəbbət şeirləri ilə seçilən şairlərimizdən biridir Sabir Nemətov. 1947-ci ilin noyabr ayının 12-də Bakı şəhərində dünyaya göz açsa da 1955-ci ildən Azərbaycanın füsunkar təbiətə malik Xaçmaz torpağının Nərəcan kəndində yaşayır O. Nərəcan kəndi Xaçmazla Xudat şəhərləri arasında, Qusarçayın sağ sahilində, okean səviyyəsindən cəmi 63 m. hündürlükdə yerləşir. Rəvayətə görə Qəbələ rayonunun ərazisində yerləşən Mıxlıqovaq kəndindən bir qrup əhali Xaçmaza tərəf gəlmiş və indiki Nərəcan kəndi ərazisində durmuşlar. Türk dilində nərə - yəni, hara deməkdir. Elə kəndin adı da oradan götürülüb. Yəni haracan (nərəcan). Onu da deyək ki, 1905-1918-ci illərdə kəndə ermənilər basqın edərək vəhşiliklər etmiş, bir çox evləri yandırmışlar.**

Belə bir təbiəti gözəl, tarixi qədim məkanda boya - başa çatan Sabir müəllimin şair kimi yetişməsində mənə elə gəlir ki, təbii bir qanunauyğunluq vardır. Sabir müəllimi tanıyanlar onu həm fiziki, həm də mənəvi cəhətdən qürurlu, bütöv şəxsiyyət kimi qiymətləndirirlər. Məhz saf bulaq suyu içən, təmiz hava qəbul edən insanlarda bu cür mənəvi keyfiyyətlər ola bilir.

Sabir Nemətov bir yaradıcı insan kimi həm riyaziyyat fənnindən dərs dediyi məktəbdə, həm də yazdığı təmsillərində, qəzəllərində, sabiranə şeirlərində insan haqlarına hörmət etməyi, qanunları qorumağı, insanları bədxah əməllərdən çəkinməyi tövsiyə edir. Mənə elə gəlir ki, Sabir müəllim əsas peşəsində edə bilmədiklərini təmsillərində daha çox oxucuya çatdırmağa nail olur. Elə "Qarğa və bülbül" təmsilində olduğu kimi :

*Bir gün hiyləgər qarğa dost oldu bülbül ilə,*
*Yol tapdı o, qəlbinə, şirin - şirin dil ilə.*
*Birlikdə yeyirdilər, birlikdə içirdilər,*
*Bir - birinin yolunda "candan da keçirdilər".*
*Dedim qarğa və bülbül imtahandan keçəcək,*
*Güman etmək olardı qarğa bülbülləşəcək.*
*Amma tərsinə oldu, qəlbimdə arzu söndü,*
*Qarğa bülbülləşmədi, bülbül qarğaya döndü.*

Hər bir şairin ədəbiyyata gəlişi körpə çağanın həyata gəlişi qədər həm əzabdır, həm də uğurlu bir poetik gəlişdir.

Şübhəsiz, göz açdığı Vətən torpağı, ana təbiət, onun iqlimi, füsunkar gözəllikləri şairi ilk baxışdaca məftun edir, ilham pərisi şairlə yol yoldaşı olmağa başlayır :

*Bu gözəl yurduma mən bağı - Gülüstan demişəm,*
*Min bir nemət yetirən torpağına can demişəm.*
*Mənə rahat görünür öz elimin daş koması,*
*Yad elin sarayına guşeyi - zindan demişəm.*

Bizdə həmişə belə olub ki, əsl ədəbiyyata, əsl şairə şairlər dünyadan köçəndən sonra qiymət verməyə başlayırlar. Düzü, Sabir Nemətov kimi özünün orijinal poetik yolu, öz dəst - xətti olan şairin yaradıcılığı haqqında yazmamaq, onu araşdırmamaq mənə belə gəlir ki, düzgün olmazdı. S.Nemətovun heç kimə bənzəməyən təkrarsız poetik deyim tərzi var, xüsusən onun qəzəllərində tarixi ənənəyə sadiqlik hər an özünü biruzə verir :

*Get daha, istəmirəm sən mənə canan olasan,*
*Yenə əvvəlki kimi can evimə can olasan.*

*Baxmaram bir də sənə heç gözümün ucu ilə,*
*Gözəllər içrə əgər sən də bir sultan olasan.*

Onu da deyim ki, Sabir müəllim sadə və səmimi insandır. Son dərəcə təvazökardır və heç vaxt "mən - mən" demir. Özünə həmişə təndiqi yanaşır. Hamı ondan razı qalsa da, özü özündən heç vaxt razı qalmır, daima narahatçılığını biruzə verir. Bu xüsusiyyətlər onun şeilərində də aydın görünür :

*Nə qədər səy eylədim yaxşı qəzəl alınmadı,*
*Sabirəm, müəlliməm, axı qəzəlxan deyiləm.*

Və yaxud :

*Sabirdə cürətə bax, qəzəl deyir yazdığına,*
*Nə vaxtdan oldu qəzəl, adi cızma - qarə hələ?!*

Qeyd etmək lazımdır ki, bu kitabına qədər S.Nemətovun müxtəlif qəzet və almanaxlarda işıq üzü görən şeirləri, 254 səhifəlik "Həqiqət axtarışında" ("Xalidoğlu" nəşriyyatı, 2022) kitabı ilə geniş oxucu kütləsinin dərin rəğbətini qazanmışdır. "Yalanlar içində" şeirlər kitabı ilə müəllif əvvəlki kitabında olduğu kimi poetik ənənəyə sadiq qalaraq oxucularını bir az da dərin düşüncələrə qərq edir :

*... Aylar, illər ötürmüşəm,*
*Ömrü sona yetirmişəm.*
*Nəyim varsa itirmişəm,*
*Ağar saçım, ağar daha.*

*Göz dağısan sən başımda,*
*İzin qalsın yaddaşımda.*
*Ağ olacaq baş daşım da,*
*Ağar saçım, ağar daha.*

Kitabın redaktoru Azərbaycan yazıçılar Birliyinin üzvü, istedadlı şair Məmməd Qədirdir. O, həm də kitaba "Dözüm və üsyanın mücadiləsindən yaranmış şeirlər" başlıqlı gözəl bir ön söz də yazaraq Sabir Nemətovun oxuculara təqdim olunan "Yalanlar içində" adlı sayca ikinci kitabını Xaçmazın, eləcə də bölgənin ədəbi həyatında böyük ədəbi hadisə kimi dəyərləndirir.

"Gülüstan" elmi - ədəbi və "Ulduzlar" ədəbi məclislərinin üzvü, əziz dostum Sabir müəllim bir şair taleyi" yaşayaraq bu günün özündə də şəxsiyyəti ilə yaradıcılığı üstə-üstə düşən şairlərdəndir. Yaşayıb ömür sürdüyü doğma və qədim Nərəcanın əsrarəngiz təbiəti, onun əməkçi adamları, dostları və doğmaları daim şairin diqqətindədir. Məsələn, 60 yaşı münasibətilə gözəl insan Fərzalı müəllimə həsr etdiyi şeirdə yazır :

*Demirəm bu yaşda qocalmısan sən,*
*Deyirəm bu yaşda ucalmısan sən.*
*Torpaqdan, Günəşdən güc almısan sən,*
*Nura bələnibdir sənət aləmin,*
*Var olsun ürəyin, bir də qələmin.*

və yaxud qızı Ləmana:

*Təzə yuva qurub ucub gedirsən,*
*Təzəcə qurduğun o yuvanı sev.*
*Bu evin istisi, odu idin sən,*
*Sənsiz üşüyəcək bu ocaq, bu ev.*
*...Unuda bilmirəm ömrüm uzunu,*
*Dilində səslənən "papa" sözünü.*

və yaxud oğlu Müşfiqə:

*İllər bir - birinin dalınca gəlir,*
*9-u bitirib 10-a keçirsən.*
*Səadət içində gözlərin gülür,*
*Plovun üstündən "Fanta" içirsən.*

Sabir Nemətovun "Yalanlar içində" kitabında toplanan şeirlər müxtəlif illərdə yazılmasına baxmayaraq bu gün də öz poetik aktuallığını itirmir :

*İçib pirə getmə gəl, aç gözünü, bir oyan,*
*Bir belə ki, içirsən, gündə olursan piyan.*
*Qoy adını Andrey, ya Nikolay, ya İvan,*
*Boğazına xaç da tax, lənət olsun xaçına,*
*Kafirə bax, sən Allah, şapka qoyub başına.*

Çox yaxşı haldır ki, şair şeirin əksər növlərində qələmini sınamış və öz ədəbi - bədii imkanı daxilində bunun yaxşı nümunələrini yaratmışdır. Adı çəkilən kitabın yeddi müxtəlif bölməsində şairin 168 şeiri toplanmışdır.

8-ci bölmədə Sabir Nemətov və onun yaradıcılığna verilən rəylər, 9-cu bölmədə isə şairin özünə həsr olunmuş şeirlər verilmişdir.

Mən məqaləmi şair - publisist, "Xəyal" TV-nin sabiq əməkdaşı, "Qızıl qələm" mükafatı laureatı Pirəli Rüklünün rəyi və lap axırda isə şair Böyükağa Ağanın "Gözəl insan" şeiri ilə bitirmək istəyirəm.

"Sabir müəllimin şeirlərindəki sətiraltı mənalar, sorkazmlar fəlsəfi fikri dərinləşdirir, oxucunu düşündürür. Bu da onun poetik aləminin zənginliyindən irəli gəlir. Onun hər bir şeirində duyub düşündüyü həyat həqiqətlərinin ümumiləşmiş obrazları ustalıqla yaradılmışdır. Elə buna görə də onun şeirləri oxucunu özünə çəkir".

**(Pirəli Rüklü)**

Əminik ki, Sabir Nemətovun "Yalanlar içində" şeir toplusu geniş oxucu auditoriyası tərəfindən maraqla qarşılanacaq. Şairə daha böyük poetik üfüqlər fəth etməyi arzulayırıq.



**Şixəmməd Seyidməmmədov,**
**ADPU-nun Quba filialının "Təbiət fənləri və onun tədrisi metodikası" kafedrasının baş müəllimi, A.A.Bakıxanov adına "Gülüstan" elmi - ədəbi məclisinin sədri.**

## Gözəl insan

*Kimi sevdi bəyəndi,*
*Düzə boyun əyəndi,*
*Sözü üzə deyəndi,*
*Gül, çiçəklə tikanlı.*

*Yol kəsər Ərəbzəngi,*
*Onun var öz ahəngi,*
*O məclisin nəhəngi,*
*Əqidəli, vicdanlı.*

*Müəllimdir, dərsi də,*
*Təslim edir tərsi də,*
*Şeytanı, pərisi də,*
*Olur quzu, ifalı.*

*Seçib Mirzə məktəbin,*
*Sevir Ələkbər təbin,*
*İçib Sabirin "həbin",*
*Sadə azərbaycanlı.*

*Dövləti var dəvəsiz,*
*Günü keçməz nəvə,siz*
*Zəvvar olmaz kəbəs,iz*
*Dırnağacan imanlı.*

*Ağa qardaşdı sənə,*
*Davam edir təntən,ə*
*Gəncliyim deyir sən,ə*
*Bu köhnə dəliqanlı.*

**Böyükağa Ağa,**
**şair**

# Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

№ 32 (2306) 20 avqust 2022-ci il

# Kadr islahatı Ağstafanın gələcək uğurlarına hesablanıb

**Respublikamızın ərazi inzibati vahidləri arasında bir bölgə də var. Bu bölgə Ağstafa adlanır. Əgər tarixə nəzər salsaq, onda görərik ki, bu bölgənin adı qədim tarix kitablarında da yer alır və bu ərazi ilə bağlı müxtəlif fikirlər həmin kitablarda yer alıbdır. O ki, qaldı Sovet dönəminə, qeyd etmək yerinə düşər ki, Ağstafa rayonu 1939-cu ildə təşkil olunsa da, 20 il sonra hansısa səbəblərə əsasən rayon statusu ləğv edilmiş və Ağstafanın əraziləri Qazax rayonunun tərkibinə verilmişdi. Bu proses də 31 ildən sonra dayandırılmış və yenidən 1990-cı ildən Ağstafa rayonu bərpa olunmuşdur.**

Rayon ərazisi Azərbaycanın Tovuz və Qazax rayonları kimi Bakı-Tbilisi yolu üzərində yerləşir. Ümumiyyətlə, rayonun ərazisindən keçən Bakı-Tbilis-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Ceyhan neft kəməri bu rayonun iqtisadi həyatında müəyyən müsbət təsirlərə malikdi. Yəni, həmin beynəlxalq kəmərlər rayonun iqtisadi həyatında daha çox isə rayon sakinlərinin iqtisadi imkanlarına öz təsirini göstəribdi. Burada onu da qeyd etmək lazımdır ki, rayon ərazisindən keçən dəmiryol xətti də rayonun sosial iqtisadi həyatına həmişə müsbət təsir göstərməklə həm iş yeri kimi, həm də rayonun sosial mənəvi həyatının yüksəlməsində müsbət arqumentlərdən biridir. Bütün bunların qeyd edilməsi bizə imkan verir ki, 1990-cı ildə yenidən formalaşan Ağstafa rayonunun həm Regionların İnkişafına Dair Dövlət Proqramı çərçivəsində, həm də bütövlükdə Azərbaycan müstəvisində iqtisadi, sosial, maddi, mədəni həyatını yaxından öyrənək.

Bax, bu mənada qeyd etmək lazımdır ki, digər bölgələrimiz kimi, Ağstafa da kənd təsərrüfatı rayonudur. Bu rayonun təbii coğrafi mühiti, relyefi imkan verir ki, burada daha çox kənd təsərrüfatı məhsulu əkilib-becərilsin.

Zaman-zaman Ağstafa ərazisində aparılan arxeoloji qazıntılar da, ümumiyyətlə bu ərazidə tapılan maddi nümunələr də göstərir ki, Ağstafa ərazisində əkinçilik geniş inkişaf etdirilib. Sübut kimi Göyrətəpə, Şomutəpə, Darğalar təpəsi və s. kimi qədim ünvanlarda aparılan qazıntılardan əldə edilmiş tapıntıları göstərmək olar. Məhz bu tapılan maddi sübutlar Ağstafa ərazisinin məskunlaşma tarixi ilə yanaşı, iqtisadi inkişafı barəsində də bilgilər əldə edilməsinə imkan verir. Hətta bu rayon ərazisində yerləşən və Qafqaz albaniyasının maddi nümunələrindən olan Keşiş dağ məbədi də söylənilən fikirlərə obrazlı desək, rəvac verir.




Bu gün Ağstafa rayonunda məskunlaşmış 85 minə yaxın vətəndaşımızın təqribən 63 mini rayonun kəndlərində yerləşiblər. Bu insanların da əsas işi, yəni məşğulluğu, qeyd etdiyimiz kimi kənd təsərrüfatına aiddir. Deməli rayonda fəaliyyət göstərən iş adamlarının, fermerlərin yaratdıqları təsərrüfatlarla yanaşı, fərdi təsərrüfatlarda da çalışan ağstafalılar əsasən dənli bitkilərin, maldavarın, həmçinin bostan məhsullarının becərilməsi, saxlanması və istehsalı ilə məşğul olurlar. Üzümçülüyün, heyvandarlığın, bağçılığın rayonda inkişaf etdirilməsi sakinlərin ailə büdcəsinə göstərdiyi müsbət təsirin bir nümunəsidir. Elə bu səbəbdəndir ki, hər il aparılan müqayisələr sosial rifahın yüksəkliyini göstərir. Qazanılan maddi gəlirlər həm bütövlükdə rayonun, həm də ayrı-ayrı vətəndaşların mənzil-məişət şəraitinin, rayon ərazisindəki kənd və qəsəbənin, eləcə də rayon mərkəzinin abadlaşmasına, müasirləşməsinə təkan verir.

Bu gün Regionların İnkişafına Dair Dövlət Proqramına uyğun olaraq Ağstafa rayonunda da ən əsas vəzifələrdən biri əhalinin işlə təmin edilməsi məsələsidir. Yaradılan yeni iş yerləri iki müsbət məqamı özündə ifadə edir. Onlardan birincisi işlə təmin edilmiş şəxsin sosial rifahının yüksəldilməsi, ikincisi isə bu sosial rifahın ümumi rayon əhalisinin çəkisinə müsbət təsir edir. Bax, bu səbəbdəndir ki, rayonda fəaliyyət göstərən "Ağstafa Aqroservis" MMC, həmçinin, Ağstafa Telekommunikasiya Qovşağının, Ağstafa Qaz İstismarı sahəsinin müasirləşməsi günün tələbləri səviyyəsində fəaliyyət göstərməsi sakinləri demək olar ki, qane edir. Çünki bu ilin göstəricilərinə nəzər salsaq, "Ağstafa" ASC 2142 hektar sahənin məhsulunu toplayarkən, artıq hər hektardan təqribən 34 sentnerdən artıq taxıl əldə etmişdir. Bu da əvvəlki ildəkindən təqribən çoxdur. Deməli, adıçəkilən müəssisənin kollektivi torpağa göstərdikləri yüksək aqrotexniki xidmət nəticəsində uğurlu nəticə əldə edə biliblər. Necə deyərlər, çəkilən zəhmət öz gözəl bəhrəsini veribdir. Təkcə bu nümunənin özünə diqqətlə yanaşanda görmək olur ki, rayon ərazisində fəaliyyət göstərən digər fermerlər və sahibkarlar da kənd təsərrüfatındakı yeniliklərdən, toxum çeşidindən, kimyəvi pereparatlardan vaxtında yararlanmaq imkanına malik olduqları üçün onların əldə etdikləri məhsuldarlıq da sevindiricidir.



Təbii ki, Ağstafa rayonu ərazisində aparılan tikinti abadlıq işləri də bu bölgəyə səfər edən hər kəsin diqqətini özünə çəkir. Xüsusilə, respublika əhəmiyyətli Ağstafa - Böyük Kəsik - Sadıqlı - Gürcüstan avtomobil yolunun və Poylu - Düzqışlaq - Kolayır avtomobil yollarının yüksək keyfiyyətlə tikilməsi həm bu yoldan istifadə edənlərə, həm də bütövlükdə rayonun sosial durumuna öz müsbət təsirini göstərir. Xatırlatmaq yerinə düşər ki, həm rayon mərkəzinin özündə, həm də rayonun kəndlərində küçə və yolların tikintisinə, yenidən qurulmasına ciddi yanaşılır. Təkcə Ağstafa şəhərində bu istiqamətdə görülən işlər rayona səfər edən hər kəsin diqqətini özünə çəkir.

**Respublikamızın bu bölgəsində məktəb, səhiyyə, mədəniyyət obyektlərin tikilməsi, bərpası işləri də planlı şəkildə aparılır. Pandemiya dövrü olmasına baxmayaraq, rayonda fəaliyyət göstərən səhiyyə ocaqlarında Ağstafa sakinlərinə demək olar ki, müasir tibbi avadanlıqların köməkliyi ilə xidmət edilir. Ümumiyyətlə, bu rayonun ərazisində səhiyyənin, təhsilin səviyyəsi diqqət çəkəndir. Apardığımız müşahidələr göstərir ki, bu gün Ağstafa rayonunda infrastrukturun da yenilənməsi istiqamətində müəyyən işlər görülüb. Xüsusilə, rayonda qazlaşdırılma, rabitə sisteminin müasirləşməsi artıq insanların bu məsələlərlə bağlı qayğılarını xeyli azaldıbdı. Azərbaycan Prezidenti cənab İlham Əliyevin bilavasitə tapşırıqları və göstərişləri, eləcə də bu bölgənin inkişafına göstərdiyi qayğı rayon icra hakimiyyəti başçısı və onun komandası tərəfindən yerinə yetirildikcə, Ağstafada həyat səviyyəsi yüksəlir. Deməli, mövcud problemlərin həll edilməsi, öz vəzifəsinin məsuliyyətinin dərk edilməsi, son nəticədə xalqa xidmətin yüksəldilməsinə səbəb olan şərtdir. Bax, elə bu mövqedən çıxış edərək vurğulamaq olar ki, bu gün Ağstafada hələ görməli işlər çoxdur və bu işlərin də görülməsi zaman məsələsi olmaqla yanaşı, həm də işə vicdanla yanaşmaq məsələsidir. Həmin bu şərtlər unudulmasa, onda Ağstafanın da daha gözəl günlərinə sakinlər kimi buraya səfər edənlər də şahid ola biləcəklər.**

**Əbülfət MƏDƏTOĞLU**

**AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ**

# UNUDULMAZ SAĞLIQ...



***Barat Vüsal***

**Hər səhər üfüqdən doğan Günəşdimi ki?!**
**Bəlkə hə!**
**Bəlkə yox!?**
**O içi nur dolu bir qızıl Camdı!?**
**Kainat hər dəfə yeni bir sağlıq deyir və o camı başına çəkir.**
**Üstümüzə günəşin şəfəqləridirmi yağan?**
**Xeyr! O Qızıl Camdan tökülən damcılardı?!**
**İçəni məst etdiyi kimi, içməmişdən bizi də bihuş edir...**

***

Bu şairanə giriş sözünü şairanə bir xatiratla davam etdirmək istəyirəm.

1994-cü ilin bir payız günü indiki kimi yaxşı yadımdadır. Xalq şairi Hüseyn Arifin 70 illik yubileyi ilə bağlı olaraq Qazaxda və Ağstafada keçirilən silsilə tədbirlərdə mən də iştirak edirdim.

İştirakçılar arasında Qazax Xeyriyyə cəmiyyətinin xəttiylə gəlmiş görkəmli şair və yazıçılar da vardı. Tədbirlərdən sonra rayon rəhbərliyinin təşkil etdiyi ziyafətdə deyilən sağlıqlar, qaldırılan badələr bir-birini əvəz edirdi.

O şair bu şairin, bu şair o şairin sağlığına badə qaldırırdı.

Məclisdə Davud Nəsib də vardı.

Növbəti sağlıq deyildi, yenə badələr doldu, boşaldı.

Bir az keçəndən sonra əlində yeni dolu badə Davud Nəsib ayağa qalxdı və dedi:

-Xahiş edirəm, badələrinizi doldurun və ayağa qalxın!

Məclisdəkilərin çoxusu təccübləndi, hamının baxışında maraq dolu bir ifadə yarandı, bir sual dondu: "Nədən?"

Şairin ötkəm və qürurlu səsi yüksəldi:

-İçək bu bədələri torpağın sağlığına! Onun bu sözlərindən (yox, "Əmr"indən) sonra hamı ayağa qalxdı və hər kəs badəsini başına çəkdi.

Sonralar əziz şairimizin kitablarında "Torpaq" şeirini oxuyanda duydum ki, belə şeiri ancaq o, yaza bilərdi, belə sözü ancaq daha çox o, deyə bilərdi:

*Qəlbimdə dağların, düzlərin ətri,*
*Sel olub dağlardan aşıb-daşıram.*
*Mən elə sevirəm, torpaqdan ötrü,*
*Torpağa dönürəm, torpaqlaşıram!*

2-ci bir xatirəni də burda xatırlatmasam məncə Davud Nəsibin sənətkar kimi portretinin tamlığına xələl gəlmiş olardı.

Ancaq bu xatirat qələm dostum , AYB üzvü, çox dəyərli müəllim-ziyalı-şair ömrü yaşamış ( və yaşayan!) Telman Kürsoya məxsusdur. O danışır ki, "Davud Nəsib "Ədəbiyyat və incəsənət" qəzetində poeziya şöbəsinin müdiri idi. Qəbulunda oldum. Təqdim etdiyim şeirlərdən "Yanır"ı çap etməyə götürdü.

-Çox sağ olun!- deyib çıxmaq istəyəndə dedi:

-Dayan, bir yerdə gedərik.

Söhbət edə-edə endik Nərimanov prospektinə. Burada ayrılmaq üçün ona əl uzatdım, əlimi buraxmayıb dedi:-A Zalım, şeirin məni yandırıb, bizə gedirik.

Evində ordan-burdan sual verib onu qane edən cavabları aldıqca: -Əla!-deyirdi. Ayrılanda karobkada nəsə verdi:

-Məndən hədiyyə!

Evdə baxdım ki, çəhrayı rəngli bir köynəkdir. Altı il sonra maşın qəzasında həlak olanda qəhərlənib bu "Köynək" şeirini yazdım:

*Verdiyin köynəyi sevindiyimdən*
*Tez-tez bayramlarda, toyda geyindim.*
*Maşın qəzasına sən düşən gündən*
*Onu heç yasa da geymirəm indi.*

*Qaralı qalıbdı bizdə köynəyin,*
*Sönmüş bir ocaqdan qalan kömürtək.*
*Nə dost qaytarandı onu geyməyim,*
*Nə də geyinsəm də isinməz ürək.*

*Mən sənə həsrətəm, köynək -əlimə,*
*Bir həsrət qar oldu şəvə saçımda.*
*Məhkum eyləyərək onu ölümə,*
*Asmışam şkafda "Dar ağacı"ndan.*

*Ot basmış yolları qayıt tapda, əz,*
*Məni fikirlərin qopar əlindən.*
*Heç kəs özün kimi qurtara bilməz,*
*Qayıt köynəyini qurtar ölümdən!..."*

Bu şeiri oxuya-oxuya düşünürəm: Əgər unudulmaz şairimizin qarşısında iki yoldan birini seçmək tələbi qoyulsaydı, deyilsəydi ki: "Ya özün ya köynək! Hansını qurtarmaq istərsən ölümün əlindən?!"

Mən əminəm və inanıram ki, əziz şairimiz "Köynəyi" deyərdi...

Çünki Davud Nəsib özünün yox, sözünün, əməlinin, eşqinin uzun ömürlü olması üçün yaşayırdı və yaradırdı! Öz ömrünün yarımçıq qalmasından qorxmurdu, söz ömrünün yarımçıq qalacağından qorxurdu!

Elə bir şeir-sənət, söz ocağı çatmışdı ki, heç vaxt sönməyəcəyini bilirdi. Əbədiyyətə, sənətə, millətə öz ömrü puç olsa da, yarımçıq qalsa da, eşqinin bütövlüyünə inananlar belə olurlar və bizi də inandırırlar ki:

*Sevən kəsin yüzündə də,*
*Bir çıraqdır- gözü sönmür.*
*Kim ki, yanıb el yolunda.*
*Heç bir zaman özü sönmür!*

Və belə insan, belə şair, belə sənətkar Davud Nəsibin özünün dediyi kimi, halal ocaq kimidir, "Kül altında közü sönmür!"

Davud Nəsib kül altda sönməyən köz ömrünü yaşayan şairlərimizdəndi. O da ona görə yaşayırdı ki, qısa da olsa, təki ömrü şair ömrü olsun! Yazırdı ki, "Nəyimə gərəkdir səksən il , yüz il, bir şair ömrünü yaşaya bilsəm!"

O, şair ömrü yaşadı və yaşayır. Onun ən ibratamiz şeirlərindən biri "Ana və oğul" şeiridir. Məzmunu belədir ki, oğul gecə səhərəcən yatmır. Oyaq qalır ki, təzə bir şeir, bir əsər yazsın.

Ana ona görə yata bilmir ki, oğlu yazdığını yazıb qurtarsaydı çimir edərdi bir az. Lakin gecə uzanmaqdadır. Şair də, ana da oyaqdı hələ...

Şair şeir istəyir,

Ana oğul istəyir!

Necə deyərlər, hər ikisi yuxusuna haram qatıb. Və hər ikisi haqlıdır!

***

İnsan nə qədər sevirsə, o qədər yaşayır və insan nə qədər sevilirsə həm də o qədərdi ömrü! Bu haqda daha doğrusunu D.Nəsib deyib: "Məhəbbət ömrüdür- insanın ömrü!" O, elə bil nə yazıbsa and içirmiş kimi yazıb. Böyüklüyə, ucalığa, urfani sevgiyə baxın:

*Arxamca yalandan söz deyən olsa,*
*Bir şeir yazaram, bağışlayaram.*
*Amma bununla belə sanki and içir ki:*
*Barışa bilmərəm toxunan olsa,*
*Əgər Vətənimə, məhəbbətimə!*

Davud Nəsibin anasının adı İnsan idi. İnsan ananı yaxşı tanıyırdı anam. Evimizdə ondan tez-tez danışardı. Adı da insandı, özü də İnsan! İnsanlığı da tamam başqa bir aləm. Anam İnsan ananı görən kimi o dəqiqə tanımışdı, sevmişdi. İnsan ananı da insanlığı tanıtmışdı anama. Onları bir-birinə dost etmişdi, yaxın etmişdi, əziz etmişdi. Anam ondan danışanda qürurlanırdı, fərəhlənirdi, ürəyi açılırdı, ürəyimizi açırdı.

Davud Nəsib anaya, ataya, nənəyə, babaya xalqa, yurda-beşiyə, evə-eşiyə dərin köklərlə bağlı olduğu üçün haqqı vardı ki, desin:

*Bu yurdun qədrini bilməsəm əgər,*
*Bir xalqın sözünü deyə bilmərəm!*

Əslində onun əzizlərinə (ata-anası, baba-nənəsinə) ünvanladığı şeirlər bütövlükdə xalqımıza, milli dəyərlərimizə ünvanlanmış əsərlərdi. Ürəyindəki məhəbbət hamı üçündü.

O, təsadüfi olaraq yazmırdı ki:

*Açsan ürəyimi bir kitab kimi,*
*Hamını görərsən sətirlərində.*

Davud Nəsibin yaradıcılığını izlədikcə, oxuduqca adam hiss edir ki, o, təkcə şair deyildir. Həm də Sözün, Ruhun, Torpağın, ulularımızın qəbri başında dayanmış bir keşikçidir. Üzünü nənəsinə tutub dedikləri bütün ərvahımıza üz tutub dedikləridir:

*Yatmısan körpətək nənə, beşikdə,*
*Qorxuram, oyatsam xətrinə dəyəm,*
*Saatla dururlar Fəxri keşikdə,*
*Mən sənin əbədi keşiyindəyəm!*

Açıq danışaq. Başqaları hardasa hansısa böyük bir adamın Fəxri keşiyində dayanır. Davud Nəsib nənəsinin Fəxri keşiyindədir! Həmişəlik!

Davud Nəsibin gözündə nənə yalnız nəvəsinin boyunu oxşayan, şirin nağıllar danışan, bayatılar deyən bir sima deyil, qəhrəmandır, əsl mənada pəhlivandır!

O, doğru söyləyir ki:

*Nənə cəhrəsinin qulpu ağırdır,*
*Kimin gücü çatıb fırladar onu?*

***

Davud Nəsib niyə şair olmuşdu?

Köksündə hər yaşda uşaq ürəyi döyündüyünə görə! Elə bil, hər dəfə qəbrindən baş qaldırır, bizlərə bir həqiqəti, əslində ölməzliyin və əbədiyyətin nə olduğunu xatırlatmaq üçün xatırlayır ki:

*Gör nə vaxtdır ayrılmışam,*
*Sözsüz qalmışam,*
*Ürək yenə kövrək-kövrək*
*dolan ürəkdir.*
*Deməyin ki, böyümüşəm,*
*Şair olmuşam,*
*Dəyişməyib, uşaqlıqdan*
*qalan ürəkdir.*

İnanıram ki, bu ürəyə-uşaq ürəyinə, şair ürəyinə görə ölüm ona yaxın düşə bilməyib. Cismən öldürsə də, mənən öldürə bilməyib onu!



Davud Nəsibin bütün yaradıcılığı Qazaxda bir vaxt əkdiyi çinara bənzəyir. Uşaq vaxtı əkibmiş həmin çinarı, şair.

Hər dəfə onu görəndə, kölgəsinə baxanda sevinirmiş, öyünürmüş, deyirmiş.

*O məndən tez böyüyüb,*
*Kölgə saldı torpağa!*

D.Nəsibin yazdıqlarının da, (istər şeir kitabları olsun, istər nəsr əsərləri) kölgəsi var. O kölgədən hamıya pay düşür indi.

Bu kölgənin özündən də, elə şairin hər sözündən də müasirlik, aktuallıq, böyük vətəndaşlıq mövqeyi duyulur.

Elə bil 44 günlük Vətən müharibəsində D.Nəsib də cəbhədəymiş. Yenə də gördüklərindən, duyduqlarından, sevdiklərindən yazırmış. Qarabağın azadlığı uğrunda gedən döyüşlərdə əsgərlərimizlə baş-başa verib, onları şəhidliyin ən müqəddəs bir iş olduğuna inandıra bilib, yazıb:

*Bir kişi gücü var, bir ər qolunda,*
*Torpaq Vətən olmur bilmirəm, nəsə...*

*Əgər övladları onun yolunda*
*Torpağa dönməsə, daşa dönməsə!*

***

Davud Nəsib böyük inam hissi ilə bəyan edirdi ki:

*Ürəyində vətən varsa,*
*Güc olacaq qollarında.*
*Hara getsən, hara varsan,*
*Şam yanacaq yollarında!*

Davud Nəsib bir nasir kimi də öz sözünü demişdir. "Cavanşir" romanında. "Tarixin tarixi olmayanda əfsanələşir" deyən D.Nəsib Alban hökümdarı haqda yazdığı əsərlə tariximizin üzərindən əfsanə örtüyünü götürdü. Əsərdə yadda qalan səhnələr çoxdur.

Məsələn əsərdən məlum olur ki, Alban katalikosu Bakur öz vəsiyyətinə əsasən əl ayağı zəncirli halda ayaq üstdə basdırılıb torpağa. (Bu səhnə həm də rəmzi məna daşıyır)

...Cavanşiri sui qəsdlə öldürən erməni qatilini Azıx mağarasının ağzında ayı parçalayıb, öldürüb. O, qaçıb həmin mağarada gizlənmək istəyəndə. Bu da təsadüfü deyil.

Deməkˌdüşməndən yeri gələndə dağ da, daş da, torpaq da, mağara da intiqam alırmış!

...Ərəblərlə Qadisiyyə döyüşündə qalib gələn Cavanşir geri dönərkən görüb ki, bərdəni müttəfiq saydığı Sasanilər yerlə yeksan ediblər.

***

Davud Nəsib xalqının, ata-anasının mənsub olduğu nəslin kökü üsttə ucaldığından yüksək mədəniyyət və tərbiyyə sahibi ola bilmişdir. Bir nadan utanmadan ona deyəndə ki, "Ata tərbiyyəsi görməmisən", onda şair bundan bərk qəzəblənmiş böyük vətən müharibəsində həlak olmuş atasını xatırlayaraq yazmışdı:

*Qanımdan gəlibdi mənim tərbiyəm,*
*Yazdığım şeirdir mənim tərbiyəm.*
*Xalqa sədaqətdir mənim tərbiyəm,*
*Yurda məhəbbətdir mənim tərbiyəm.*

Şəhriyar deyirdi ki, mən ona görə şair oldum ki, insanları düşündürə bilim. Davud Nəsib də həmin arzu-amalla şeir yazırmış-insanları düşündürmək üçün! Deyirmiş, deməyi özünə borc bilirmiş:

*İllərlə yaşamaq nəyimə lazım,*
*Həyatda hər kəsi düşündürməsəm!*

Davud Nəsibin şeirlərində aparıcı obrazlar sırasında dağ, dağ çayı çinar, At obrazları da kifayət qədər yer alıb. Atı qardaşı Çinarı ata kölgəsi, dağı arxası, dağ çayını laylası sanıb. "Dağlara söykənib kürəyim mənim, İlk büllür laylamı dağ çayı çalıb." deməklə övlad minnətdarlığını ifadə edib.

D.Nəsib bu minnətdarlıqla işini bitmiş hesab etmirdi. Təbiətə öz borcunu daha əyani şəkildə ödəmək istəyirdi.

Yazdıqlarının bir qismini dağlara-daşlara hədiyyə əvəzinə göndərməyə çalışırdı. Yazırdı ki:

*Baxıram hədiyyəm mənim nə olar?*
*Dağlara sözümü aparın mənim!*

O, özünü də dağlara hədiyyə etmək istəyirdi. Qorxurdu bizim dağlardan ayrı düşməyə. Özünün də dağlara aparılması arzusuyla yaşayırdı.

D.Nəsibi bu gün məzarı başında durub axtaranlar yanılırlar. Davudun özü də, sözü də heç vaxt dağlardan uzaq düşməyib və düşməyəcək də! Özü də, sözü də dağlardadır!

Dağlarladır!

Bizim dağlarla! Bizim dağlarda! Kəpəzdə, Qoşqarda Şah dağında, Səhənddə, Savalanda!

Davud Nəsibin ən maraqlı və düşündürücü şeirlərindən biri də Nazim Hikmətə həsr etdiyi "Nazimim var" adlı şeiridir. Şeir belə başlayır: " Kitabı əlimdə, əlimdə -Nazim!"

Şeir belə qurtarır:

*Qəbrinin üstünə getmirəm, qəbri,*
*Qorxuram, Nazimi əlimdən ala!*

Davud Nəsibin poeziyası haqda düşünəndə istəristəməz ağlımdan keçdi ki, o şeiri ömrünün 61-ci baharında (elə Nazim yaşında!) dünyanı vaxtsız tərk etmiş, bu il 80 yaşı tamam olan şairimizə də aid etsəm yəqin ki, hər iki şairin ruhu məndən inciməz, daha da şad olar!

***

Axşamdan xeyli keçmişdi.

Evdəydim.

Davud Nəsib haqqında məqalə üzərində işləyirdim. Bu vaxt telefonum səsləndi. Götürdüm. Məlum oldu ki, dostlarımdan biridir. Dedi ki, "Ayə, qardaş, gözəl bir məclisdəyik. Səni tanıyan və sevən dostlarla birgə. Növbəti sağlığı sənin şərəfinə qaldırmaq istəyirik."

Dedim; çox sağ olun! Amma sizə deyəcəyim vacib bir sözüm var, -deyib vaxtilə Davud Nəsibin Ağstafadakı ziyafətdə etdiyi təklifi xatırlatdım.

Səs(lər) gəldi:

-Başa düşdük!

-Artıq ayaq üstdəyik!

-Və içirik torpağın (torpağımızın) sağlığına!

...Xəyalımın dərinliklərindən Davud Nəsibin qürur dolu səsi ucaldı:

-Sağ olun! Daha otura bilərsiniz!

Anladım ki, insan özü unudulmaz olanda dediyi sağlıq(lar)da, sözlər də, yazdığı əsərlər də, həyatda qoyub getdiyi izlər də unudulmaz olurmuş.

Onu da başa düşdüm ki, bu sağlıq həm də "İçək Davud Nəsibin şərəfinə!" demək idi...

D.Nəsibin özü atasız qalsa da şeirləri, sözləri heç vaxt atasız qalmamışdı! D.Nəsibin şeirləri atalı və analı böyümüşdülər.

D.Nəsib həmişə ilk olaraq qaldırdığı badəni Vətənin, Torpağın, Atanın sağlığına qaldırmışdı. "Ata sağlığı" şeirində oxuyuruq: "Şəklinin önündə ayağa qalxdım!" Eşqə baxın, ehtirama baxın! Başqaları heç öz ataları önündə yerindən tərpənməyəndə D.Nəsib ata şəkli önündə ayağa qalxırmış. O, atasının şəxsində atalara üz tutub deyirdi ki: "Sizi çağırıram, sizi, bu günə, hələ çoxlarının qəlbi dayazdır, bir namərd aldatdı, aldadanmazdı, sizin gözünüzlə boylandı, baxdı."

Adətən körpələr ana laylası ilə ovunur, böyüyür. Kim bilmir ki, ən gözəl layla ana laylasıdı. D.Nəsibi ata laylası ovundurub böyüdübmüş. Özü bunu belə mənalandırır:

*Mən ölsəm qəbrim üsttə*
*Salın yada laylamı.*
*Çalın mənim mahnımı,*
*Çalın, ata laylamı!*

Bəlkə inanaq bu möcüzəyə?
Davudun ata laylası ilə oyanacağına?!

***P.S.*** **Hər Səhər- Kainatın Günəşi təzədən qaldırıb başına çəkmək istədiyi nur dolu Camdı, badədi.**

**Hər Axşam isə -səhərəcən doldurmaq istədiyi Cam deyilmi?!**

# Azər Paşa Nemətov: "Həyatda rejissorluqdan maraqlı heç nə yoxdur"

*Bu dəfəki müsahibim 75 yaşını tamamlayan Azərbaycan teatr rejissoru, Azərbaycan Respublikasının xalq artisti, Teatr Xadimləri İttifaqının İdarə Heyətinin sədri, o cümlədən də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrını bədii rəhbəri-baş rejissoru Azər Paşa Nemətovdur. Onunla görüşümüz də məhz elə onu sənətinə bağlayan məkanda - Akademik Milli Dram Teatrında baş tutdu. Müsahibəmizi diqqətinizə çatdırıram.*

**- Xoş gördük, Azərpaşa müəllim. İlk sualı belə ünvanlayardım ki, Azər, Azərpaşa, Azər Paşa Nemət Nə cür təqdimatı sevirsiniz? Niyə məhz Azər Paşa Nemət?**

- Xoş gəlmisiniz. Teatrşünaslar məndən xəbərsiz adımı Azər Paşa Nemət kimi qələmə alıblar. Hətta kitablarda, yazılarda nəşr olunub, televiziya kanallarında, radio verilişlərində adımı bu şəkildə səsləndirirlər. Lakin Azərpaşa adını atam mən doğularkən qoyub. Hərdən deyirəm həm Azərəm - odam, həm odun paşasıyam, həm də neməti, bərəkətiyəm. Sovet vaxtından Azər Paşa demək olmazdı, müəyyən qadağalar var idi. Düşünürəm mki, adım elə Allahın neməti sayılır.

**- Bu sənət sizə nəyi öyrətdi?**

- Peşəni *(gülümsəyir).* Daha dəqiq desəm peşəkar olmağı... Bu sənəti sevdiyim üçün gəlmişəm. Ailədə əmim Hacıağa Nemətov bəstəkar olduğu üçün mənim də bəstəkar olmağımı istəyirdilər. O, Üzeyir Hacıbəyov kimi dahi sənətkarın tələbəsi olub, Qara Qarayevlə bir sinifdə oxuyub. Onunla həm də çox yaxın dost idilər. Fikrət Əmirov, Cahangir Cahangirov kimi sənətkarlar da onun yaxın dostlarından idi. Üzeyir Hacıbəyovun çox sevdiyi tələbəsi idi. Qara Qarayev vaxtilə mənə demişdi ki, sən bəstəkar olsaydın, çox maraqlı bəstəkar olardın, əmin sağ olsaydı o bizdən də maraqlı bəstəkar idi. Təəssüf ki, əmim 1941 - 1945 - ci illərdə dünyasını dəyişib. Əmim sözün əsl mənasında həm insan kimi, həm bəstəkar kimi çox maraqlı insan idi. Elə bu səbəbdən də, atamgil həmişə onun yolunu davam etdirməyimi arzulayırdı. Bülbül adına məktəbə qəbul olmuşdum , orada oxuyurdum. Amma sonra ilk dəfə teatra gedəndə teatr mənim bütün düşüncələrimi dəyişdi.

**- Atanız Zəfər Nemətovun davamçısı olmaq istədiniz?**

- Davamçısı olmağı düşünmürdüm açığı. Amma onun kimi olmağı çox arzulayırdım. Zaman keçdi və mən sənədlərimi rejissor sənəti üzrə verdim. Lakin ailəm buna razı deyildi. Amma mən universitetə daxil oldum və uğurlu bitirdim. Elə o gündən də problemlərim başladı...

**- Nəyi nəzərdə tutursunuz Azər Paşa müəllim?**

- Bilmirəm paxıllıqdanmı, ya nədənsə məni bəyənmirdilər. İlk başdan çətinliklərim çox olurdu və hətta mən o vaxt Azərbaycandan getdim ki, bu sənəti davam etdirim. Əgər layiqəmsə qalım, deyiləmsə çıxım. Elə oldu ki, indiki Sank - Peterburq şəhərinə getdim və orada məni bəyənib saxladılar. Orada bir müddət yaşadım və uğurlar qazandım. Hətta orada ən cavan rejissorlardan idim. 30 yaşında bu qədər nailiyyət qazanmaq da hər adama nəsib deyildi. Mükafatlarım, xaricə dəvətlərim çox olurdu. O vaxtki dövr üçün çox çətin idi. Demək olar ki, yer kürəsini bütöv gəzmişəm. Amerika, İngiltərə, Fransa, Yunanıstan və digər ölkələrdə olmuşam.

**- Bəs maraqlıdır, Azər Paşa müəllim bu sənətə gəlməklə nələri itirdi, nələrə yox demək məcburiyyətində qaldı?**

- Elə ilk növbədə bəstəkar olmağıma. Hərdən düşünəndə görürəm ki, nə yaxşı ki də bu sənəti seçmişəm. Həyatda rejissorluqdan maraqlı heç nə yoxdur.

Hər bir sahə ilə istədiyin qədər məşğul ola bilərsən nəyinsə xatirinə, amma teatr canlı sənətdir, qədimdir, 3500 ildən artıqdır ki, mövcuddur və yaşayır, texnalogiyalar inkişaf etdi və bu sənətdən də yan keçmədi. Kino, televiziya, onlayn teatrlar da yarandı. Lakin teatr elə teatrdır.

**- Canlı sənətdə çalışan Azər Paşa Nemətin ruhuna nə toxuna bilər?**

- Ruha ancaq yaradan toxuna bilər. adımdan da bəlli olduğu kimi möhkəm və iradəli biriyəm. sındırmaq istəyənlər çox olub, lakin bacarmayıblar. Sənətimin yolu ilə getmişəm və bu barədə də özümü sözün əsl mənasında xoşbəxt hiss edirəm. Ən ağır mübarizələrdən alnı açıq, üzü ağ çıxmışam.

**- Hazırda 75 yaşınıza qədəm qoyursunuz. Bəs dönüb geri boylananda, düşünürsünüz ki, arzuladığınız mövqedəsiniz?**

- Mən dünyanın bir çox ölkələrində hələ gənmc yaşlarımdan məşhurluğu qazanmışam. 25 - 26 yaşından etibarən artıq yer kürəsinin o biri tərəfində də tanınırdım. Arzum var idi ki, Asiya, Hindistan və Yaponiyada olum, orada tanınım, bu qismət olmayıb. Amma Çinə dəfələrlə dəvət almışam. Bəzi ölkələrə maddiyyat baxımdan çətinlik olduğu üçün gedə bilməmişəm. Bu hamısına



şamil edilmir. Çünki əksəriyyəti müqavilə verirdi, şərait yaradırdı. Hətta orada tam şəraitlə təmin edilmə üçün vəd verilirdi. Mən vətəndən kənarda yaşaya bilmərəm. Azərbaycan mənim üçün daha doğmadır. Bu dil, bu danışıq, bu mehribanlıq, birlik mənim üçün ötə bir hissdir. Ailədən gəlir bu hiss mənə. çünki ailəm də vətənpərvər hissdə olan insanlar olub.

**- Patriot olan Azər Paşa Nemətovun dəyərləri nələrdir?**

- Vətənimə, xalqıma, dövlətimə sadiqliyim. Mən azad bir ölkənin azad vətəndaşıyam. Həyatda ən böyük arzum yerinə yetdi. Ermənistan kimi alçaq bir ölkə ilə qonşuluq etmək çox çətindir. İndinin özündə belə mənə bir işarə bəs edər ki, o düşmənləri dişimlə didərəm. Ali baş komandanımız, cənab prezidentimiz İlham Əliyev daima var olsun ki, onun düşüncəsi, ağıllı siyasəti, strategiyası sayəsində biz Qarabağımızı düşmənlərdən azad etdik. Həqiqətən də çox dəyərli bir şəxsiyyətdir mənim üçün. O bizə Qarabağı qaytardı və bu tarixdə böyük bir hadisədir. Mən yaşımı hiss eləmirəm. bu cür qələbədən sonra daha çox yaşamaq, qürurlanmaq, xalqım üçün yaratmaq istəyirəm.

**- Müharibədən danışmışkən, biz elə həmin dövrdə pandemiya dönəmindən də keçdik, bu hadisələr teatrda nə kimi izlər buraxdı?**

- Mədəniyyətə, incəsənətə, zavodlarımıza, fabriklərimizə, eləcə də ölkə yaşayışına zərbə vurdu. "Vətən oğulları" deyib bütün vəziyyətdən alnı açıq çıxdıq. Sonuncu dəfə bu ilin 28 May Respublika günündə yeni bir tamaşanın primyerasını etdik - "Zəfər yolu". Bu çox möhtəşəm bir tamaşa oldu. Və biz bu bayramı çox gözəl qeyd etdik. Əsas primyerası sentyabr ayında olacaq inşallah.

Biz may ayında dörd tamaşa ilə səhnəyə çıxdıq. Sentyabr ayında mövsümü məhz elə bu tamaşa ilə açacağıq.

**- Tamaşaçılar hansı formada tamaşalar gözləyir?**

- Yaxşı tamaşalar olsun, tamaşaçı mütləq baxacaq.

**- Bəs sizin rejissor olaraq teatrdan gözləntiləriniz nədir?**

- Düşünürəm ki, istər yaşlı, istər cavan olsun yaxşı aktyolara hər zaman ehtiyac var. Və onların hər zaman maddi sıxıntıları olub. Cənab prezidentimiz sağ olsun ki, bizim sənət adamlarını diqqətdən kənarda saxlamır. Təkcə aktyorlar deyil, o cümlədən texniki heyətimiz də var. Bu kadrların savadını teatr yetişdirir. Onlara da şərait lazımdır. İndiki əmək haqqılara baxsaq, görərik ki, bu maaşla ev almaq mümkün deyil. Xalq artisti olurlar və ondan sonra da müəyyən problemlərlə qarşılaşırlar. Düşünürəm ki, Azərbaycan sənətinə xidmət göstərənlər imkansız şəraitdə yaşamamalıdır. Cavan yaşlarından onlara şərait yaradılmalıdır. Düşünürəm ki, zamanla hər biri olacaq. Necə ki, mənfur düşmənlərimizi boynu bükük hala gətirib dəmir yumruq kimi ölkə başçımızın ətrafında birləşib Qarabağımızı geri qaytara bildik, qalan problemlər də zamanla öz həlliniu tapacaq.

**- Elə gənc nəsildən danışdınız, vaxtilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində müəllim olaraq çalışmısınız. Gənclərdə bu sənətə maraq varmı?**

- Təbii ki, təsadüfi insanlar da olur. Amma bütövlükdə götürsək, maraqları olmasaydı universitet bağlanardı. İstənilən halda istedad hər zaman irəli çıxacaq.

**- Bir az öncə müasir texnologiyalardan söz açdınız. Bu dövrə tamaşaçılar aktyor oyununa inana bilirmi?**

- Bu sənət o qədər gözəl, təbii sənətdir ki, inanmasalar tamaşanın yarısından zalı tərk edərlər. şükürlər olsun ki, bizim tearrımızda tamaşaçı qıtlığı yoxdur. Hətta daimi tamaşaçılarımız var. Bu sənət dünyada sevilir.

**- Sizin zənninizcə göstərmək, yoxsa yaşatmaq?**

- Hərənin öz üslubu var. Hər birinin öz yeri var. Biz də onlardan biriyik.

**- Önümüzdəki mövsümdə teatrdan nə yenilik gözləmək olar?**

- Ola bilər ki, son məqama kimi yeniliklər olsun. Buna görə indidən bir şeyə deyə bilmərəm. amma yeni tamaşalarımız repertuarı bəzəyəcək.

**- Bəs 75 - dən gözləntiləriniz nələrdir?**

- Can sağlığı. Ötən il ağır əməliyyat keçirdim və bu gün ayaq üstə dayana bilirəmsə, şükürlər olsun. Can sağlığı olarsa qalanları düzələr. Bir də ən böyük arzum dığaların köklərinin biryolluq kəsilməyidir. O da inşallah ki, kəsiləcək.

Sonda redaksiyamız adından sizə uzun ömür, can sağlığı arzu edirik. Uğurlarınız hər zaman bol olsun.

AD GÜNÜNÜZ MÜBARƏK!

**Söhbətləşdi:**
**Şəlalə Camal**
**(AJB-nin üzvü)**

## *Bakı kəndlərində narkomaniya əleyhinə tamaşa oynanılır*



**Narkomaniya fəlakətinə qarşı dövlətimizin və cəmiyyətin apardığı mübarizəyə dəstək vermək məqsədi ilə Səhnə teatrı " Qaranlıqdan işığa" adlı tamaşa hazırlamışdır.**

Həmin tamaşa ilk olaraq 16 avqust tarixində Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Mərdəkan Mədəniyyət Sarayında oynanılmışdır.

Tamaşadan əvvəl həkim-narkoloq Asif Kəngərli " Narkomaniya, alkoqolizm və tabakomaniyanın fəsadları" mövzusunda geniş çıxış etmişdir.

Daha sonra " Qaranlıqdan işığa" tamaşası tamaşaçılara göstərilmişdir. Tamaşa narkomaniyaya aludə olmuş gəncin keçirdiyi iztirablardan, yaşadığı acınacaqlı həyatdan və ailəsinə gətirdiyi faciələrdən bəhs edir.

Tamaşanın müəllifi Pakizə Hüseynova , quruluşçu rejissoru Mirzə Ağa Mirzəyevdir. Tamaşada aktyorlar Ramil Məmmədov, Anar Həsənzadə , Zülfiyyə Eldarqızı, Mahir Mirişli, Nazlı Quliyeva, Ağəli Kərimzadə, Rəbbilə Ələkbərzadə və Xaliq Rza iştirak edirlər.

Tamaşanı izləyən uşaqlar, yeniyetmələr, kənd ziyalılıarı və ümumən Mərdəkan teatrsevərləri aktyorları alqışlarla qarşılamışlar.

" Qaranlıqdan işığa" tamaşası 20 avqust tarixində Şüvəlan Qəsəbə Mədəniyyət Evində, 25 avqustda isə Əmircan Qəsəbə Mədəniyyət Evində oynanılacaqdır. Tamaşanın Bakı kəndlərində o cümlədən bölgələrimizdə nümayişi nəzərdə tutulur.

**Eminquey**

## *Uşaqlara boşanma qərarı necə izah olunmalıdır?*

**Hər birimizin ruhunda bir uşaq gizlənib. Uşaqlar gələcəyimiz olmaqıa bərabər həm də çox həssasdırlar. Bu üzdən də həmişə uşaqlara qarşı diqqətli olmalıyıq. Bəzən bəzi ailə münasibətləri tamamilə pozulur və boşanma ilə nəticələnir. Ata - ananın boşanma qərarı uşağın həyatına əhəmiyyətli təsir göstərir. Uşaqlara əsl təsir edənin boşanma deyil, valideynlərin prosesi idarə etmə münasibəti olduğunu bildirən Mütəxəssis Kliniki Psixoloq Elvin Akı Konuk, qərar açıqlanmadan əvvəl ilkin hazırlıqların görülməsinin və ortaq dildən istifadə etməyin daha sağlam olacağını bildirir. Mütəxəssis Klinik Psixoloq Elvin AKİ Konuk, uşaqlara açıqlama verərkən yaş xüsusiyyətlərinin nəzərə alınması, uşağın boşanma prosesində tərəf tutmağa məcbur edilməməsi, müzakirələrdə vasitəçi kimi istifadə edilməməsi tövsiyə edilir.**

Bu barədə mütəxəssis Kliniki Psixoloq Elvin Akı Konuk boşanma qərarını uşaqlara necə izah etmələri ilə bağlı məsləhətlərini valideynlərə bölüşüb.

### *Boşanma qərarı uşağa doğru izah edilməlidir*

Həyat yoldaşlarının verdiyi boşanma qərarının uşağın həyatına ciddi təsir göstərə biləcəyini ifadə edən Mütəxəssis Kliniki Psixoloq Elvin Akı Konuk, "Bu məsələnin uşağa ötürülməsi vacibdir. sağlam bir yol və prosesi yaxşı idarə etmək. Deyə bilərik ki, boşanma prosesində uşağın yaşadığı problemlərin səbəbləri birbaşa boşanmanın özü ilə deyil, valideynlərin bu prosesə yanaşma tərzi, prosesi idarə etməyə münasibəti və buna görə də uşağın yaşadıqları ilə bağlıdır. boşanma prosesi zamanı.

### *Boşanma bəzən müsbət nəticələr verə bilər*

Kliniki Psixoloq Elvin Akı Konuk, valideynləri ayrı olan hər uşağın travmatik bir proses içində olacağını düşünməyin doğru olmadığını ifadə edərək, "Çünki boşanma təkcə mənfi nəticələrə səbəb olmur, bəzən müsbət nəticələr də verə bilir. Ailədə və evdə münaqişənin aradan qaldırılması, iki valideynlə ayrı-ayrılıqda daha yaxşı münasibətlərin qurulması, ailədə sabitliyin təmin edilməsi də uşağın rifahına müsbət təsir göstərir. Bədbəxtliyin, dava-dalaşın və



ya zorakılığın hökm sürdüyü ailədə böyüyən uşaqlar həm indiki prosesdə, həm də gələcək həyatlarında daha mənfi bir prosesə girəcəklər. Mütəxəssis Kliniki Psixoloq Elvin Akı Konuk boşanmanın valideynlər tərəfindən birlikdə izah edilməli bir proses olduğunu vurğulayaraq sözlərini belə davam etdirib:

"Valideynlər bu qərarı açıqlamamışdan əvvəl uşaqla nə və necə danışacaqları ilə bağlı ilkin hazırlıq görsələr, ortaq dil müəyyənləşdirsələr, sağlam olardı. Onu da qeyd etmək lazımdır ki, boşanma böyüklər tərəfindən verilə bilən bir qərardır və valideynlərin birgə qərarıdır. Bundan əlavə, uşaqların yaş qrupu xüsusiyyətlərini nəzərə alaraq izah etmək məqsədəuyğun olardı. 8 yaşından kiçik uşaqların daha konkret izahatlara ehtiyacı olsa da, yeniyetməlik dövründə uşaqlarla bir az daha ətraflı müzakirə oluna bilər. Bununla belə, unudulmaması lazım olan vacib məqamlardan biri də uşaqların bilməsi lazım olmayan məlumatları ötürməkdən çəkinməkdir".

### *Uşağı tərəf tutmağa məcbur etmək olmaz*

Qeyri-müəyyənlikləri aradan qaldıracaq vəziyyətlərin uşağa da çatdırılması lazım olduğunu ifadə edən Mütəxəssis Kliniki Psixoloq Elvin Akı Konuk, "Harada, kiminlə yaşayacağı, valideynlərini nə qədər görəcəyi kimi əsas məlumatlar uşağa deyilməlidir. Boşanma prosesində və sonrasında uşağın müzakirələrdə vasitəçi kimi istifadə edilməməsi, tərəf tutmağa məcbur edilməməsi, valideynləri ilə sağlam münasibət qurmağa davam etməsi uşağın boşanma prosesini tamamlaya bilməsi üçün düşünülməli olan məsələlərdəndir.

### *Uşaqların davranışları yaşlarına görə dəyişir*

Mütəxəssis Klinik Psixoloq Elvin Akı Konuk, "Boşanma prosesini yaş qruplarına görə nəzərdən keçirsək, deyə bilərik ki, 2-6 yaş arası uşaqlar eqosentrik olduqları üçün boşanmalarda özlərini məsul tuturlar. Mütəxəssis qeyd edib ki, 7-12 yaş arası uşaqlar boşanmalarda daha çox valideynlərini günahlandırırlar. 12 yaşdan yuxarı uşaqlar bəzən qəbuledici, bəzən də tamamilə rədd edən bir münasibət göstərə bilərlər. Əgər boşandıqdan sonra uşaqlarda akademik nailiyyətlərdə uzunmüddətli geriləmə, yuxu və yemək pozğunluqları, narahatlıq, aqressiv davranış, əsəbilik və buna bənzər davranış problemləri varsa, mütləq mütəxəssis dəstəyi axtarılmalıdır.

**Bünyamin**

# «Əgər kimsə hər şeyə çox tez əsəbiləşirsə onun sevgiyə ehtiyacı var...»

*Birmənalı olaraq qeyd vurmənəviyyatının ən həssas şəkildə araşdıran Psixologiya elmi uzun illərdən bəridir ki, hər zaman aktualdı. Müasirləşən dünyamızda insan psixologiyası, psixoloji yardım və bu kimi məhfumlara ehtiyac daha da çoxalır. Bir sözlə müasir insan öz psixoloji vəziyyətinə xüsusi nəzər yetirməlidi. İnformasiya ilə dolu çağdaş dünyada insan beynin həddən artıq məlumatlarla yorulması , ekoloji böhran və bu kimi faktlar insan psixologiyasına mənfi təsirini göstərdiyi üçün çıxış yolu kimi vaxtında və düzgün psixoloji yardım almaq hər kəsin haqqıdır.*

*Mövzu ilə bağlı Adalet.az saytının budəfəki müsahibi Psixoloq Rəbiyyə Mirzəzadədir.*



**- Lütfən qısaca barənizdə oxunuclara məlumat verəsiniz?**

- Mən Mirzəzadə Rəbiyə 4 ildir psixoloq olaraq çalışıram. Psixoanaliz lə məşğulam və psixodinamik terapiya tədbiq edirəm. Ümumilikdə isə probləmə və müraciət edənə eklektik yanaşma etmək əsas məqsədimdir.

**- Sizin düşüncənizə görə əslində psixoloq kimdir?**

- Həm mənim həm də psixologiya elminin şərtlərinə görə psixoloq öz psixikası üzərində tam şəkildə çalışmış,məsləhət verərkən sağlam elmi arqumentlərə əsaslanan,cəmiyyətə lazımlı bir şəxsdir.

Əsas fikir olaraq onu söyləməliyəm ki, yaxşı və ya pis psixoloq yoxdur. Öz üzərində çalışan və çalışmayan psixoloq vardır.

**- İnsanlar adətən sizə hansı problemlərlə üz tuturlar?**

- İnsan psixoloji problemlərinin öhdəsindən şəxsi resursları ilə gələ bilmədikdə psixoloqa müraciət edir. Əsasən mənə öz fərdi xarakter xüsusiyyətlərini dərk etmək, insanlarla qarşılıqlı ünsiyyətdə çətinlik olduqda, aqresiya və stresslə başa çıxa bilmədikdə, depressiya və idarə oluna bilməyən neqativ düşüncələr və s. üçün gəlirlər.

**- Ailə anlayışını bir qayda olaraq kiçik dövlət kimi qəbul edirik. Bu mənada istərdim ailə münasibətlərindən danışasınız. Boşanmalarla bağlı bəzi məqamlar barədə fikirlərinizi bilmək maraqlıdır. Məsələn bir psixoloq kimi deyə bilərsinizmi evli bir qadın boşandıqdan sonra psixoloji cəhətdən onda nə kimi problemlər ola bilir?**

- Bu sualın içində 3 ayrı cavab tələb edən sual vardır. Hamısını ümumiləşdirib belə cavab verə bilərəm ki, qadın və kişi tamamilə fərqli varlıqlardırlar.

İnsanlar yaşından və həyat təcrübəsində asılı olmayaraq ilk növbədə özünü yaxşı tanımalı,nə istədiyini bilməli daha sonra özünə partnyor seçməlidir. Eyni zamanda da qarşı cins kimi düşünə bilməyi öyrənməlidir.

**- Hər gün olmasa da hər ay mətbuatdan intiharla bağlı xəbərlərə rast gəlirik.Statistikaya görə gənc qızların intiharları daha çoxdur. Bu barədə fikirləriniz nədir?**

- İntihar eşidilməyən kömək hayqırışıdır.

Əslində o insan ölmək istəmir. Bununla yanaşı nəzərə alsaq ki, yeniyetməlik dövründə orqanizm və psixika həyatının ən çətin keçid dövrünü yaşayır və nəzərə də alsaq ki,qadın sərhədsiz şəkildə emosional varlıqdır.

Bu səbəbdən xanımların məntiqdən kənar addım atmaqları kişilərə nisbətdə daha çox gözləniləndir.

**- Ümumi müşahidələrə əsasən söykəmək olar ki, ölkədə psixoloqların sayı getdikcə artır. Sizcə hansı psixoloqları peşəkar adlandırmaq mümkündür? Və ya psixoloqa müraciət etmək istəyənlər psixoloq seçimində nə etməlidir?**

- Diqqət etsək bu nüans yeni inkişaf edən bir çox sahəyə aiddir. İnsanların kütləvi mütəxəssislik istəyi çoxalmaqdadır. Daha öncə də qeyd etdiyim kimi,psixologiya elmi ucsuz bucaqsızdır və daima öyrənmə və öz üzərində çalışma tələb edir.

Bunu bacaran psixoloq peşəkardır.

Lakin ilk meyar olaraq müraciət edən hər kəs, psixoloqu özünə mənəvi olaraq yaxın hiss etməlidir.

Psixoloqun xarakteri onun sursatıdır..!

**- Maraqlı müsahibəyə görə təşəkkürlər.**

- Mən də sizə və redaksiyanıza təşəkkür edirəm.

**Söhbətləşdi:**
**Bünyamin BÜNYADZADƏ**

# Sevilya

**Səhər-səhər işlə əlaqədar şəhərə çıxmışdım. Kefim də yaxşı idi. Düzdür, xaş yeyib üstündən də yüz qram araq vurmamışdım. Heç qiyməli xəngəl də yeməmişdim. Sadəcə, dədə-baba motal pendiri ilə bir stəkan çay içmişdim. Amma kefimin yuxarı olması özümü də təəccübləndirir, onun səbəbini tapa bilmirdim. Düşünə-düşünə belə qərara gəldim ki, biz yaradıcı adamlar niyə həddən artıq müşahidəçi(bəlkə də vasvası) oluruq.**

Hər şeyə bir qulp qoyuruq. Kefin yuxarı olması nə qeyri-adi, qəribə haldır ki, bunun üçün baş sındırırsan. Əhval-ruhiyyə, bir ötəri xoş ovqatdır də, gəlib pənah gətirib qəlbimə. Yəqin çox çəkməz, hər şey öz təbii qaydasına düşər. Kefimin yuxarı olması da məni tezliklə etibarsız bir tanış kimi tərk edər. Bax belə, qəribə düşüncələrlə küçə ilə irəliləyirdim ki, gördüm mərkəzi xəstəxanasının yanından keçirəm. Dedim, yanlış da bir naxışdır, qoy, gəlmişkən xəstəxanaya baş çəkim. Elə üstümdədir, uşağın xəstəlik vərəqini qeydiyyatdan keçirim. Baş həkim sağ olsun, heç gözləmədiyim halda məni gülərüzlə qarşıladı. Xəstəlik kağızına qol çəkib, möhür vurdu. Dedi bir də yanıma gəlib, niyə vaxt itirirsən, get qızlar qeydiyyatdan keçirsinlər. Soraqlaşıb, qızların oturduqları otağı tapdım. Qapını döyüb içəri keçdim. Qızlar, nə qızlar! Özlərindən razı, yerə göydən baxan, qarşısındakını görməyən iki "dünya gözəli". Biri aya deyir sən çıxma mən çıxaram, o biri də günəşə deyir sən get. Mən burdayam, səni əvəz edərəm. Bir az əcaib fikirlərə qərq oldum ki, bunlar bu vid-fasonla gözəllik konkursunda mütləq aşağıdakı son iki yeri tutarlar. Bu qəribə fikirlərlə dilləndim. Kaş dinməyəydim. Qızlar təkəbbürlü baxışları ilə məni başdan-ayağa süzüb, əməlli-başlı yıxıb sürüdülər. Sanki qarşılarında mən boyda adam yox, bir heykəl durmuşdu.

Qeydiyyatçı cins şalvarı hər iki dizindən cırılmış və sapları sallanan bir qız idi. O, hirslə, bərkdən danışanda bu saplar da qorxur, əsirdilər... Qız kartotekada sənədləri çox eşələdi. Sənədləri yenidən yerinə qoyanda da hamısını tərsinə, qarışıq qoyurdu. Elə hey baş həkim kimdir ki, məndən icazəsiz bura möhür vurub, deyirdi. Xəstəlik vərəqini qeydiyyatdan keçirmək əvəzinə, nəyisə gəzir, axtarırdı. Yaman əsəbiləşmişdi. Yanındakı köməkçisi,dıqqılı qız onu(onun da cins şalvarının dizlərinin alt və üst tərəfində, həm də arxa hissəsində cırıq yerlər var idi). Bu bəstəboy qızcığaz xanımı sakitləşdirmək üçün Sevilya xanım, sizə necə kömək edə bilərəm deyə, tez-tez təkrarlayırdı. Və qorxudan əsən bu qız az qala xanım sözünü də böyük hərflə tələffüz edirdi. Onsuz da bir iş bacarmayan Sevilya xanımın əsəbləri nədənsə tarım çəkilmişdi. Birdən o, mənə sarı dönüb sakit, dilsiz baxışlarımla rastlaşanda lap cin atına mindi.

***- Siz də gəlməyə vaxt tapdınız. İşimin başımdan aşıb daşdığı vaxt. Sizin nə vecinizə. Sakitcə, müqəvva kimi durub baxırsınız. Mən isə səhərdən qan-tər içində əlləşirəm. Heç bir şey də tapa bilmirəm. Bir də...***

Artıq mən də dözə bilmədim. Səbrim tükəndi. Heç nədən ötrü bu xanımın məni bu qədər gözlətməsi və sonda təkəbbürlə süzməsi, nəticədə isə bir iş bacarmaması məni hövsələdən çıxartdı:

***- Xanım, mən şükür edirəm, nə yaxşı ki, adınız Sevilyadır. Yoxsa Barselona, Real Madrid olsanız vay bizim halımıza. Yəqin bizi bura yaxın da buraxmazdınız, - deyib çıxış qapısına tərəf addımladım...***

**Adil Misirli**

# Müharibə gedən Ukraynada Premyer Liqa bu qaydada keçiriləcək

**Ukrayna Gənclər və İdman Nazirliyi 2022/23 mövsümündən başlayaraq ölkədə futbol çempionatının keçirilməsinə icazə verib.**

Qol.az xəbər verir ki, bu qərar polis və müdafiə strukturları ilə razılaşdırıldıqdan sonra çıxarılıb. Premyer Liqaya avqustun 23-də start veriləcək. Qeyd edək ki, Rusiyanın Ukraynaya hərbi hücumundan sonra, fevralın sonlarında bu ölkədə futbol da daxil olmaqla bütün idman yarışları dayandırılıb. Yeni futbol mövsümünə gəlincə, ölkədə müharibə davam etdiyindən insanların təhlükəsizliyi nəzərə alınaraq oyunlar azarkeşlərin iştirakı olmadan keçiriləcək. Matçlara yalnız akkreditə olunmuş məhdud sayda şəxslərin - futbolçuların, məşqçilərin, hakimlərin, texniki heyətin, görüşün rəsmi şəxslərinin, akkreditə olunmuş KİV nümayəndələrinin, tibbi xidmətin, Dövlət Fövqəladə Hallar Xidmətinin və Milli Polisin iştirakına icazə verilir. İdman qurğularının operatorlarından evakuasiya planı və sığınacaqları məlumat vermələri etmələri tələb olunur. Arenalar bütün dövlət təhlükəsizlik qaydalarına uyğun gəlməlidirlər ki, yarışlarda iştirakçıların tam tərkibini qəbul edə bilsinlər. Bundan başqa, stadionlardan 500 metrdən çox olmayan məsafədə sığınacaqlar olmalıdır. Ukraynanın Gənclər və idman naziri Vadim Qutsayt sosial şəbəkədə yazıb: "Hava hücumu xəbərdarlığı zamanı stadionun diktoru bunları elan etməlidir: "Diqqət! Hava xəbərdarlığı! Hər kəsdən sığınacağı getməyi xahiş edirik!" Bu zaman matçın hakimi dərhal oyunu dayandırmalı və və komandalarla birlikdə sığınacağa yollanmalıdır".


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 92
Çapa imzalanmışdır: 19.08.2022